www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 aprel 2019-cu il Cümə № 77 (7247) Qiymәti 60 qәpik

**Xəbər**

## Bir gündə üç intihar-biri hamilə qadındır

yazısı səh.10-da

**Gündəm**

### AŞ PA-da Azərbaycanla bağlı sərt dinləmələrə Bakıdan etiraz



**Mirvari Qəhrəmanlı:** "Leyla Yunus üçün siyasi məhbus problemi sadəcə biznesdir"

yazısı səh.4-də

### Julian Assanj Londonda həbs edildi

yazısı səh.4-də

### Yanan yataqxanada yaşayan hər ailəyə 300 manat kirayə pulu verildi

yazısı səh.10-da

### Hakimiyyət və müxalifət mitinq məsələsində israr edir

yazısı səh.11-də

### Deputat büdcədən 23 milyon manat oğurlayanlardan danışdı

yazısı səh.12-də

### Bakıda Tehranı qəzəbləndirəcək Bütöv Azərbaycan müzakirəsi

yazısı səh.11-də

### "Sepah-ın Azərbaycana qarşı cəhdləri olub" - iddia

yazısı səh.13-də

### Transxəzər qaz kəməri: rəsmi Bakıya qarşı oyun, yoxsa...

yazısı səh.8-də

### Qarabağ separatçılarından Sərsəng su anbarı ilə bağlı məkrli təklif

yazısı səh.9-da

### Yaxın günlərdə "Diqlas"ın söküntüsü başlayacaq

yazısı səh.12-də

### Quduzluqdan bir nəfər öldü - itləri, yoxsa insanları qoruyaq?

yazısı səh.14-də

### Havanı çirkləndirən məşhur restoranlara xəbərdarlıq

yazısı səh.14-də

# MƏKTƏBLİNİN İNTİHARI PREZİDENTİN NƏZARƏTİNDƏ - ELİNANIN QANI BATMAYACAQ!

Təhsil nazirinin iştirakı ilə keçirilən iclasda 162 nömrəli məktəbin direktoru ilə bağlı qərar verildi; cəmiyyətdə geniş rezonans doğuran hadisə deputatların və media təmsilçilərinin iştirakı ilə geniş müzakirə edildi; **mərhum Elina Hacıyevanın anası yayılan videonu yalanladı:** "Ölmüş bir qız uşağını bu şəkildə ləkələmək nə qədər insanlıqdandır?"



yazısı səh. 3 və 5-də

## İbrahimbəyovun şok açıqlamalarına iqtidar və müxalifətdən reaksiyalar

Tanınmış kinoşünas deyib ki, Bakıda onu titullarından və mükafatlarından məhrum etməyə çağırıblar; müxalifət isə onu zorla vahid namizəd edib

yazısı səh.7-də



### Ermənistandan Putinə terror ittihamı - Kremlin cavabı ağır olacaq

yazısı səh.9-da



### 12-si Şeyxin 40 ili - niyə Allahşükür Paşazadə...

yazısı səh.13-də



*Arif Rəhimzadə:*

### "Heç vaxt kürü yemirəm"

yazısı səh.6-da



## Mingəçevirin su və kanalizasiya sistemləri yenidən qurulacaq-sərəncam

**Prezident İlham Əliyev Mingəçevir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Mingəçevir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.7.7-ci yarımbəndində göstərilmiş məbləğin 7 milyon manatı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.**

Maliyyə Nazirliyinə sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin, Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Polis Bakıda qanunsuz aksiyanın qarşısını aldı

**Müxalifət fəallarının bir qrupu Bakının mərkəzində icazəsiz etiraz aksiyası keçirməyə cəhd edib. Virtualaz.org bildirir ki, əllərində plakatlar olan gənc fəallar siyasi şüarlar qışqıraraq 30 sutkalığına həbs edilmiş Bayram Məmmədovun azad olunmasını tələb ediblər.**

Polis qanunsuz aksiyanın qarşısını alıb və onun təşkilatçılarını saxlayıb.

## Bakıda 18 dərəcə isti olacaq

**Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, aprelin 12-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 9-12, gündüz 14-18, Bakıda gecə 10-12, gündüz 16-18 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 75-85, gündüz 60-65 faiz təşkil olacaq.


## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**


# Tale Heydərov istefasının səbəbini açıqladı

### "Artıq mənim üçün bu vəzifədən getməyin və başqasına bu böyük klubu yeni qələbələrə daşımaq fürsəti verməyin vaxtı çatmışdır"



**"Qəbələ" idman klubu prezidentliyindən istefa verən Tale Heydərov açıqlama verib.**

"Yeni Müsavat" klubun saytına istinadən xəbər verir ki, o, istefa verməyin vaxtı çatdığı üçün bu addımı atdığını söyləyib: "Klubun 13 il boyunca inkişaf etməsini görmək möhtəşəm idi və mən nailiyyətlərimizlə qürur duyuram. Artıq mənim üçün bu vəzifədən getməyin və başqasına bu böyük klubu yeni qələbələrə daşımaq fürsəti verməyin vaxtı çatmışdır. Mən klubun əməkdaşlarına, oyunçularına və ən əsası azarkeşlərinə klubu indiki səviyyəyə çatdırdıqları üçün təşəkkür edirəm və bilirəm ki, onlar daha böyük uğurlar qazanacaqlar".

Klubun açıqlamasında isə qeyd edilir ki, aprelin 10-da Tale Heydərov "Qəbələ" idman klubu prezidentliyindən istefa verib. Onun 13 il bu vəzifəni icra etdikdən sonra vəzifəsindən istefa qərarını indi verməsi kluba 2019-2020-ci il mövsümü üçün rəhbərlik dəyişikliyini rahat reallaşdırmaq imkanı verir.

**"Qəbələ"nin vitse-prezidenti Fariz Nəcəfov Tale Heydərovun klubun prezidenti vəzifəsindən istefa verməyinə münasibət bildirib.**

**O, T.Heydərovun "Qəbələ"də böyük işlər gördüyünü vurğulayıb:** "Biz Tale Heydərova kluba göstərdiyi xidmətlərə görə minnətdarlığımızı bildiririk. Onun rəhbərliyi altında qazanılan uğurlar "Qəbələ"nin ölkənin öndə gələn idman institutu kimi formalaşmasını təmin edib. Tale Heydərovun infrastukturun yaradılmasına verdiyi önəm Qəbələni ölkənin əsas futbol mərkəzlərindən birinə çevirib. Heydərovun başçılığı altında klubumuz təkcə futbolda deyil, digər idman növlərində də ciddi uğurlar qazanıb. Artıq "Qəbələ" üçün yeni səhifə açılır və biz yeni uğurlara köklənmişik. Tale Heydərova gələcək işlərində müvəffəqiyyətlər arzu edirik".

Qeyd edək ki, Tale Heydərovun 13 illik rəhbərliyi altında "Qəbələ" möhtəşəm nəticələr qazanıb, kiçik təməldən başlayaraq, Azərbaycan Premyer Liqasına yüksəlməklə ölkənin ən uğurlu komandalarından birinə çevrilib. "Qəbələ" Azərbaycan üçün rekorda imza ataraq iki il ardıcıl ilk mərhələdən başlayaraq UEFA Avropa Liqası qrup mərhələlərinə yüksəlib.

## 237 gəncin təhsil haqqı Gənclər Fondu tərəfindən ödənilib

**Azərbaycan Gənclər Fondu 2018-ci ildə bir qrant müsabiqəsi keçirib və nəticədə gənclərin 270, gənclər təşkilatlarının isə 91 layihəsi maliyyələşdirilib.**

Modern.az xəbər verir ki, bunu Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov Milli Məclisin Gənclər və idman komitəsinin iclasında deyib. F.Cəfərov bildirib ki, fond 2011-ci ildə prezident İlham Əliyevin təşəbbüsü ilə təsis edilib.

İcraçı direktorun sözlərinə görə, 2018-ci ildə fondun fəaliyyət sahəsi bir qədər genişləndirilib.

"2018-ci ildə fond gənclərin təhsil haqqının ödənilməsi ilə bağlı da müsabiqə keçirib. Qiymətləndirmə əsasında 237 gəncin təhsil haqqı borcları Gənclər Fondu tərəfindən ödənilib.

Fonda 724 müraciət daxil olub və bu günə qədər də davam edir.

F.Cəfərov bildirib ki, bu ilin iyun-avqust aylarında yenidən müsabiqə elan ediləcək və bu il ən azı əvvəlkindən 2 dəfə çox gəncin təhsil haqqı borcunun ödənilməsi nəzərdə tutulur.

## Binəqədinin yol dərdi



**Binəqədidə yol problemi həll olunmur. "Yeni Müsavat"a məktub göndərən Binəqədi kəndi C. Cabbarlı küçəsinin sakinləri yollarının bərbad vəziyyətindən şikayətçidir. Şikayət məktubunda sakinlər bildirir ki, hər dəfə yağış yağdıqda kəndin yolları keçilməz olur. Vəziyyət o həddə çatır ki, uşaqlar palçıqlı yollardan keçib məktəbə gedə bilmir. Ərazidə 170 saylı marşrut işləsə də məktəb yolu bərbad olduğundan şagirdlər məktəbə çətinliklə gedirlər. Qəsəbəyə təcili tibbi yardım maşını da çətinliklə girir.**

Sakinlər yolların düzəldilməsi ilə bağlı bələdiyyəyə dəfələrlə müraciət etsə də, nəticə olmur. Hətta bir neçə dəfə bələdiyyə ərazi sakinlərindən yolların təmiri məqsədilə pul da toplayıb, lakin buna baxmayaraq yollar düzəlmir. Xatırladaq ki, şəhid Emin Bağırovun da evi sözügedən küçədə yerləşir. Ancaq yerli icra hakimiyyəti və bələdiyyə problemi həll etmək istəmir.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

## Sel İranın balıqçılıq təsərrüfatına 95 milyon dollar ziyan vurub

**Sel və daşqınlar İranın balıqçılıq təsərrüfatına 95 milyon dollar həcmində ziyan vurub. Sel çay kənarlarında qurulmuş balıqçılıq təsərrüfatlarının hovuzlarını yuyub aparıb. Nəticədə 3 min ton balıq məhv olub.**

İranın Balıqçılıq Təsərrüfatı Təşkilatının sədr müavini Hüseyn Abdullahi jurnalistlərə bildirib ki, İran balıq ixracına görə aparıcı yerlərdən birini tutur. Ötən il İran 500 milyon dollar həcmində balıq ixrac edib. Lakin bu il baş verən daşqınlar ixracın həcmini azaldacaq. Onun sözlərinə görə, sel zamanı Lorestan, Çaharmahal və Bəxtiyari vilayətlərindəki balıqçılıq təsərrüfatları tamamilə dağılıb. Hazırda araşdırma aparılır və dəyən ziyanın məbləği müəyyən edilir. Hökumət sel nəticəsində ziyana düşən təsərrüfat sahiblərinə kompensasiya verəcək. (AzərTAc)

## Bazar günü 28919 şagird buraxılış imtahanı verəcək

**Dövlət İmtahan Mərkəzi (DİM) 14 aprel 2019-cu il tarixində 27 şəhər və rayonda ümumtəhsil müəssisələrinin 11-ci sinif şagirdləri üçün buraxılış imtahanı keçirəcək.**

DİM-dən verilən məlumata görə, bu imtahanda iştirak edəcək şagirdlər "İmtahana buraxılış vərəqəsi"ni internet vasitəsilə aprelin 8-dən etibarən çap edib götürə bilirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Yaddaş kitabçası" da təqdim olunur. Burada şagirdlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

İmtahan saat 11:00-da başlanır.

İmtahanda şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədilə tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə ümumilikdə 85 tapşırıq təqdim edilir. İmtahan 3 saat davam edəcək.

## Qarabağda növbəti erməni təxribatı

**Ermənistan silahlı qüvvələrinin bölmələri işğal altında olan Azərbaycan torpaqlarında növbəti hərbi təlimlərə başlayıblar.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, Ermənistan ordusu işğal altında olan Ağdam rayonunun Uzundərə adlanan ərazisi ilə yanaşı, rayonun Şahbulaq, Tərnöyüt və Kəngərli kəndləri ərazisində də hərbi təlimlər keçirir. Təlimlərə atıcı silahlarla bərabər artilleriya vasitələri və digər hərbi texnika da cəlb edilib.

Bildirilir ki, dünən axşam saatlarından eşidilən partlayış səsləri davam edir. Atılan mərmilər əsasən dağ massivlərinə və dağətəyi kəndlərə düşür.

## İri qaya parçaları Quba-Xınalıq yolunu bağladı

**Quba-Xınalıq avtomobil yolunun 36-cı km-də dağdan sürüşən iri qaya parçaları yolun hərəkət hissəsini bağlayıb.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi bildirir ki, dərhal hadisə yerinə agentliyin əməkdaşları və xüsusi texnika cəlb edilib. Lakin dağ yamacından qaya parçalarının aşağıya doğru hərəkət etməsi davam etdiyi üçün əraziyə yaxınlaşmaq mümkün olmayıb. Sözügedən ərazidə sürüşmə sabitləşən kimi yolun hərəkət hissəsinin qaya parçalarından təmizlənməsi işlərinə başlanılacaq.

## Zelenski sorğularda liderlik edir

**Aprelin 21-də Ukraynada prezident seçkilərinin ikinci turu keçiriləcək. Namizədlər Vladimir Zelenski və Pyotr Poroşenko dövlət başçısı postu uğrunda mübarizə aparırlar.**

Virtualaz.org yerli mətbuata istinadən xəbər verir ki, keçirilmiş son sorğusunun nəticələrinə görə, vətəndaşların 61%-i Zelenskiyə səs verəcəklərini bildiriblər.

Hazırkı prezident Poroşenkonu dəstəkləyənlərin sayı isə iki dəfədən də çox azdır.

# Tale Heydərov istefasının səbəbini açıqladı

“Artıq mənim üçün bu vəzifədən getməyin və başqasına bu böyük klubu yeni qələbələrə daşımaq fürsəti verməyin vaxtı çatmışdır”



**“Qəbələ” İdman Klubu prezidentliyindən istefa verən Tale Heydərov açıqlama verib.**

“Yeni Müsavat” klubun saytına istinadən xəbər verir ki, o, istefa verməyin vaxtı çatdığı üçün bu addımı atdığını söyləyib: “Klubun 13 il boyunca inkişaf etməsini görmək möhtəşəm idi və mən nailiyyətlərimizlə qürur duyuram. Artıq mənim üçün bu vəzifədən getməyin və başqasına bu böyük klubu yeni qələbələrə daşımaq fürsəti verməyin vaxtı çatmışdır. Mən, klubun əməkdaşlarına, oyunçularına və ən əsası azarkeşlərinə klubu indiki səviyyəyə çatdırdıqları üçün təşəkkür edirəm və bilirəm ki, onlar daha böyük uğurlar qazanacaqlar.”

Klubun açıqlamasında isə qeyd edilir ki, aprelin 10-da Tale Heydərov “Qəbələ” İdman Klubu prezidentliyindən istefa verib. Onun 13 il bu vəzifəni icra etdikdən sonra vəzifəsindən istefa qərarını indi verməsi kluba 2019-2020-ci il mövsümü üçün rəhbərlik dəyişikliyini rahat reallaşdırmaq imkanı verir.

“Qəbələ”nin vitse-prezidenti Fariz Nəcəfov Tale Heydərovun klubun prezidenti vəzifəsindən istefa verməyinə münasibət bildirib.

O, T.Heydərovun “Qəbələ”də böyük işlər gördüyünü vurğulayıb: “Biz Tale Heydərova kluba göstərdiyi xidmətlərə görə minnətdarlığımızı bildiririk. Onun rəhbərliyi altında qazanılan uğurlar “Qəbələ”nin ölkənin öndə gələn idman institutu kimi formalaşmasını təmin edib. Tale Heydərovun infrastukturun yaradılmasına verdiyi önəm Qəbələni ölkənin əsas futbol mərkəzlərindən birinə çevrilib. Heydərovun başçılığı altında klubumuz təkcə futbolda deyil, digər idman növlərində də ciddi uğurlar qazanıb. Artıq “Qəbələ” üçün yeni səhifə açılır və biz yeni uğurlara köklənmişik. Tale Heydərova gələcək işlərində müvəffəqiyyətlər arzu edirik.”

Qeyd edək ki, Tale Heydərovun 13 illik rəhbərliyi altında “Qəbələ” İK möhtəşəm nəticələr qazanıb, kiçik təməldən başlayaraq? Azərbaycan Premyer Liqasına yüksəlməklə ölkənin ən uğurlu komandalarından birinə çevrilib. “Qəbələ”, Azərbaycan üçün rekorda imza ataraq iki il ardıcıl ilk mərhələdən başlayaraq UEFA Avropa Liqası qrup mərhələlərinə yüksəlib.



## Mingəçevirin su və kanalizasiya sistemləri yenidən qurulacaq-sərəncam

**Prezident İlham Əliyev Mingəçevir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Mingəçevir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.7.7-ci yarımbəndində göstərilmiş məbləğin 7 milyon manatı “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.**

Maliyyə Nazirliyinə sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin, Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Polis Bakıda qanunsuz aksiyanın qarşısını aldı

**Müxalifət fəallarının bir qrupu Bakının mərkəzində icazəsiz etiraz aksiyası keçirməyə cəhd edib. Virtualaz.org bildirir ki, əllərində plakatlar olan gənc fəallar siyasi şüarlar qışqıraraq 30 sutkalığına həbs edilmiş Bayram Məmmədovun azad olunmasını tələb ediblər.**

Polis qanunsuz aksiyanın qarşısını alıb və onun təşkilatçılarını saxlayıb.

## Bakıda 18 dərəcə isti olacaq

**Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, aprelin 12-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 9-12, gündüz 14-18, Bakıda gecə 10-12, gündüz 16-18 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 75-85, gündüz 60-65 faiz təşkil olacaq.


Abunə daha sərfəlidir - “Yeni Müsavat” abunə kampaniyasını davam etdirir




“Yeni Müsavat” qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa “Qaya” Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**


## 237 gəncin təhsil haqqı Gənclər Fondu tərəfindən ödənilib

**Azərbaycan Gənclər Fondu 2018-ci ildə bir qrant müsabiqəsi keçirib və nəticədə gənclərin 270, gənclər təşkilatlarının isə 91 layihəsi maliyyələşdirilib.**

Modern.az xəbər verir ki, bunu Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov Milli Məclisin Gənclər və idman komitəsinin iclasında deyib. F.Cəfərov bildirib ki, Fond 2011-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə təsis edilib.

İcraçı direktorun sözlərinə görə, 2018-ci ildə Fondun fəaliyyət sahəsi bir qədər genişləndirilib.

“2018-ci ildə Fond gənclərin təhsil haqqının ödənilməsi ilə bağlı da müsabiqə keçirib. Qiymətləndirmə əsasında 237 gəncin təhsil haqqı borcları Gənclər Fondu tərəfindən ödənilib.

Fonda 724 müraciət daxil olub və bu günə qədər də davam edir.

F.Cəfərov bildirib ki, bu ilin iyun-avqust ayları ərzində yenidən müsabiqə elan ediləcək və bu il ən azı əvvəlkindən 2 dəfə çox gəncin təhsil haqqı borcunun ödənilməsi nəzərdə tutulur.

## Binəqədinin yol dərdi



**Binəqədidə yol problemi həll olunmur. “Yeni Müsavat”a məktub göndərən Binəqədi kəndi C. Cabbarlı küçəsinin sakinləri yollarının bərbad vəziyyətindən şikayətçidir. Şikayət məktubunda sakinlər bildirir ki, hər dəfə yağış yağdıqda kəndin yolları keçilməz olur. Vəziyyət o həddə çatır ki, uşaqlar palçıqlı yollardan keçib məktəbə gedə bilmir. Ərazidə 170 saylı marşrut işləsə də məktəb yolu bərbad olduğundan şagirdlər məktəbə çətinliklə gedirlər. Qəsəbəyə təcili tibbi yardım maşını da çətinliklə girir.**

Sakinlər yolların düzəldilməsi ilə bağlı bələdiyyəyə dəfələrlə müraciət etsə də, nəticə olmur. Hətta bir neçə dəfə bələdiyyə ərazi sakinlərindən yolların təmiri məqsədi ilə pul da toplayıb, lakin buna baxmayaraq yollar düzəlmir. Xatırladaq ki şəhid Emin Bağırovun da evi sözügedən küçədə yerləşir. Ancaq yerli icra hakimiyyəti və bələdiyyə problemi həll etmək istəmir.

**Kənan RÖVŞƏNOĞLU, “Yeni Müsavat”**

## Sel İranın balıqçılıq təsərrüfatına 95 milyon dollar ziyan vurub

**Sel və daşqınlar İranın balıqçılıq təsərrüfatına 95 milyon dollar həcmində ziyan vurub. Sel çay kənarlarında qurulmuş balıqçılıq təsərrüfatlarının hovuzlarını yuyub aparıb. Nəticədə 3 min ton balıq məhv olub.**

İranın Balıqçılıq Təsərrüfatı Təşkilatının sədr müavini Hüseyn Abdullahi jurnalistlərə bildirib ki, İran balıq ixracına görə aparıcı yerlərdən birini tutur. Ötən il İran 500 milyon dollar həcmində balıq ixrac edib. Lakin bu il baş verən daşqınlar ixracın həcmini azaldacaq. Onun sözlərinə görə sel zamanı Lorestan, Çaharmahal və Bəxtiyari vilayətlərindəki balıqçılıq təsərrüfatları tamamilə dağılıb. Hazırda araşdırma aparılır və dəyən ziyanın məbləği müəyyən edilir. Hökumət sel nəticəsində ziyana düşən təsərrüfat sahiblərinə kompensasiya verəcək. (AzərTAc)

## Bazar günü 28919 şagird buraxılış imtahanı verəcək

**Dövlət İmtahan Mərkəzi (DİM) 14 aprel 2019-cu il tarixində 27 şəhər və rayonda ümumtəhsil müəssisələrinin 11-ci sinif şagirdləri üçün buraxılış imtahanı keçirəcək.**

DİM-dən verilən məlumata görə, bu imtahanda iştirak edəcək şagirdlər "İmtahana buraxılış vərəqəsi"ni internet vasitəsilə aprelin 8-dən etibarən çap edib götürə bilirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Yaddaş kitabçası" da təqdim olunur. Burada şagirdlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

İmtahan saat 11:00-da başlanır.

İmtahanda şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə ümumilikdə 85 tapşırıq təqdim edilir. İmtahan 3 saat davam edəcək.

## Qarabağda növbəti erməni təxribatı

**Ermənistan silahlı qüvvələrinin bölmələri işğal altında olan Azərbaycan torpaqlarında növbəti hərbi təlimlərə başlayıblar.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, Ermənistan ordusu işğal altında olan Ağdam rayonunun Uzundərə adlanan ərazisi ilə yanaşı, rayonun Şahbulaq, Tərnöyüt və Kəngərli kəndləri ərazisində də hərbi təlimlər keçirir. Təlimlərə atıcı silahlarla bərabər artilleriya vasitələri və digər hərbi texnika da cəlb edilib.

Bildirilir ki, dünən axşam saatlarından eşidilən partlayış səsləri davam edir. Atılan mərmilər əsasən dağ massivlərinə və dağətəyi kəndlərə düşür.

## İri qaya parçaları Quba-Xınalıq yolunu bağladı

**Quba-Xınalıq avtomobil yolunun 36-cı km-də dağdan sürüşən iri qaya parçaları yolun hərəkət hissəsini bağlayıb.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi bildirir ki, dərhal hadisə yerinə Agentliyin əməkdaşları və xüsusi texnika cəlb edilib. Lakin dağ yamacından qaya parçalarının aşağıya doğru hərəkət etməsi davam etdiyi üçün əraziyə yaxınlaşmaq mümkün olmayıb. Sözügedən ərazidə sürüşmə sabitləşən kimi yolun hərəkət hissəsinin qaya parçalarından təmizlənməsi işlərinə başlanılacaq.

## Zelenski sorğularda liderlik edir

**Aprelin 21-də Ukraynada prezident seçkilərinin ikinci turu keçiriləcək. Namizədlər Vladimir Zelenski və Pyotr Poroşenko dövlət başçısı postu uğrunda mübarizə aparırlar.**

Virtualaz.org yerli mətbuata istinadən xəbər verir ki, keçirilmiş son sorğunun nəticələrinə görə, vətəndaşların 61%-i Zelenskiyə səs verəcəklərini bildiriblər.

Hazırkı prezident Poroşenkonu dəstəkləyənlərin sayı isə iki dəfədən də çox azdır.

YENİ MÜSAVAT
N 77 (7247) 12 aprel 2019

# Deputatlar və media kapitanları Elina üçün bir araya gəldi

## İntihar olayının necə işıqlandırılması müzakirə olundu

**Aprelin 11-də Beynəlxalq Mətbuat Mərkəzində "İnformasiya mühitində uşaq və yeniyetmə hüquqlarının qorunması: mövcud yanaşmalar və tələblər" mövzusunda təşkil olunan konfrans keçirilib.**









**Tədbirdə çıxış edən Mətbuat Şurasının sədri Əflatun Amaşov** hadisə haqqında məlumat verərək, mediada intihar olayına iki yanaşmanın olduğunu vurğulayıb. Onun sözlərinə görə, bəzi mətbuat orqanları media etikasına riayət etməyin tərəfdarı olsa da, bəziləri baş verənləri bütün detalları ilə işıqlandırmağa çalışır. Ə.Amaşov bu məsələdə qanunvericiliyə istinad edilməsinin də zəruriliyini vurğulayıb.

**Deputat Fazil Mustafa** isə qeyd edib ki, mətbuatın nəyi verib-verməməsi müzakirə edilməməlidir: "Mətbuat azaddır, hər bir informasiyanı verə bilər, yetər ki, bu xəbərin verilməsində cinayət tərkibi olmasın. Bu məsələdə təkcə məktəbi günahlandırmaq olmaz, bütövlükdə cəmiyyətin problemidir. Doğrudur, məktəblərdə də problem var. Ancaq cəmiyyətdə də müəyyən problemləri qeyd etmək lazımdır. Ən tanınmış çay evlərinə belə qəlyan tüstüsündən girmək olmur, əksəriyyət də yeniyetmələrdir. Bunun sonu əlbəttə ki, intihara aparır. Valideyn və məktəb arasında problem bəzən ona görə yaranır ki, müəllim valideynin qorxusundan məktəbli haqqında neqativ heç nə deyə bilmir. Biz dəfələrlə məsələ qaldırdıq ki, məktəblərin qarşısında 200 metrliyində qəlyanxanalar olmasın, dənə ilə siqaret satılmasın. Ancaq yığışdıra bilmədik. Nəzərə alaq ki, mətbuat, televiziya tərbiyə verən orqan deyil, xəbər verən orqandır. Kimisə tərbiyələndirmək, cəzalandırmaq medianın işi deyil".

**F.Mustafa həmçinin direktorun işdən çıxarılmasını doğru hesab etmədiyini bildirib:** "Direktor 2 min nəfər şagirdə necə nəzarət eləsin. Hərəsi bir evdən gəlir, hərəsinin ayrı-ayrı psixologiyası var. Problemin həlli üçün məktəb-valideyn münasibətləri bərpa edilməlidir. Müəllimlərlə valideynlər arasında hər gün telefon əlaqəsi olmalıdır. Müəllimin dəyərini qaldırmalıyıq, statusunu qaldırmalıyıq".

**"Valideyn övladını təkcə məktəbin üzərinə atmamalıdır. Biz də media olaraq məktəbi qaralamalı deyilik". Bu sözləri isə "Yeni Müsavat" qəzetinin baş redaktorunun birinci müavini Azər Ayxan konfransda çıxışı zamanı səsləndirdi:** "Elə bir dövrdə yaşayırıq ki, sosial media bizim həyatımıza daxil olub və peşəkar media sosial media ilə yarışır. Bəzən fərqinə varmadan sosial media ilə bir yarış içindəyik. Bəzi xəbərləri sosial şəbəkə ilə yarışaraq veririk, filan xəbər sosial şəbəkədə yayılıb, tez onu xəbərə çevirək. Bunun nəticəsində belə xəbərlərin yayılması meydana çıxır. Bir çox inkişaf etmiş Avropa ölkələrində intihar, zorlama, qəza və sair kimi olaylar mediada, hətta sosial mediada belə yayılmır. Cəmiyyətlə media arasında bir anlaşma var".

**A.Ayxan vurğuladı ki, ortada bir yeniyetmə qızın ölüm faktı var, bu hər birimizi üzür:** "Bizim də o yaşlarda övladlarımız var. Məsələyə bir qədər də övladını itirmiş valideynin gözüylə baxmalıyıq. Övlad elə bir varlıqdır ki, insan onun üçün ölümə də gedər. Övlad haqlı da olsa, haqsız da olsa, valideyn onun uğrunda savaşa girməyə hazırdır. Növbəti belə hadisələrin baş verməməsi üçün biz də çalışmalıyıq. Cəmiyyətin öndəgələn insanlarıyıq, bizim üzərimizə çox ciddi məsuliyyət düşür. İctimai fikrin yaranmasında ciddi rolumuz var. Ona görə də təkcə öz övladlarımızın problemi olanda yox, digər gənclərin problemi olanda da biz bir media rəhbəri, ictimai xadim, deputat olaraq kömək etməliyik. Biz "Yeni Müsavat" olaraq dəfələrlə vətəndaşlara birbaşa köməklik etmişik. Vətəndaş sonuncu ümid yeri olaraq "Yeni Müsavat"ın redaksiyasına üz tutub, hansısa məmurun haqsızlığı ilə üzləşib, problemi işıqlandırmışıq, məsələ həllini tapıb".

**A.Ayxan bildirdi ki, valideynlər övladlarına nəzarət etməlidilər:** "Bütün məsuliyyəti məktəbin üzərinə atmamalıdır. Əgər övladının məktəbdə problemi yaranıbsa, özü direktorla, müəllimlə təmasa keçməlidir".

**ONA informasiya agentliyinin direktoru Vüsalə Mahirqızı da vurğulayıb ki, dövlət məktəblərinə qarşı bu cür fobiyanın yaranması qəbuledilməzdir:** "Baş vermiş hadisə çox pis hadisə olsa da, yaxşı olan odur ki, bu,cəmiyyəti silkələyə bilib. Tanınmışların, ictimai institutların, sadə insanların bu hadisəyə belə reaksiyası çox yaxşı haldır və intiharın kütləviləşməsinin qarşısını alır. Dünyada intiharın ən çox olduğu ölkələr Skandinaviya ölkələridir ki, onların əksəriyyəti inkişaf etmiş ölkələrdir. Həm medianın, həm də dövlət qurumlarının məsələyə münasibətində yanlışlıqlar var. Təhsil Nazirliyinin, Ailə Qadın və Uşaqların Problemləri üzrə Dövlət Komitəsinin məsələyə reaksiyası operativ olmalı idi".

**V.Mahirqızı vurğuladı ki, istənilən halda bu məsələdə ailənin məsuliyyəti var:** "Uşağa müəllim də nəsə deyə bilər, məktəbdə problem də ola bilər, bunların hamısı intihara aparmalı deyil. Burada ailədə baş vermiş hadisələrin ciddi təsirləri var. Ancaq direktorun yanaşması da problemlidir. Məktəblərdə psixoloq məsələsi ciddi problemdir".

**Media rəhbəri vurğuladı ki, mediada bir davranış kodeksi olmalıdır:** "Uşağın intihar anının videosunun mediada yayılması doğru deyil. İstintaq materialları mediada yayılmamalıdır... Məsələ araşdırılmalıdır, direktordan tutmuş səhiyyə işçilərinə qədər bu məsələdə günahı olan hər kəs cəzalanmalıdır".

**"Kaspi" qəzetinin təsisçisi, Milli Teleradio Şurasının üzvü Sona Vəliyeva təlim-tərbiyə işində məktəblə valideynin birgə çalışmasının zərurətini vurğuladı:** "Hər birimiz valideynik, hamınızın övladı var, onlar bizim canımız-ciyərimizdir. Ancaq bir məsələ də var ki, bu hadisələrin baş verməsində əsas səbəb ailələrin məktəblə təmasının güclü olmamasından irəli gəlir. Biz də məktəblərlə işləyirik. Məktəbin məsuliyyətini üzərinə götürən direktorla valideyn eyni məsuliyyət daşıyır, eyni ağırlığı çiynində hiss etməliyik. Bu çox vacib məsələdir. İdeal övlad böyütmək bizim əsəblərimizdən, sinirlərimizdən keçir. Səbirlə, təmkinlə onların tərbiyəsinə çalışırıq, başa salmağa çalışırıq. Bu ağırlığın bir ucu da məktəb direktorlarının, məktəbdə təlim-tərbiyə işləri ilə məşğul olanların üzərindədir. Mən özüm də bu işin içindəyəm. Keçmişdə bir rayonda prokuror işləmiş bir adamın qız nəvəsi məktəbə telefonla gəldi. Biz isə dedik ki, olmaz, telefonu ondan aldıq kənara qoyduq. Növbəti dəfə daha bahalı bir telefonla gəldi. Babası ilə söhbət apardıq, babası dedi ki, o, mənim həyatımdır, canımı da istəsə verərik. Biz isə dedik ki, axı onun evini yıxırsınız. Siz onun tərbiyəsində bizə yardımçı olmalısınız. Bu məsələdə əlimizdən tuta bilməsəniz belə barmağımızdan tutun. Məktəblərin sizin arzuladığınız kimi övlad böyütməsini istəyirsinizsə, o zaman hər birimiz heç olmasa həftənin bir gününü məktəbə getməliyik, sinif rəhbəri ilə maraqlanmalıyıq".

**S.Vəliyeva vurğuladı ki, məktəb və ailə sıx ünsiyyətdə olmalıdır:** "Uşaqlarınızın sosial şəbəkədə kiminlə əlaqə qurduğuna, kiminlə yazışdığına diqqət edin. Müəllimlər də, valideynlər də uşaqlarla dost olmalıdırlar. Uşaqlar sirlərini onlara deməlidir, çəkinməməlidir. Hesab etməlidir ki, müəllimlər də, ata-ana da onların dostudur. Qızlar anası, oğlanlar atası ilə dost olmalıdır. Hər bir sinif rəhbəri hər bir uşaqla dost olmalıdır. Məsələni psixoloqların üstünə atırıq. Əvvəllər psixoloqlar yox idi, sinif rəhbərləri hər şey edirdi. Ailə-məktəb-şagird üçbucağı düzgün qurulmalıdır".

Tədbirdə millət vəkili Aydın Mirzəzadə, jurnalist Azər Həsrət, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov və digərləri də çıxış edərək bənzər fikirlər səsləndirdilər. Medianı bu cür xəbərlərin tirajlanmasında həssas olmağa səslədilər.

**❑ Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

## Paşinyan Strasburqda nə dedi?



**"Biz Azərbaycanla Ermənistan, Azərbaycanla Dağlıq Qarabağ arasında hədə dili ilə danışmamalıyıq və bizim məqsədimiz cəmiyyətimizi müharibəyə yox, sülhə hazırlamaqdır".**

Modern.az xəbər verir ki, bu açıqlamanı Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasının açılışı üçün Strasburqa səfər edən Ermənistan baş naziri Nikol Paşinyan verib.

Paşinyan deyib ki, "təəssüf ki, bizim Azərbaycan və Türkiyə ilə diplomatik münasibətlərimiz yoxdur". "Əgər Azərbaycanla münasibətlərdə hər şey aydındırsa, Türkiyə ilə bağlı məsələdə başqa görüntü var. Ermənistanla münasibətlərin bərpasını Türkiyə birbaşa Azərbaycanla əlaqələndirir. Ermənistan bu məsələdə mövqeyini dəyişməyib. Biz deyirik ki, heç bir ilkin şərt irəli sürmədən Türkiyə ilə münasibətlərin bərpasına hazırıq", - deyə, o bildirib.

"Ermənistanda on ildən çox rüşvətxor və zorakı hökumət hakimiyyətdə olub. Ancaq bu hakimiyyətə sülh yolu ilə son qoymağa nail olmuşuq", - deyə, o bildirib.

**O, Dağlıq Qarabağ münaqişəsinə də toxunub:** "Biz istəyirik ki, bu münaqişə yalnız sülh yolu ilə həll olunsun. Bunun üçün də uzun müddətdir Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə məşğul olan ATƏT-in Minsk Qrupu çərçivəsində fəaliyyət göstərmək istəyirik. Çünki yalnız bu qurum əvvəldən hadisələri yaxından izləyib və hər bir addımdan xəbərdardır".

Avropa Şurasının baş katibi Turbyern Yaqlandla birgə mətbuat konfransı keçirən Paşinyandan bəyan etdiyi sülh çağırışı ilə müdafiə naziri David Tonoyanın hədə dolu bəyanatı arasında ziddiyyət soruşulub.

Virtualaz.org "Novisti Armeniya"ya istinadən bildirir ki, N.Paşinyan Avropa Şurasının baş katibi Turbern Yagland ilə birgə mətbuat konfransında jurnalistlərin bu sualına cavab verərkən deyib: "Bu, olsa-olsa vəziyyətin təfsir olunması məsələsidir".

Avropa Şurasının baş katibi Turbern Yaqland isə Ermənistanı "Avropa tarixində və dəyərlərində kök salmış Avropa ölkəsi" adlandırıb. O, Ermənistandakı hadisələri və konstitusiya əsasında aparılan demokratik dəyişiklikləri alqışlayıb. Virtualaz.org "Novosti Armeniya"ya istinadən bildirir ki, T.Yaqland konstitusiyanın hazırlanmasında Avropa Şurasının fəal iştirak etdiyini xatırladıb və "hər şeyin işlədiyini görmək çox xoşdur" deyib. T.Yagland islahatların təşviq edilməsinə görə, xüsusilə də məhkəmə sistemində, Ermənistan baş nazirinə təşəkkür edib və Avropa Şurasının yardım göstərməyə hazır olduğunu bildirib. "Bu yaxınlarda biz 2020-ci il üçün Ermənistan üzrə yeni bir fəaliyyət planı qəbul etmişik", - deyə o əlavə edib. Baş katib onu da vurğulayıb ki, Ermənistanda qurumların gücləndirilməsinin təşviq edilməsi üçün birgə çalışacaqlar. "Tam aydın görünür ki, Ermənistan Avropa tarixində və dəyərlərində kök salmış Avropa ölkəsidir", - deyə baş katib fikrini yekunlaşdırıb.

# AŞ PA-da Azərbaycanla bağlı sərt dinləmələr-Bakıdan reaksiyalar

**Aprelin 9-da Strasburqda Avropa Şurasının Parlament Assambleyasının yaz sessiyası çərçivəsində AŞ PA-nın Monitorinq və Hüquqi Məsələlər və İnsan Hüquqları komitələri Azərbaycanda siyasi məhbus problemi ilə bağlı dinləmələr təşkil edib. Dinləmələr ölkəmiz adına kifayət qədər sərt keçib və bir sıra məqamlar diqqət çəkib.**




Hollandiyada mühacir həyatı yaşayan hüquq müdafiəçisi Leyla Yunusun dinləmələrdə iştirak edib çıxış etməsi diqqətdən yayınmayıb. O, çıxışında deyib ki, 2013-cü ilin yanvarında AŞ PA üzvləri Ştrasserin Azərbaycanda siyasi məhbuslar haqqında məruzəsinin əleyhinə səs verib: “Bununla da onlar Azərbaycanda daha dəhşətli repressiyalara ”yaşıl işıq" yandırıblar. Hamımızı həbs etdilər, bunun nəticəsi olaraq bu gün ölkədə faktiki olaraq vətəndaş cəmiyyəti, müstəqil QHT və KİV yoxdur".

**REAL Partiyasının sədri İlqar Məmmədov müzakirələrdə Skype vasitəsilə iştirak edib. O, məhkəmə qərarı olmasına baxmayaraq, hakimiyyətin ona pasport vermədiyini, buna görə Strasburqa gələ bilmədiyini bildirib:** “AŞ PA üzvlərinə üz tutaraq qeyd etmək istəyirəm ki, hakimiyyətin Azərbaycanda islahatlar haqqında heç bir təminatına inanmasınlar. Siyasi məhbuslar yaradılması mexanizmi dəyişməyib. Təəssüf ki, AŞ PA qurumları Azərbaycanda siyasi məhbuslar yaranmasının qarşısını almaq üçün heç nə etməyib. ”Cəzasızlıq atmosferi" hakimiyyətə belə şeylər etməyə imkan verir".

**Hüquq müdafiəçisi Rəsul Cəfərov çıxışında hakimiyyətin hüquq müdafiəçilərinin siyasi məhbuslar məsələsini qaldırmaqla Azərbaycanı biabır etməsi və onun imicinə xələl gətirməsi barədə ittihamlarını təkzib edib:** “Biz ölkəmizi sevirik və məhz buna görə siyasi məhbuslar problemini həll etməyi tələb edirik”.

**Müzakirələr zamanı Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin sədri Səməd Seyidov müzakirə iştirakçılarını qeyri-obyektivlikdə və siyasi ambisiyalarda ittiham edib. O, toplaşanları Azərbaycanda siyasi təqiblər barədə iddialara inanmamağa çağırıb:** “Bəli, Azərbaycanda siyasi məhbuslar var-onlar Ermənistanın işğal etdiyi rayonlardan olan 1 milyon qaçqınlardır”.

Azərbaycanla Avropa İttifaqı arasında sazişin imzalanması ərəfəsində belə bir sərt dinləmələrin keçirilməsi ciddi suallar yaradıb. Ölkə daxilində və xaricində bəzi dairələrin sazişin bağlanmasının əleyhinə olduqları barədə fikirlər dolaşır.



**Aydın Mirzəzadə:** “Dinləmələrin keçirilməsi sazişin imzalanmasının qarşısını ala bilməsə də...”.



**Mirvari Qəhrəmanlı:** “Leyla Yunus üçün siyasi məhbus problemi, sadəcə, biznesdir”

**YAP-çı deputat Aydın Mirzəzadə bildirdi ki, Azərbaycanın müstəqil xarici siyasət yeritməsi xaricdə müəyyən dairələrin heç də maraqlarına cavab vermir:** “Çalışırlar ki, təbii sərvətləri zəngin olan, əlverişli geosiyasi məkanda yerləşən müstəqil dövlət onların təsiri altında olsun. Necə ki, bu gün Suriya, Liviya, Yəmən kimi ölkələrin dövlətçiliyi ciddi böhran keçirir. Onlar Azərbaycanı da bu halda görmək istəyirlər. Ancaq ulu öndər Heydər Əliyevin zamanından başlayaraq indiki prezidentin dövründə Azərbaycan xalqının maraqlarına tam cavab verən siyasət yürüdür. Təbii sərvətlərimiz dünya bazarına çıxarılır və ondan gələn gəlirlər Neft Fondunda toplanır. Azərbaycan heç kəsin forpostu olmağa imkan vermir. Bu baxımdan Azərbaycana təzyiq etmək, ölkəmizi öz müstəqil siyasətindən çəkindirməyə çalışan qüvvələr var. Bunu bəzən açıq şəkildə göstərirlər, bəzən də siyasi təzyiq edirlər. Azərbaycan daxilində müəyyən qruplar, şəxslər tapılır ki, onlara xaricdən qrantlar verilir. Ölkəmizdən kənarda da şəxslər tapılır, onlara da müəyyən məbləğdə vəsaitlər verib özlərinin anti-Azərbaycan təbliğatlarında həmin insanlardan əsas vasitə kimi istifadə edirlər. Ən əsası isə Azərbaycana aid olmayan məsələni zorla ölkəmizin boynuna qoymağa çalışırlar. Azərbaycanda heç vaxt siyasi məhbus olmayıb. Siyasi əqidəsinə görə heç kəs tutulmayıb. Bu baxımdan ölkəmizi olmayan məsələdə ittiham etməklə beynəlxalq aləmdə Azərbaycan haqqında mənfi imic yaratmağa çalışırlar. Bu gün bu və ya digər məsələdə ölkəmizin dəstəklənməsi dairəsi daima genişlənir. Azərbaycanı küncə sıxmaq üçün belə siyasi təzyiq vasitələrindən istifadə edirlər. Ancaq bunların təzyiqləri əbəsdir. Çünki AŞ PA-nın üzvüyük, Avropa Şurasının nizamnaməsini dəqiq yerinə yetirən ölkəyik, hər zaman əməkdaşlığa açığıq. Çox təəssüflər olsun ki, bütün bunlara baxmayaraq, bu cür qüvvələr xaricdə tapılır. Hər şeyə rəğmən Azərbaycan AŞ PA və digər beynəlxalq qurumlarla əməkdaşlıqda maraqlıdır. Bundan sonra əməkdaşlığın bütün formaları daima fəaliyyət göstərəcək”.

**Deputat dinləmələrin Azərbaycanla Avropa İttifaqı arasında bağlanacaq sazişə təsir etməyəcəyini düşünür:** “İnanmıram ki, sazişə hər hansı bir təsiri olsun. Onlar çalışırlar ki, siyasi təzyiq göstərsinlər. Hər halda, onlar ümid edirlər ki, dinləmələrin keçirilməsi sazişin imzalanmasının qarşısını ala bilməsə də, vaxtının uzanmasına səbəb ola bilər. Sazişin imzalanması Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin daha da sıx birləşməsinə kömək edəcək, viza rejimi sadələşəcək, təhsil və digər sahələrdə ciddi əlaqələr olacaq. Bütün bunları məhdudlaşdırmağa çalışırlar. Amma Avropa Birliyinin kifayət qədər praqmatik rəhbər dairələri var. Onlar heç bir halda bu cür provokasiyalara getməyəcəklər”.

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı L.Yunus barədə kifayət qədər sərt danışdı:** “Məhbusun siyasi olduğunu sübut etmək üçün bütün məhkəmə proseslərinin monitorinqi aparılmalı, hakimlər tərəfindən proseslərə olunan pozuntular göstərilməlidir. Sübut edilməlidir ki, bu adamın etdiyi cinayət deyil, sadəcə, siyasi fəaliyyəti ilə əlaqədar həbs edilib. Leyla Yunus üçün siyasi məhbus problemi, sadəcə, biznesdir. Qızım Mətanəti nəzərdə tutub deyirəm. 18 il onun yanında fəaliyyət göstərdi, bütün işlərinə, maliyyələrinə bələd oldu, ona görə 18 yaşında balasını evdə qoyub getdi, Leylanın onun avtomobilinə qoydurduğu və onunla bağlı proseslərə aid sənədləri yol boyu cırdı, ona görə övladı və həyat yoldaşı xəstə oldu, özü də stressdən xəstəliyə düşdü. Amma Leyla Yunus bunun qarşılığında nə etdi? Bir forumda qızımı görəndə təhlükəsizliklə məşğul olan insanın qucağına çıxaraq qışqırmışdı ki, qoymayın KQB agenti məni öldürməyə gəlib. Belə bir insanın hazırladığı hansı sənədə inanmaq olar? Yalan, şantaj xarakteri daşıyır. Sadəcə olaraq, o, siyasi məhbuslardan biznes kimi istifadə edir. Mətanətin günahı olmuşdu ki, onun yüzə qədər layihəsini üzərinə götürməmişdi. İnsana şantaj atan birisinin hesabatına heç cür inanmaram. Ölkə daxilində deyil, heç bir məlumatı yoxdur, ümumiyyətlə, heç vaxt məhkəmə monitorinqləri aparmayıb. Kimlərdənsə aldığı informasiyalar əsasında xaricdə oturub siyasi məhbus siyahıları hazırlayır. Düşünürəm ki, ona hökumət daxilindən kiminsə ciddi dəstəyi var. Həmin dəstəyi verənlər ölkədə gedən proseslərin qarşısını almağa çalışırlar, siyasi məhbusların azadlığa buraxılmalarını istəmirlər. Üç həftə əvvəl sərəncamı verilib. 50-dən çox siyasi məhbus azad olundu. Niyə əvvəlki dinləmələrdə siyasi məhbus məsələsi bu qədər müzakirə olunmurdu? Üç həftə əvvəl verilən və ölkənin bütün təbəqələri tərəfindən yüksək qiymətləndirilən əfv indi AŞ PA-da müzakirələrə çıxarılır? Əgər bu məsələ yanvarın əvvəllərində olsaydı, bu qədər təəccüblənməzdim, hətta deyərdim ki, bu mütləqdir, vacibdir. İndiki müzakirələrdə maraqların güdüldüyü açıq görünür. Leyla Yunus ayrı-ayrı qruplar tərəfindən hazırlanmış tezislər əsasında çıxış edir. O, ölkədən çıxa bilər, amma burada dəstəkçiləri hakimiyyət daxilində qalmaqdadır. Leyla Yunus maddi cəhətdən kifayət qədər təmin olunur. Çox arzu edərdim ki, hökumət siyasi məhbus problemini ilin axırına qədər bitirib bu qadını pulsuz qoysun. Ölkədə siyasi məhbus probleminin olduğu danılmazdır”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

## Julian Assanj Londonda saxlanıldı

**Məşhur “Wikileaks” saytının yaradıcısı Julian Assanj Londonda saxlanılıb.**



Qeyd edək ki, Assanj İsveç və ABŞ tərəfindən axtarışa verilmişdi. O, İsveçdə zorlama və digər seksual xarakterli cinayətlərdə, ABŞ-da isə məxfi sənədləri yaymaqda ittiham olunur. Assanjı yaxalamaq FBI-nin əsas vəzifələrindən biri idi. Həm Dövlət Departamentinin məxfi sənədləri, həm də Hillari Klintonun seçki qərargahına aid yazışmalar “Wikileaks”da dərc olunmuşdu.

Assanj 2012-ci ildən Ekvadorun Britaniyadakı səfirliyində gizlənirdi və bu ölkə hökumətinin qərarı ilə bu gün London polisinə təhvil verilib.



Ekvador sosialist prezident Rafael Korrea dövründə Latın Amerikasında ABŞ əleyhdarı olan ölkələrdən biri idi. Koreadan sonra Lenin Moreno prezident seçildi. Lenin müəllim də eyni partiyanın (Müstəqil və Vüqarlı Vətən alyansı) nümayəndəsidir və Korrea dövründə vitse-prezident vəzifəsini tutub. Lakin o, prezident seçildikdən sonra gözlənilmədən ABŞ-la yaxınlaşma siyasəti yeritməyə başladı, hətta Venesuelada yaranmış siyasi böhran zamanı Ekvador Xuan Quaydonu qanuni prezident kimi tanıyan ilk ölkələrdən oldu.

İndi Britaniya məhkəməsi Assanjın İsveçə, yoxsa Amerikaya ekstradisiya edilməsinə dair qərar qəbul etməlidir.

Onu da qyed edək ki, Culian Assanjın rəhbərlik etdiyi sayt dünya miqyasında bir siyasi təlatümə səbəb olmuşdu. Onun açıqladığı məxfi materiallar əksər ölkələri əhatə edir, müxtəlif siyasət adamlarının qalmaqallı fəaliyyətinə işıq salırdı.

Assanjın açıqladığı materiallar sırasında Azərbaycana aid olan yazışmalar və faktlar da var idi.

Əslində onun bu cür total şəkildə təqib olunması söz və mətbuat azadlığına zidd olsa da, belə görünür ki, bütün dünyada azadlıq tələb edən dairələr özlərinə gələndə bir jurnalisti seksual zorakılıqda belə şərləməkdən çəkinmirlər.



# Məktəblinin intiharı prezidentin nəzarətində - Elinanın qanı batmayacaq!

Təhsil nazirinin iştirakı ilə keçirilən iclasda 162 nömrəli məktəbin direktoru ilə bağlı qərar verildi; **mərhum Elina Hacıyevanın anası yayılan videonu yalanladı:** "Ölmüş bir qız uşağını bu şəkildə ləkələmək nə qədər insanlıqdandır?"

**"Bakı şəhəri, 162 nömrəli tam orta məktəbin şagirdi Elina Hacıyevanın intihar etməsi ilə bağlı məsələ prezident İlham Əliyevin və birinci vitse-prezident Mehriban Əliyevanın diqqət mərkəzindədir. Bununla bağlı bütün dövlət qurumlarına xüsusi tapşırıqlar verilib ki, məsələ ciddi şəkildə araşdırılsın".**

**Ailə, Qadın, və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova belə deyib. O deyib ki, bu məsələnin ciddi şəkildə araşdırılmaması ilə bağlı fikirlərin əsası yoxdur:** "Burada söhbət məktəblinin və ailəsinin hüquqlarından gedir. Baş verən hadisə ilə bağlı indidən kimisə günahlandırmaq düzgün deyil. Amma hadisə ilə bağlı düzgün olmayan məlumatları yaymaq hüquqları pozmaq deməkdir. Biz Azərbaycanda intihar hallarının azaldılması ilə bağlı Təhsil Nazirliyi ilə birlikdə maarifləndirici tədbirlər keçiririk. Necə olur ki, intihar həddinə çatan 8-ci sinif şagirdi ailəsindən dəstək almayıb? Düzdür, mən bu məsələdə heç kimi günahlandırmaq istəmirəm. Bu, istintaq araşdırmalarından sonra məlum olacaq. Bu cür məsələlərdə təkcə məktəbin, müəllimin deyil, valideynlərin də məsuliyyəti var".

Bundan başqa, Təhsil Nazirliyində də iclas keçirilib və məktəbin direktorunun işdən çıxarılması ilə bağlı qərar qəbul edilib. "Yeni Müsavat"ın xəbərinə görə, təhsil naziri Ceyhun Bayramovun iştirakı ilə keçirilən iclasda bu qərar qəbul edilib.

### "Yayılan videodakı mənim balam deyil"

Cəmiyyətin müzakirə etdiyi əsas məsələlərdən biri də intihar edən məktəbli qızın gecə klubuna getməsi ilə bağlı kamera görüntülərinin paylaşılmasıdır. Mərhum yeniyetmənin anası Sevil Hacıyeva news24.az-a müsahibə verib və bu xəbərləri yalanlayıb. Müsahibəni təqdim edirik.

***- Sevil xanım, sosial şəbəkə və yerli mətbuatda qızınızın olduğu deyilən videogörüntülər və fotolar haqda nə deyə bilərsiz?***

- Videolarda və fotolarda olan qız mənim Elinam deyil. Mənim qızım çox tərbiyəli olub. O, heç vaxt siqaret çəkməyib, hətta yaxınına da buraxmayıb. Qızım çölə çıxmaq, rəfiqələri ilə harasa getmək istəyəndə məndən, nənəsindən, hətta atasından da həmişə icazə alıb.

***- Bəs görüntülərdə Elina olduğu iddia edilən qız əslində kimdir?***



Sevinc Abbasova

- O qızlar Ramilə və Dianadır. Qızım olduğu deyilən məhz Ramilədir, yeni siqaret çəkən qız. Diana isə mənim qohumumdur. Şəkillərə diqqətlə baxıb, qızımın görüntüləri ilə tutuşdursalar, görəcəklər ki, fərqli-fərqli qızlardır. O görüntülərin qızımla heç bir əlaqəsi yoxdur!

***- Sizcə, bu görüntülər niyə yayılıb?***

- Başa düşmürəm ki, bunu niyə ediblər. Məqsədləri nədir? Mənim qızım haqq dünyasındadır. Ölmüş bir qız uşağını bu şəkildə ləkələmək nə qədər insanlıqdandır? Bu, onu edənlər üçün böyük rəzalətdir! Ayıb olsun! Allaha həvalə etmişəm!

***- Sağlığında qızınızın xəbəri vardımı o görüntülərdən?***

- Bəli, Elina mənə demişdi ki, Diana yaxşı olmayan hərəkətlər edir. Hətta Elina özü dəfələrlə o cür hərəkətlərinə görə Dianaya irad tutmuşdu.

***- Sözügedən görüntüləri kimin yaydığı haqda hər hansı fikriniz varmı? Sizcə kim, ya da kimlər tərəfindən yayılıb?***

- Düşünürəm ki, bunu ancaq məktəbin direktoru edə bilər. Onun məqsədi odur ki, qızımı ləkələyib, özünü təmizə çıxartsın. O, yaxşı bilirdi ki, mənim qızım sakit, ağıllı, mədəni uşaq idi. Düzgün həyat tərzi sürürdü. Buna baxmayaraq, direktor özünü haqlamaq üçün bu cür iyrənc əməllərə əl atır.

***- Qızınızın yıxıldıqdan sonra çəkilən görüntüləri haqda nə deyə bilərsiz?***

- Təsəvvür edin, qızım özünü atıb, məktəbdə hər kəsin bundan xəbəri olub. Lakin bizə 2 saatdan sonra məlumat veriblər. Hətta təcili yardıma da gec zəng ediblər. Rəsmən qızımın həyatı ilə oynayıblar! Bu, vicdansızlıqdır! Cənab prezidentimizə və birinci xanımımıza dərin təşəkkür edirəm ki, bu məsələni diqqətə götürüblər! Mən ümid edirəm ki, onların sayəsində tezliklə haqq-ədalət öz yerini tapacaq! Qızımın ölümündə günahı olan hər kəs lazımi cəzalarını alacaq! Mən balamı itirdim! Digər valideyinlərin övladlarını bu şəkildə itirməmələri naminə prezidentimiz və vitse-prezidentimizin verdikləri qərar öz müsbət nəticəsini göstərər, inşallah!

### Səhiyyə Nazirliyi ittihamlara nə deyir?

İntihar edən məktəblinin müalicəsi zamanı da müəyyən səhvlərə yol verildiyi müzakirə edilir. Mərhumun anası Sevil Hacıyeva bildirib ki, qızına vaxtında müdaxilə edilmədiyindən, işləməyən aparata qoşulduğundan dünyasını dəyişib. Eyni zamanda qeyd edilir ki, Elina intihar etdikdən təxminən 2 saat sonra təcili tibbi yardıma müraciət edilib.

**Məsələ ilə bağlı Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova mətbuata açıqlamasında bildirib ki, şagirdin ölümü ilə bağlı araşdırmalar davam edir:** ""Hazırda müvafiq qurumlar tərəfindən araşdırma aparılır, ekspertiza aparılır. Hüquq-mühafizə orqanları tərəfindən araşdırma gedir. Araşdırma aparılan vaxt hər hansı bir açıqlamanın verilməsi istintaqın işinə müdaxilə kimi qiymətləndirilə bilər. Hadisəyə hüquqi qiymət veriləcək, kimin, yaxud kimlərin günahı varsa, onlar qanun qarşısında cavab verəcəklər".

### Məktəb psixoloqları nə işə yarayır?

**Bəs görəsən, məktəb rəhbərliyi hansı hallarda məsuliyyət daşıyır? Ümumtəhsil ocaqlarında psixoloq ştatı varmı? Onların fəaliyyəti niyə yarıtmaz səviyyədədir?**

**"Yeni Müsavat"a açıqlamasında bu sualları cavablandıran təhsil eksperti, Azad Müəllimlər Birliyinin sədri Məlahət Mürşüdlü bildirdi ki, məktəblərdə çətin tərbiyə olunan uşaqların siyahısı olmalı və onlarla xüsusi qaydada iş aparılmalıdır:** "Tam olaraq məsuliyyətin məktəb psixoloquna düşdüyünü demək qeyri-mümkündür. Çünki məktəbdə psixoloq ştatı elə də çox deyil. Məktəb var ki, 1500 şagirdi var, ancaq bir psixoloq ştatı var. Sözsüz ki, bu işin öhdəsindən gəlmək çətindir. Ancaq onun asan bir yolu da var. Asan yol budur ki, məktəbdə çətin tərbiyə olunan, içkiyə, narkotikə meylli olan uşaqlar siyahıya alınır. Hər məktəbdə yüzlərlə belə uşaq olmur, maksimum 15-20 nəfər olur. Bu uşaqlar müəyyənləşdirilməli idi, nəzarətə götürülməli idi, qayğı ilə əhatə olunmalı idi. Psixoloq da üzərinə düşən vəzifəni yerinə yetirməliydi, mütəmadi olaraq nəzarət etməli idi, profilaktik söhbətlər aparmalı idi. Valideynlərlə görüşməli idi, cəmiyyətdə o uşaqların kimlərlə təmasda olduğunu, hansı əyləncəli məkanlara üz tutduqlarını araşdırmalı idi, onları bu zərərli vərdişlərdən çəkindirməli idi".

**Ekspertin sözlərinə görə, bu hadisə məktəb direktorundan tutmuş, onun müavininə, psixoloquna, şagird və valideynlərinə qədər hər kəsin məsuliyyət daşıyacağı bir haldır:** "Mətbuatda ailə haqqında yazırlar ki, intihar edən məktəblinin ailəsi normal deyildi. Bu şagird ailədə görmədiyi qayğını məktəbdə müəllimdən, sinif rəhbərindən, direktordan, sinif yoldaşlarından görməli idi. Mütəmadi qayğı ilə əhatə olunsaydı, onunla profilaktik söhbətlər aparılsaydı, çox güman ki, davranışı da düzələrdi. Bütün hallarda məktəb kollektivi məsuliyyət daşıyır, çünki hadisə məktəbdə baş verib. Məktəblərdə çətin tərbiyə olunan, zərərli vərdişlərə meylli olan uşaqlarla iş aparılmır. Bu hadisə də onun nəticəsidir. Təhsil Nazirliyi və digər qurumlar bu hadisədən nəticə çıxartmalı və əsas diqqəti uşaqların əxlaqi-mənəvi tərbiyəsinə, sistemli işlərin aparılmasına yönəltməli idi".

**M.Mürşüdlü vurğuladı ki, sovet dövründə hətta müəllimlər problemli uşaqların, dərsə gəlməyənlərin evlərinə belə gedirdilər:** "Mən son illər eşitməmişəm ki, bir sinif rəhbəri uşağın dərsə gəlməməsi ilə bağlı ailənin qapısını döysün. Belə bir praktikanı görmürük. Sovet dövründə məktəbin yerləşdiyi ərazidə olan polis idarələrində bu tip uşaqlarla iş üzrə ayrıca bir inspektor olurdu, onlarla praktiki iş aparırdılar. İndi belə bir ştatın olub-olmadığını bilmirəm. O zaman bu cür uşaqlara görə məktəb, ailə və cəmiyyət arasında bir üçbucaq yaranırdı və uşaqları nəzarətdə saxlayırdılar, onları düzgün tərbiyələndirirdilər".

**❑ Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 77 (7247) 12 aprel 2019

# “Heç vaxt kürü yemirəm”

## Arif Rəhimzadə: “Növbəti parlament seçkilərində iştirakım, yenidən deputat olmağım tək məndən asılı deyil”



**Türkiyədə keçirilən bələdiyyə seçkiləri bitsə də, İstanbul uğrunda “döyüşlər” hələ də davam edir. Hətta ölkəmizdə də qeyri-ixtiyari olaraq qardaş ölkədəki seçkilərə böyük maraq və diqqət var. Azərbaycanda da bu ilin sonunda bələdiyyə seçkiləri keçiriləcək, amma bizdə bu seçkilərə maraq azdır. Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə ilə söhbətimizdə əvvəlcə bələdiyyə mövzusundan danışdıq.**

***- Arif müəllim, yəqin ki, qardaş Türkiyədəki bələdiyyə seçkilərini yaxından izlədiniz. “O əjdahadan bizdə niyə yoxdur” sualı yenə də aktualdır. Azərbaycanda da seçki ili olsa da, hələlik seçki ab-havası hiss olunmur. Düzdür, seçki prosesi konkret dövrü əhatə edir. Amma istənilən halda, seçki hazırlığı, canlanma nəzərə çarpmır. Sizcə, niyə belədir?***

- Qardaş ölkə ilə müqayisə edəndə, əlbəttə, bələdiyyə sahəsində onlar bizdən irəlidədirlər. Sovet dövrünün təsiridir ki, bizdə bəzi məsələlər hələ öz həllini tapa bilməyib. Özü də bu, tək bizdə deyil, bütün postsovet məkanında belədir. O ki qaldı seçkilərə, misal üçün, Yeni Azərbaycan Partiyası bu məsələləri daim diqqət mərkəzində saxlayır.

***- Amma bu, bir faktdır ki, bələdiyyə seçkilərinə cəmiyyətdə maraq çox aşağı səviyyədədir. Bu, bələdiyyələrin düşdüyü vəziyyətlə bağlı deyilmi? Bələdiyyələrin səlahiyyətlərinin aşağı olması, bu strukturun icra hakimiyyətlərinin “alt qurumuna” çevrildiyi, kölgəsində qaldığı barədə fikirlərlə razısınızmı?***

- Bələdiyyələr bütövlükdə, həqiqətən, hələ tam ayaq üstə durub hərəkət eləmirlər. Bunun çox səbəbləri var. Deyirsiniz icra hakimiyyətinin alt qurumudur. Mən belə deməzdim. Bələdiyyələrin özləri də gərək ayaq üstə durmaqdan ötrü müəyyən təcrübə əldə etsinlər, özlərinə inamları olsun, bələdiyyələrlə əhali arasında qarşılıqlı məsuliyyət yaransın. Bələdiyyələrin tam fəaliyyət göstərmələri üçün lazım olan qanunvericilik mövcuddur. Lakin heç də bütün bələdiyyələrin öz fəaliyyətlərini lazımınca qurmaları üçün maliyyə imkanları yoxdur və belə olan halda bəli, baş üstə deməlidir.

Bələdiyyələrin öz büdcələrini formalaşdırmaq üçün kifayət qədər səlahiyyətləri və imkanları var. Bundan əlavə hər il dövlət öz büdcəsindən onlara dotasiya və subvensiya ayırır. Ancaq gəlin açıq deyək, biz vətəndaş olaraq bələdiyyələr qarşısında vəzifələrimizi yerinə yetiririkmi? Bələdiyyə büdcəsinin formalaşmasında əsas gəlir mənbələrindən biri fiziki şəxslərin daşınmaz əmlakından toplanan vergidir. Bu vergini hamımız ödəyirikmi?

Son vaxtlara kimi bu imkandan tam istifadə üçün bələdiyyələrin müəyyən çətinlikləri də var idi. Bələdiyyələrin vətəndaşların daşınmaz əmlakı barədə müfəssəl məlumatları yox idi. Cənab prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü əsasında məsələ öz həllini tapdı. Bələdiyyələrə qısa müddət ərzində bu məlumatları Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətindən əldə etmək imkanı yaradıldı.

***- Kobud da çıxsa da soruşum, boynundan basılan bələdiyyə necə ayağa dura bilər? Bələdiyyələr, necə deyərlər, cavandır, cəmi 20 yaşı var...***

- Belə hallar ola bilər. Amma əsas məsələ o deyil. Əsas məsələ odur ki, nə bələdiyyələrin müəyyən hissəsi hələ özünün səlahiyyətlərini və rolunu tam yerinə yetirmir, nə də cəmiyyət bələdiyyəni aparıcı bir qüvvə kimi qəbul etməyib.

***- 1999-cu ildə keçirilən ilk bələdiyyə seçkilərini xatırlayıram, çox ciddi mübarizə gedirdi. Üstündən illər keçəndən sonra isə mübarizə ab-havası hiss olunmur. Sizcə, niyə?***

- Seçkilərə hələ xeyli vaxt var. Yəqin ki, seçkiqabağı mübarizə yenə şiddətlənəcək. Mən deməzdim ki, bələdiyyə institutuna maraq tamamilə ölüb. Yox, elə deyil. Ancaq yenə deyirəm, bələdiyyələr özlərini tam təsdiq edə bilməyiblər. Cəmiyyətin böyük hissəsinin də bələdiyyə haqqında tam təsəvvürü yoxdur. Yəni bələdiyyə nə etməlidir və əhalidən nə tələb olunur.

***- İcra hakimiyyəti və bələdiyyənin paralel fəaliyyəti doğrudurmu?***

- Bəli, doğrudur. Hər bir qurumun özünün fəaliyyət sahəsi var. Bələdiyyələrin hamısı pis işləmir. Üzərinə düşən vəzifələrin öhdəsindən gələn, çox fəal bələdiyyələr də var. Bizim nöqsanımız budur ki, yaxşı bələdiyyələrin adını heç yerdə çəkmirik, onların təcrübəsini geniş yaymırıq. Ancaq bələdiyyələrin əksəriyyəti böyük işlər görürlər.

***- Ölkəmizdəki bələdiyyələrin çoxluğu da müzakirə olunur.***

- Hazırda ölkəmizdə 1606 bələdiyyə var. Bizim qanunlara görə, müəyyən ərazidə əhalinin sayına görə vətəndaşlar yerli özünüidarəni həyata keçirmək hüququndan məhrum edilə bilməzlər. Bələdiyyələr yarananda onların sayı 2757 idi. Ancaq sonralar əhalisi az olan bələdiyyələr yaxşı fəaliyyət göstərə bilmədikləri üçün öz təşəbbüsləri ilə birləşdilər. İndi onların sayı, qeyd etdiyim kimi, 1606-dır.

***- Seçkili orqan olan bələdiyyələrə icra hakimiyyətinin diktə etməsi, onlarla icra hakimiyyətinin işçiləri kimi davranılması necə, doğrudurmu?***

- Mən deməzdim ki, bələdiyyə üzvlərinə icra hakimiyyətinin işçisi kimi yanaşırlar. Elə olur ki, icra hakimiyyəti əlindəki vəsaiti bələdiyyə vasitəsilə hansısa sahəyə yönəldir. Konstitusiyamızın 144-cü maddəsinə uyğun olaraq qanunvericilik və icra hakimiyyəti tərəfindən bələdiyyələrə əlavə səlahiyyət verilibsə və müvafiq zəruri maliyyə vəsaiti ayrılıbsa, o halda həmin səlahiyyətlərin həyata keçirilməsinə qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

***- Bir sıra hallarda neqativ işlər də bələdiyyələrin əli ilə həyata keçirilirsə, onda necə?***

- Hər yerdə müsbət işlərlə bərabər, mənfiliklər də olur, həmçinin bələdiyyələrdə də. Ədliyyə Nazirliyinin bələdiyyələrlə iş aparan xüsusi qurumu var ki, bu məsələlərlə çox ciddi məşğul olur və belə hal olanda qanunauyğun tədbirlər görülür.

***- Arif müəllim, ölkədə həyata keçirilən islahatlarla bağlı nələr deyə bilərsiniz? Bu islahatlar yerli özünüidarə orqanlarını da əhatə edə bilərmi?***

- İslahatlar daim gedir. Hesab edirəm ki, cənab prezidentin son tapşırıq və çıxışlarından sonra bu işlər daha fəal aparılacaq. Fikrimcə, bu islahatların əsas məqsədi əks-mərkəzləşmə olmalıdır. Madam ki, bələdiyyə yaradılıb, yerli məsələlərin icrası onlara həvalə olunmalıdır.

***- Parlament seçkilərinə hazırlaşırsınız?***

- Parlament seçkilərinə hələ çox var.

***- Nə qədər?***

- Konstitusiyamızın 84-cü maddəsinə əsasən Milli Məclisin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir. Yəni 2020-ci ilin noyabr ayında.

***- Amma referendum və növbədənkənar seçki gözləntiləri aradan qalxmayıb.***

- Hesab edirəm ki, bunun üçün heç bir əsas yoxdur. İndi kimsə nəsə danışır, hansısa mülahizələr ortaya atır, mən onların dəlilləri ilə tanış deyiləm. Güman etmirəm ki, erkən seçkilər keçirməyə ehtiyac var.

***- Sosial şəbəkələrdə ayrı-ayrı deputatların fəaliyyətsizliyindən bəhs olunur, tərkibin ciddi şəkildə yeniləcəyi bildirilir. Siz bu barədə nə deyə bilərsiniz və özünüzü növbəti tərkibdə görürsünüz?***

- Mənim növbəti seçkilərdə iştirakım, yenidən deputat olmağım tək məndən asılı deyil. Bu, təmsil olunduğum partiyadan, onun mövqeyinin necə olacağından asılıdır. Eyni zamanda seçilmək istədiyim dairədə nüfuzumdan və seçicilərimin mənə etimadından asılıdır.

***- Sonuncu dəfə deputatı olduğunuz Neftçala rayonunda nə zaman olmusunuz?***

- Ayda azı bir dəfə oluram, ancaq rayonda fəaliyyət göstərən köməkçim vasitəsilə rayonla daim əlaqəm var.

***- Rayona gedəndə sizi kürüyə qonaq edirlərmi?***

- Sözün doğrusu, mən heç vaxt kürü yemirəm. Hətta toylarda olanda da.

***- Toydakı saxta kürüdür. Əsl kürünü nəzərdə tuturam, kilosu 1250 manata olan qara kürüdən danışıram...***

- Hər halda, mən kürünün elə də çox azarkeşi deyiləm. Onun tərkibində xolestrin yüksək dərəcədə olduğu üçün həvəskarı deyiləm.

***- Bu yaxınlarda Neftçalanın Bankə qəsəbəsi barədə danışırdılar ki, vaxtilə kürüsü ilə sovetlərdə məşhur olan bu qəsəbə indi çox çətin günlərini yaşayır, işsizlik hökm sürür. Yəqin məlumatlısınız?***

- Bəli, heç nəyi sovet dövrü ilə müqayisə edə bilmərik. Çünki sovetlər qapalı dövlət idi. Mən kürüdən danışmıram. Bir ədəd balaca detalı da istehsal edəndə hər yerə yayılırdı və buna böyük ehtiyac var. Çünki xaricdən çox az məhsul gəlirdi. Ancaq indi elə məhsul istehsal etmək lazımdır ki, onu dünya bazarına da çıxartmaq mümkün olsun. Digər tərəfdən, doğrudan da Bankə qəsəbəsi kürü ilə dolanırdı, fabrik var idi və s. İndi isə Xəzərdə balıq tutumu məhdudlaşıb. Sovet dövləti işləyəni də, işləməyəni də dolandırdığına görə bəzi insanların əlini işdən soyudurdu. Bax, indi cənab prezidentin tapşırığı ilə pambıqçılığın inkişafı istiqamətində böyük işlər aparılır. Camaat onun xeyrini də görür. Ancaq yenə də görürsünüz ki, biri deyir mən işsizəm, pambıqçılıqda və ya başqa sahədə işlər təklif olunanda bəzən razılaşmırlar. Sovetlər dövründə Moskvada işsizləri cəzalandırırdılar. İşsiz adam cəmiyyət üçün ziyanlı, təhlükəli insan sayılırdı. Başqa iş də olmayanda, deyirdilər get, kolxozda, yaxud başqa müəssisədə işlə! Daha o, iş görəcək, görməyəcək fərqi yox idi. Ancaq indi dövr başqadır. Gərək hər bir adam çalışsın və əməyinə görə qazansın. Ona görə də sovet dövründəki iqtisadiyyatımızın səviyyəsi dünya standartlarına uyğun olmadı. Əmək məhsuldarlığı çox aşağı idi.

## “Sovet dövlətinin bizə böyük zərbəsi bu olub ki, bəzi insanların əli işdən soyuyub”



***- Maraqlı fikirlərdir. Bir çox hallarda sizin “sovet vurğunu” olduğunuz deyilir. Ancaq siz o quruluşu tənqid edirsiniz...***

- Mən onun müsbət və mənfi cəhətlərini deyirəm. O quruluşun müsbət cəhətləri də çox olub. Sovet dövründə orta və ali təhsil, səhiyyə pulsuz idi.

***- Azərbaycan hökumətinin Avropa Birliyi ilə imzalayacağı sazişə münasibətiniz necədir?***

- Biz dünyadakı mütərəqqi tendensiyaların özümüzdə tətbiq olunmasına çalışırıq. Yüksək texnologiyaların tətbiqini, əmək məhsuldarlığının artmasını, demokratik prinsiplərin bərqərar olmasını, mərkəzləşmədən uzaqlaşmağı, əks-mərkəzləşmənin tətbiqini istəyirik.

***- Demək, müsbət yanaşırsınız?***

- Bəli. İstər-istəməz biz bu yolu getməliyik. Avropanın inkişaf etmiş ölkələrinin bizim cəmiyyətimiz üçün sərfəli ola bilən həyat prinsiplərinin tətbiqinin tərəfdarıyam.

## “Rusiya heç vaxt razılaşmayacaq ki, onun sərhədlərində NATO bazası olsun”

***- Sizcə, şimal qonşumuzun bu əməkdaşlığa münasibəti necə olacaq? Gürcüstan və Ukrayna nümunəsində çox sərt davrandı.***

- Rusiya istəyir onunla qonşu ölkələrdə sülh və əmin-amanlıq olsun və elə bir mühit yaratsın ki, NATO və başqa təşkilatlar, dövlətlər yaxınlaşıb ona təsir göstərə bilməsin. Düzdür, Azərbaycan NATO və başqa təşkilatlarla əməkdaşlıq edir, ancaq NATO-ya daxil olmaq niyyətində deyil. Buna görə də, fikrimcə, Rusiya bizə loyal baxır. Gürcüstanın, Ukraynanın bəlası ondan başladı ki, onlar dedilər biz NATO-ya üzv olacağıq. Hesab edirəm ki, cənab prezidentin bu sahədəki siyasəti çox düşünülmüş və reallığı nəzərə alan bir siyasətdir.

❑ **Elşad PAŞASOY,**
**FOTO: “YM”**

# İbrahimbəyovun şok açıqlamalarına iqtidar və müxalifətdən reaksiyalar

**"İlham Əliyevlə münasibətlərim həmişə çox yaxşı olub, o, çox tərbiyəli, hörmətcil, yaşlı insanlara hörmətlə yanaşan insandır və münasibətlərimiz çox yaxşı idi". "Yeni Müsavat" xəbər verir ki, kinodramaturq Rüstəm İbrahimbəyov "Dojd" telekanalına müsahibəsində belə deyib.**



## Ayaz Salayev: ""Qafqaz triosu" qalmaqalının mənbəyi özüməm, kimsə deyə bilməz ki, tapşırıq almışam"

## Fəzail Ağamalı: "Prezident lütfkarlığından irəli gələrək onu da bağışladı"

## Tural Abbaslı: "Günah İbrahimbəyova o boyda etimad göstərən müxalifətdədir"

Onun sözlərinə görə, Azərbaycanda hakimiyyət yekcins deyil. Kinorejissor hesab edir ki, iqtidar içində radikal güclər var: "Hansılar ki, axırıncı dəfə, yarım il əvvəl - "Qafqaz triosu" filmimin ekranlara çıxması ilə əlaqədar mənimlə haqq-hesab çəkmək istədilər. Yarım il əvvəl elə bir KİV orqanı yox idi ki, mənə çamur atmasın".

**R. İbrahimbəyov deyib ki, Bakıda onu titullarından və mükafatlarından məhrum etməyə çağırıblar, hətta prezidentə müvafiq fərmanın layihəsi təqdim olunub. Lakin İ.Əliyev həmin fərman layihəsini, sözün hərfi mənasında, cırıb atıb:** "Sizə deməliyəm ki, bu həqiqətdir. O, "Bu biabırçılığı qurtarın" deyib və layihəni cırıb atıb".

**Onun sözlərinə görə, müxalifət qüvvələri onu prezident postuna öz namizədliyini irəli sürməyə təhrik ediblər. Və o, öz keçmiş qərarına görə çox heyfsilənir:** "Ziyalılar Forumu yaratdım, sonra bu forum tədricən dağıdıldı, bu səbəbdən mən və yoldaşlarım, necə deyərlər, radikallaşdıq və yeni qurum yaradaraq onu Demokratik Qüvvələrin Milli Şurası adlandırdıq. Və mən 25-30 il ərzində ilk dəfə özünü müxalifət adlandıran bütün gücləri birləşdirdim, məhz ona görə ki, siyasətdən kənar insan idim. Onlar bir-biri ilə vuruşurdular və bu gün də vuruşmağa davam edirlər".

**R.İbrahimbəyov deyib ki, seçkilər məsələsi ortaya gələndə heç gözləmədiyi halda ona məhz namizədliyini irəli sürəcəklərini bildiriblər:** "Mən uzun müddət onlara izah etdim ki, prezident fəaliyyətindən mənim qədər uzaq olan adam yoxdur. Dedilər, onda biz gedəcəyik. Və nəticədə onlar dağılışdılar, çünki mən öz namizədliyimi irəli sürmür və qəti surətdə bundan imtina edirdim. Bundan əlavə, onları xəbərdar edirdim ki, Azərbaycan vətəndaşı olmaqla bərabər, mən həm də Rusiya vətəndaşıyam və bu səbəbdən böyük problemlər olacaq".

Kinossenaristin müsahibəsindəki tezislərdən biri "Qafqaz triosu" filmidir. Bu kino ilə bağlı müzakirələri ilk rejissor Ayaz Salayev açıb, filmi tənqid edən məqalə yazıb.

İbrahimbəyov isə bunun ortaya atılmasını hakimiyyətin qollarından birinin "ssenarisi" hesab edir.

**Azərbaycan Respublikası Kinemotoqrafçılar İttifaqının katibi Ayaz Salayev "Yeni Müsavat"a bildirdi ki, İbrahimbəyov yalan danışır:** "Bu məsələni mən qaldırmışam, qalmaqalın mənbəyi özüməm. Ona görə dediklərimin məsuliyyətini daşıyıram, indi də cavabdehəm. Və sevinirəm ki, həmin filmlə bağlı məsələni qaldırmışam. Amma bu filmə başqa yozum verməyə çalışan adamları başa düşmürəm".

**A.Salayev qeyd etdi ki, film haqda yazdığı məqalənin hər sətirinə cavabdehdir:** "Məni kimsə ittiham eləyə bilməz ki, tapşırıq almışam. O məqalədən əvvəl də kiçik bir yazım çıxmışdı. Yenə təkrar edirəm ki, İbrahimbəyov yalan danışır, gopa basır. Çünki bu filmin məqsədi o idi ki, Qarabağ işğal edilməyib, bu məsələ münaqişədir. Və guya münaqişə əsasında azərbaycanlıların ermənilərə əsassız nifrəti yaranıb. İbrahimbəyov o filminə səmimi bəraət qazandırmağa çalışan adamları məhv edir".

**İqtidaryönlü deputat Fəzail Ağamalının sözlərinə görə, İbrahimbəyov yol vermiş səhvlərini malalamağa çalışır:** "Biz həmin dövrü unutmamışıq, İbrahimbəyov Milli Şuranın ideoloqu idi, radikal müxalifəti bir araya gətirərək prezidentliyə namizəd oldu, sona qədər getməyə çalışdı. Onun arzusu prezident olmaq idi. İndi belə danışır. Sənə kim məcbur edirdi ki, namizəd olasan?"

**F.Ağamalı dedi ki, İbrahimbəyov Rusiya vətəndaşı olmaqla başqa dövlət qarşısında öhdəliyi olduğu üçün Mərkəzi Seçki Komissiyası əsaslı olaraq onun namizədliyini qeydə almadı:** "Amma o, düşmən mövqeyindən əl çəkmədi, ciddi səhvlərə yol verdi. Prezidentliyə namizədliyin iki dəfədən artıq olmasına məhdudiyyətin aradan qaldırılmasının əleyhdarlarından biri idi, Xalq Cəbhəsi olmaqla Milli Şurada müstəsna xidmətlər göstərirdi. Eyni zamanda Tiflisdə radikal müxalifətlə görüşmüşdü, həmin vaxt təlimatları kimdən aldığı bilinmirdi".

**Deputat İbrahimbəyovu qeyri-səmimi insan sayır:** "Vətənə sədaqətsizliyini çəkdiyi filmdə göstərdi, xalqı aşağıladı. Budur onun siması, xalqına münasibəti... İbrahimbəyov ambisioz, kosmopolitdir, tükənməyən ambisiyaları ciddi səhvlər yol verməsinə səbəb olur. Lakin cənab prezident lütfkarlığından irəli gələrək çoxları kimi, onu da bağışladı və İbrahimbəyov bunlardan nəticə çıxarmalıdır. Bu gün də prezidentə xoş sözlər deyirsə, onun etirafının bir növüdür".

**F.Ağamalı iqtidar içində radikal mövqe tutanlara gəlincə, bildirdi ki, həmin şəxslər milli mövqedə dayanmışdılar:** "Prezident isə onun titullarından məhrum olmasına qarşı çıxırsa, sadəcə, dövlət başçısının yüksək dəyərlərə sahib olmasının göstəricisidir. İbrahimbəyovun adı tarixə qara hərflərlə yazılıb, vətəninə, xalqına sədaqətsiz biridir, Azərbaycanın çətin günlərində yanında olmayan adamdır. O, bundan sonra bir sıra filmlərin rejissoru kimi yaddaşlarda qala bilər".

**AĞ Partiya sədri Tural Abbaslı zamanında Milli Şuranın təsisçilərindən biri olub. Onun sözlərinə görə, vaxtında İbrahimbəyovun apolitik biri olduğu söyləmişdi:** "Günah ona o boyda etimad göstərən bizdə, yeni müxalifətdədir ki, İbrahimbəyov kimi qeyri-stabil adama siyasi investisiya qoydular və bu da nəticəsidir. Onu heç kim namizəd olmağa təkid eləmirdi, özünü birləşdirici namizəd kimi təqdim edirdi. Hətta iri partiya sədrlərinin namziədliyi müzakirə olunurdu, amma Rüstəmin xeyrinə güzəştə gedildi, namizədliyi dəstəkləndi. Rüstəm bəy artıq siyasət və müxalifət üçün bir keçmişdir".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Sudan quru çıxa bilməyən hərbi caninin aqibəti



**Xalid KAZIMLI**

**Onu dünyanın bir çox qüdrətli dövlətlərində hərbi cani, qanlı qatil hesab edirlər. Çünki rəhbərlik etdiyi Sudan ikiyə parçalananda o, separatçılara qarşı həddən artıq amansızlıq edib, minlərlə dinc insanın ölümünə fərman verib.**

Bu üzdən Sudan prezidenti Ömər əl-Bəşir dünyanın əksər ölkələrində "arzuedilməz şəxs" idi. O, xarici səfərlərə nadir hallarda çıxır, yalnız ən yaxın müttəfiqlərinə baş çəkirdi. Öz ölkəsində isə o, hakimi-mütləq idi, ordu tam olaraq onun nəzarətindəydi.

Dünən Sudan ordusunun zabitləri Ömər əl-Bəşiri deviriblər.

Ömər Həsən Əhmər əl-Bəşir 1944-cü ildə kəndli ailəsində dünyaya gəlib. Sudan Britaniya və Misir müstəmləkəçiliyindən azad olanda, o, yeniyetmə olub. 16 yaşındaykən ordu sıralarına yazılıb, Hartum və Qahirədə təhsil alıb. 1973-cü ildə Misir ordusunun tərəfində İsrailə qarşı döyüşüb. Beləcə, onun hərbi karyerası yüksələn xətt üzrə davam edib.

Daha sonra o, ölkənin cənubunda ordu komandanı olub, üsyançı qüvvələrlə mübarizəyə rəhbərlik edib.

1967-69-cu illərdə Sudan ordusunun Qərb komandanlığında çalışan əl-Bəşir 1969-87-ci illər arasında Sudan hərbi hava qüvvələrində xidmət edib. 1987-ci ildə hərbi birləşməyə komandir təyin edilən əl-Bəşir bu vəzifədə 1989-cu ilə qədər qalıb. Ömər əl-Bəşir öz adını dünyaya ilk dəfə 1989-cu il Sudan inqilabı zamanı tanıdıb.

1989-cu il iyun ayının 30-da Ömər əl-Bəşir Demokrat partiyasının hökumətini hərbi çevriliş edərək devirib və hakimiyyətə gəlib. 1989-cu ildən 1993-cü ilin oktyabrına qədər o, Milli Xilasetmə İnqilabı Komandanlıq Şurasının sədri olub.

İnqilabın əsas simalarından biri Həsən əl-Turabi olsa da, dörd il sonra əl-Bəşir onu aşırıb, özünü prezident elan edib. Sələfini həbs etdirən əl-Bəşir daha sonra onu azadlığa buraxdırıb. Amma sabiq prezident türmədən, bizə tanış jarqonla desək, "sınmış" və iddiasız çıxıb.

Ömər əl-Bəşir dünənə qədər özünü siyasətçi kimi yox, hərbi lider kimi aparıb. Əksər diktatorlar kimi, o da öz mövqeyini ölkədəki mübahisələri radikal yollarla ("Qordi düyünü"nü kəsmək dəstiri) həll edərək, hər şeyi öz total nəzarəti altına alaraq möhkəmlədib. Beləcə, onun avtoritar liderliyi 30 ilə yaxındır ki, davam edirdi.

Ancaq heç nə əbədi olmadığı kimi, insan və hakimiyyət də əbədi deyil. Zor gücünə hakimiyyətdə qalmağın yaxşı alınan və alınmayan dönəmləri olur. İctimaiyyətin, tərəfdarların gözləntiləri uzun müddət doğrulmayanda onlar istər-istəməz "tək adam"ı öz uğursuzluqlarının başlıca səbəbi kimi görür və ona qarşı çıxırlar.

Ömər əl-Bəşirin öz hərbçi həmkarları tərəfindən devrilməsi bunun əyani sübutudur. O, özü hərbçidir və hərbçi olmasıyla fəxr edir, üstəlik, idarəetmə üsulundan daima hərbçilərə güvənirdi, bir növ hərbi diktatura qurmuşdu. Amma onu məhz hərbçilər hakimiyyətdən uzaqlaşdırdı.

Onun hakimiyyəti Sudan tarixində ən uzun hakimiyyət olsa da, belə anlaşılır ki, o da sona çatdı.

İndi Ömər Əl Bəşirin mühakimə olunması dönəmi başlayır. Əgər prezidenti devirən hərbçilər ondan yaxa qurtarmaq, eyni zamanda beynəlxalq birliyi təqdirini, qüdrətli dövlətlərin rəğbətini qazanmaq istəyirlərsə, onu yaxalayaraq, Haaqa tribunalına verməlidirlər.

Çünki o, ölkəsinin Darfur bölgəsində hərbi cinayətlər törətməkdə, antibəşəri suçlar işlətməkdə ittiham olunur. Konkret olaraq onu Darfurda kütləvi qırğın törətməkdə, əsirlərə, girovlara amansız işgəncələr verdirməkdə və etnik təmizləmə siyasəti yeritməkdə suçlayıblar.

Onun haqqında qiyabi olaraq həbs qərarı verilib. Beynəlxalq Haaqa Tribunalının qərarıyla o, düz on ildir ki, beynəlxalq axtarışdadır.

İndi o, ev dustağı edilib. Ancaq Ömər əl-Bəşirin beynəlxalq məhkəməyə verilib-verilməyəcəyini indidən demək mümkün deyil. Nə də olmasa, adam qiyamçı hərbçilərin poqon yoldaşıdır.

O vaxt beynəlxalq məhkəmə president haqqında həbs qərarı verəndə Sudanın paytaxtı Hartumda minlərlə insan mitinq keçirərək, qərara etiraz edirdi.

Bu gün isə Hartumda mitinqə çıxan yoxdur. Çünki paytaxtın küçə və meydanları hərbi texnika ilə doludur.

Beləliklə, daha bir əli qanlı diktatorun sonu gəlmiş kimi görünür. Onun aqibəti Serbiya prezidenti Miloşeviçinki kimi olsa, çox ibrətamiz olar.



# Qara dəliyin şəkli

Zamin HACI
zaminhaci@gmail.com

**"Həqiqət Nazirliyi informasiya, təhsil, asudə vaxtın təşkili və incəsənət məsələləri ilə, Sülh Nazirliyi müharibə, Sevgi Nazirliyi ictimai asayişin mühafizəsi, Rifah Nazirliyi iqtisadiyyatla məşğul olurdu".**
**(Corc Oruell, "1984")**

**Öncə hər bir zəhmətkeşimizi Beynəlxalq Kosmonavtika Günü - 12 aprel münasibətilə təbrik edirəm, arzu edirəm, hazırda göydə uçan peyklərimizdən həmişə xoş xəbərlər, oğul toyu, qız köçürülməsi, canım sənə desin, baba-nənə olmağı eşidəsiniz, ilahi, amin! Prinsipcə başqa bir qlobal arzumuz da qalmayıbdır (guya əvvəl var idi). Özü də builki kosmonavtika günü əlamətdar hadisə ilə yadda qaldı, bayramdan bir-iki gün qabaq xarici alimlər qara dəliyin şəklini ilk dəfə çəkib ortalığa qoydular. Buna da çox şükür, çünki biz indiyə qədər qorxurduq həmin şey haradasa Abşeron yarımadasına oxşayan bir zad olacaqdır. Olmadı. Bublikfason bir şey idi, Allah bilir, kim bişirib şəklini çəkibdir. Təbii, bunların hamısını Allahşükür müəllimin moizələrində dinləyib, qanmaq mümkündür, inşallah, dahi şeyximizin yubiley tədbirləri dövlət tərəfindən keçiriləcəkdir.**

Əslində mənim bugünkü fikirlərim elə dövlət tədbirləri haqda olacaqdı, arada əlamətdar günü qeyd eləməyi özümə borc bildim, çünki bunlar hamısı müqəddəs kitabımızda qabaqcadan yazılıbdır. Bir dənə də 12 aprel münasibətilə şəxsi hadisəmi, hədisimi yazım, keçək temaya: mən uşaq olanda Qaqarinin gülər fotosuna baxıb kosmonavt olmağı arzu edirdim, lakin böyüyüb jurnalistikaya bənzər bir işlə məşğulat elədim. Balaca oğlumdan isə təzəlikcə soruşuram, böyüyüb, nə olacaqsan, deyir, jurnalist. Qulağını dartdım (dövlətin gözündən uzaq), dedim, get özünə adam işi tap, misal üçün, kosmonavt ol.

Şeyxin yubileyinin dövlət səviyyəsində qeyd olunması haqda təzəlikcə fərman verildi. Bundan başqa, ölülərimizi necə basdırmağı, dirilərimizə necə toy eləməyi, hətta boşanandan sonra ər-arvad təzədən sevişə bilərmi - bunları da dövlətə həvalə eləmişik. (Pis çıxmasın, bu qədimdəki "birinci gecə hüququ"nun müasir "axırıncı gecə haqqı" forması deyildir, sadəcə, deyir, boşanma prosedurları haqda təzə qanun qayırılır. Gələcəkdə boşanmaq istəyənlər məhkəmədən öncə mediator adlanan, bizim üçün yeni bir peşə nümayəndəsinə üz tutmalı olacaqdır. Bu qardaş, ya da bacı - fərqi yoxdur - boşananlar arasında barışıq müqaviləsi imzalatdıracaqmış. Uzun söhbətdir, qalsın başqa vaxta).

Srağagün isə daha bir xalq artistinə 75 yaşında ev verdilər. Düzü, mən bilmirəm o xalq artistinin niyə indiyəcən evi yox imiş. Belə də xalq olarmı, artistləri teatrın binasında yaşasınlar? Başqa bir idarədə isə camaat toplaşıb ərizə yazıb, deyir, dövlət baba, xahiş edirik, şairlərimiz ağır xəstələnibdir, onları müalicə elə. Guya biz normal səhiyyə sistemi qurub şairdən fəhləyə, kəndlidən xalq artistinə qədər hər kəsin orada müalicəsini qayıra bilmərikmi? Təbii, qayırarıq. Ancaq onda bəs kimə yaltaqlıq eləyərik? Həyatımızın məqsədi nə olar? Özün işlə, özün həyatını qur, özün evlən, özün öl... Olmadı ki. Belə anarxiya bizə lazım deyildir. Odur, xaricdə elə artistlər var, istəsələr icra hakiminə ev alıb verərlər, lakin həmin yerdə dövlətçilik yoxdur. Hər ştatın öz qanunu var, üstəlik, məktəblilər öz yoldaşlarını qırırlar. Bizdə isə cəmi bir məktəbli ölüb, görürsənmi, bütün xalq ayaq üstdədir.

Sözgəlişi, o münasibətlə də bir müraciət gözümə dəydi, hansısa artist, ya da manıs yoldaşlardan biri dövlət başçısından acizanə xahiş edirdi ki, bizim uşaqlarımıza yiyə dursun. Mən başa düşürəm, yuxarıda da yazdım: dövlətçilik baxımından düzgün mövqedir. Ancaq bir az ağ eləmirikmi? Prezident Administrasiyası bəlkə sizin üçün uşaq saxlamalıdır? İcra hakimi cibində əmzik daşımalıdır? Harada ağlayan uşaq gördün, bas ağzına. Bir o qalıb nazirlər qəbul otağında pampers dəyişsinlər. Bizim yaş işlərimiz onsuz da çoxdur, gəlin dövlətimizi daha artıq yükləməyək. Bizim Qarabağ dərdimiz vardır. Dövlət Cocuq Mərcanlını qucağına alıbsa, onun belinə hər kəs cocuqlarını şəlləməli deyildir.

İnşallah, gələn ay uşaq pulu artacaqdır (son bir ayda uca millətimizi düşündürən əsas şirin şayiəyə mən də payımı qatmaq istədim).




# Transxəzər qaz kəməri: Azərbaycana qarşı oyun, yoxsa...

## Ekspert: "Türkmən qazının bizim məhsulla eyni vaxtda bazara çıxması Azərbaycan qazının qiymətində azı 15 faiz ucuzlaşmaya səbəb olacaq"

**Son aylarda Türkmənistan hökumətində Transxəzər qaz kəməri layihəsinin dirçəldilməsi ilə bağlı hərəkətlilik hiss olunmaqdadır. 2018-ci ilin avqustunda Xəzərətrafı 5 ölkənin dənizin hüquqi statusu ilə bağlı razılaşmanı imzalamasından dərhal sonra bu layihə ilə bağlı müzakirələr də başlandı. Düzdür, müzakirələrin lap başlanğıcında Rusiya onun iradəsindən kənar Xəzər dənizinin dibi ilə hər hansı kəmərin çəkilməsinin qeyri-mümkün olduğunu açıq dillə tərəflərə anlatdı.**

Rusiya Xarici İşlər Nazirliyinin (XİN) xüsusi tapşırıqlar üzrə səfiri İqor Bratçikov Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanmasından sonra Transxəzər qaz kəmərinin inşasının mümkünlüyü barədə suala cavab verərkən kəmərin çəkilməsi üçün onun bütün Xəzəryanı ölkələrlə razılaşdırılmal olduğunu bəyan etdi. Rusiyanın bu mövqeyinə rəğmən, ötən ilin oktyabrında Avropa İttifaqının (Aİ) nümayəndələri Brüsseldə Türkmənistan nümayəndə heyəti ilə danışıqlarda Transxəzər qaz kəmərinin tikintisinə investisiya cəlb olunmasına kömək etməyə hazır olduqlarını bildirdilər. Bu təklif Türkmənistan prezidenti Qurbanqulu Berdumuhammedov tərəfindən razılıqla qarşılandı. Onun neft-qaz üzrə müşaviri Yaxşıgəldi Kakayev isə bu ilin fevralında Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında bildirdi ki, Transxəzər Qaz Kəməri Şərqi Avropa ölkələrinin enerji təhlükəsizliyinə dəyərli töhfə verə bilər. O bildirib ki, bu layihə üzrə ilk danışıqlar hələ 2011ci ildə üçtərəfli formatda: Türkmənistan, Azərbaycan və Aİ arasında başlayıb. Daha sonra 2015-ci ildə Türkiyə və Gürcüstan danışıqlar prosesinə qoşulub: "Türkmənistan bu layihə üzrə danışıqların bərpasına hazırlığını təsdiq edir. Əminəm ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasları Transxəzər Qaz Kəməri layihəsinin uğurlu reallaşdırılmasında daha bir addım olacaq".

Fevralın 20-də isə məlum olub ki, Avropa İttifaqı Türkmənistana Avropaya qazı Azərbaycan vasitəsilə tədarük etməyi təklif edib. Layihə ilə bağlı müzakirələrə təkan verən daha bir mövqe ABŞ prezidenti Donald Trampdan gəldi. O, Novruz bayramı münasibətilə türkmənistanlı həmkarı Q.Berdiməhəmmədova ünvanladığı teleqramda Türkmənistanın Qərbə qaz ixracının imkanlarından istifadə etməyə başlayacağına ümid etdiyini bildirib: "Ümid edirəm ki, Türkmənistan Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı Qərbə yeni qaz ixrac imkanlarından istifadə edə biləcək.

Maraqlıdır, bir zamanlar Azərbaycanın aktiv təşəbbüskarı olduğu layihə ilə bağlı Avropa, ABŞ və Türkmənistanın hərəkətliliyi Bakıda elə də böyük entuziazmla qarşılanmır. Azərbaycan Transxəzər qaz kəməri layihəsində təşəbbüskar ölkə kimi iştirak etmək istəmir. Bunu Azərbaycan prezidenti İlham Əliyev ötən ilin avqustunda Almaniya kansleri Merkellə görüşdən sonra keçirilən brifinqdə açıq qeyd edib: "Transxəzər kəmərinin tikintisi daha çox qazın sahibi üçün maraqlı olmalıdır, tranzit ölkələr burada təşəbbüs göstərməməlidir. Necə ki, biz qazın sahibi kimi 3500 kilometrlik kəmərin tikintisinə start verdik, böyük maliyyə vəsaiti ayırdıq. Ona görə də əgər Xəzərin şərq hissəsində öz qazını Azərbaycan üzərindən dünya bazarına çıxarmaq qərarı olarsa, biz əlbəttə ki, buna çox maraqla baxa bilərik və onda öz qərarımızı verə bilərik. Ancaq bu qərar bizim yox, qarşı tərəfin olmalıdır".

Qeyd edək ki, Türkmənistanın öz qazını Xəzər vasitəsilə Avropa bazarına çıxarmaq üçün hərəkətə keçməsi Rusiya tərəfinin də aktivləşməsinə gətirib çıxarıb. Belə ki, "Qazprom"un rəhbəri Aleksey Miller martın sonunda bu il artıq üçüncü dəfə Aşqabada səfər edib və türkmən qazının Rusiyaya ixracının bərpasını müzakirə edib. İxracın həcmi və qiymət barədə məlumat açıqlanmasa da, Türkmənistanın Rusiya üzərindən ixrac imkanlarının geniş olmadığı bildirilir.

**Azərbaycanın Transxəzər qaz kəməri layihəsinə ciddi maraq göstərməməsi, təşəbbüskarlıqdan çəkinməsinin səbəbi nədir? Bu məsələdə Rusiya amili nə qədər rol oynayır?**

**Neft məsələləri üzrə ekspert, "Neft" Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın "Yeni Müsavat"a dediyinə görə, Transxəzərdən Azərbaycanın böyük həcmdə gəlirlər əldə edəcəyinə dair deyilənlər reallığı əks etdirmir:** "Bir zamanlar keçmiş nəqliyyat naziri Ziya Məmmədov və komandası Ələt dəniz limanı və Bakı-Tiflis-Qars dəmiryol xəttindən Azərbaycanın milyardlarla gəlir əldə edəcəyini bildirirdilər. O zaman mən demişdim ki, bu layihələrdən belə böyük həcmdə gəlir əldə etmək müşkül məsələdir. İndi hamı bilir ki, bu layihələrdən gəlirimiz ən yaxşı halda 200 milyon dollar olacaq. Hazırda da bəzi siyasətşünaslar, qaz marketindən xəbəri olmayanlar elə ab-hava yaratmağa çalışırlar ki, türkmən qazı gəlsə, Azərbaycan tranzitdən milyardlarla dollar əldə edəcək. Dövlət Statistika Komitəsinin rəsmi məlumatı var: ötən il Azərbaycanın Bakı-Tiflis-Ceyhan neft kəməri ilə 6 milyon 445 min ton tranzit nefti daşınıb. Bu tranzitdən ölkənin gəliri heç 100 milyon dollar da deyil. Neftin tranziti ilə qazın tranziti arasında böyük fərq var. Məsələ burasındadır ki, BTC ilə neft gedir Ceyhan limanına, oradan yüklənib yola salınır bazara. Yəni yüklənib gedən məhsulun sahibinin kim olmasının qiymətə təsiri olmur. Amma qaz tranzitində vəziyyət fərqlidir. Tutalım ki, türkmən qazı gəldi, Cənub Qaz Dəhlizi ilə gedib çıxdı Avropa bazarına. Biri var bu bazara 10 milyard kubmetr Azərbaycan qazı çıxsın, biri də var onunla bərabər daha 10 milyard kubmetr türkmən qazı çıxsın. Türkmən qazının bizim məhsulla eyni vaxtda bazara çıxması bizim məhsulun qiymətində azı 15 faiz ucuzlaşmaya səbəb olacaq. Fərq etmir, Avropada qaza tələbat yüksəkdir, yaxud azdır. Bir bazara eyni vaxtda iki satıcının məhsulu çıxırsa, bu, mütləq qiymətə azaldıcı təsir göstərir. Tranzit haqqına gəlincə, Rusiya ildə Ukrayna üzərindən 90 milyard kubmetr qaz nəql edir. Tranzit haqqı olaraq Ukrayna bundan 2,5 milyard dollar qazanır. Biz də ildə 10 milyard kubmetr türkmən qazından uzağı 250 milyon dollar tranzit haqqı ala bilərik. Bunun da mühüm bir hissəsi gedəcək boru kəmərlərinin səhmdarlarına".

**Mərkəz rəhbərinin fikrincə, vaxtilə Türkmən qazının Azərbaycan üzərindən nəqlini nəzərdə tutan "Nabukko" layihəsini ortaya atmaqla Avropa Rusiyadan qazı daha ucuz qiymətə və fasiləsiz əldə etməyə çalışıb:** "Avropa bu layihə üzərində oynamaqla Rusiyadan fasiləsiz və ucuz qaz təchizatı üzrə öhdəliklər əldə etdi. Bu gün Avropa və ABŞ-ın Transxəzər layihəsinə real dəstəyini - söhbət ilk növbədə maliyyə dəstəyindən gedir - görə bilmirik. Digər tərəfdən, Türkmənistanın özü də bu layihə üçün ciddi bir aktivlik, çalışma ortaya qoymur. Azərbaycan Cənub Qaz Dəhlizini reallaşdırmaq üçün həm özü maliyyə qoydu ortaya, həm də maliyyə və siyasi dəstək almaq üçün çox gərgin işlədi, Avropa ölkələrinə səfərlər təşkil olundu, danışıqlar aparıldı. Bu gün Türkmənistan bunun heç birini etmir. Bu ölkə 2015-ci ildən dəyəri 11,7 milyard dollar olan TAPİ qaz kəməri layihəsi üzrə müqavilə imzalayıb - Pakistana qaz çatdırmaq üçün. Amma indiyədək layihənin maliyyələşməsi üçün bir nəticə əldə edə bilməyib. Bu vəziyyətdə Transxəzərin reallaşması üçün bu ölkədən hansısa ciddi addım gözləməyə dəyməz".

**İ.Şaban hesab edir ki, Azərbaycanın Cənub Qaz Dəhlizini doldurmaq üçün qaza ehtiyacı azı 20 ildən sonra yarana bilər:** "Bizim qaz istehsalımızın pik dövrü keçəndən sonra bəlkə Xəzərin o tayındakı qaza ehtiyac yaransın..."

❑ **Dünya SAKİT,**
**""Yeni Müsavat"**

**Erməni KİV-lər Müdafiə və təhlükəsizlik məsələləri üzrə Milli Şuranın daimi komissiyasının iclası barədə şok məlumat yayıblar.**

Teleqraf.com-un erməni mediasına istinadən verdiyi xəbərə görə, iclas 27 oktyabr 1999-cu il hadisələrinə həsr olunub. İclasda Ermənistanın Baş naziri Nikol Paşinyanın yaxın silahdaşı, hakim partiyanın deputatı, parlamentin müdafiə və təhlükəsizlik məsələləri komitəsinin sədri Andranik Köçəryan sensasion açıqlama verib.

"27 oktyabr cinayəti açılıb. Sifarişçilər məlumdur. Bu cinayəti Vladimir Putinin tapşırığı ilə Rusiya xüsusi xidmət orqanları törədib", - erməni mediası Köçəryana istinadən bildirib.

Məlumat üçün bildirək ki, o zaman bir neçə terrorçu Ermənistan parlamentinin binasına daxil olaraq, spiker Karen Dəmirçiyanı, baş nazir Vazgen Sərkisyanı, spikerin müavinləri Yuri Baxşyanı və Ruben Miroyanı, operativ məsələlər üzrə nazir Leonard Petrosyanı, deputatlar Armenak Armenakyanı, Henrix Abramyanı və Mikael Kotanyanı güllələyiblər.

Onu da bildirək ki, Ermənistan parlamentinə edilən hücum zamanı V.Putin Rusiyanın baş naziri idi, eyni zamanda prezident səlahiyyətlərini icra edirdi.

Ekspertlərin A.Köçəryanın fikirlərinin nədən qaynaqlandığı, bunun Ermənistana baha başa gəlib-gəlməyəcəyi yönündə fikirləri müxtəlifdir. Bu istiqamətdə bəzi iddialar da meydana çıxıb. İddialardan biri Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Belə iddia olunur ki, 1999-cu ildə erməni tərəf işğal etdiyi ərazilərin bir hissəsini qaytarmağa razılıq verdiyi üçün Kremldən gələn sifariş əsasında parlamentin güllələnməsi mümkün idi.



© picture alliance/dpa/A. Zemliani

# Ermənistandan Putinə terror ittihamı - Kremlin cavabı ağır olacaq

## Elxan Şahinoğlu: "Putinin bundan mütləq şəkildə xəbəri var idi"

**"Atlas" Araşdırmalar Mərkəzinin Elxan Şahinoğlu bu ittihamın real ola biləcəyindən söz açdı:** "Ermənistanın hakim partiyasının üzvü, baş nazir Nikol Paşinyanın yaxın silahdaşı, parlamentin müdafiə və təhlükəsizlik məsələləri komitəsinin sədri Andranik Köçəryanın "27 oktyabr cinayəti açılıb. Sifarişçilər məlumdur. Bu cinayəti Vladimir Putinin tapşırığı ilə Rusiya xüsusi xidmət orqanları törədib" açıqlaması əsl sensasiyadır. Hakim partiyanın deputatının ittihamı ciddidir. Söhbət Ermənistan parlamentinin 1999-cu ildə güllələbaran olunmasından gedir. Silahlı hücum nəticəsində spiker Karen Dəmirçyan, baş nazir Vazgen Sərkisyan, spikerin müavinləri Yuri Baxşyan və Ruben Miroyan, operativ məsələlər üzrə nazir Leonard Petrosyan, deputatlar Armenak Armenakyan, Henrix Abramyan və Mikael Kotanyan qətlə yetirildilər.

Birincisi, o illərdə Dağlıq Qarabağ danışıqları intensivləşmişdi. O zaman belə xəbərlər yayılırdı ki, ATƏT-in 1999-cu ildə keçiriləcək İstanbul sammitində Dağlıq Qarabağla bağlı sülh sazişi imzalana bilər. Bu sülh sazişi Rusiyadakı bəlli mərkəzlərin maraqlarına cavab vermirdi. Ona görə də Ermənistan parlamentinin güllələbaran edilməsində Rusiya izi haqqında bu günə qədər danışılır.

İkincisi, Vladimir Putin güllələbaran zamanı cəmi bir ay idi ki, baş nazir vəsifəsinə təyin edilmişdi. Rusiyanın keçmiş prezidenti Boris Yeltsin hökumətin formalaşdırılmasını Federal Təhlükəsizlik Xidmətinin rəisi Vladimir Putinə tapşırmışdı. Buna baxmayaraq, Ermənistan parlamentinə hücum planı daha əvvəl hazırlana bilərdi. Çünki bu cür əməliyyatların hazırlanması xeyli zaman tələb edir. Bu o deməkdir ki, əgər Rusiyada Ermənistanda qarşıqlıq yaratmaq planı hazırlanmışdısa, Putinin bundan mütləq şəkildə xəbəri var idi. Sadəcə, burada iki məsələ var. Ya planı Putin özü hazırlayıb və həyata keçirilməsini şöbələrə tapşırıb, ya da o, hazır olan plana razılığını verib".

**Politoloq 20 il öncə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ciddi proseslərin getdiyinə də toxundu:** "Əsas sual budur: Ermənistan parlamenti güllələbaran olunmasaydı, sülh sazişi imzalanacaqdımı? Belə bir ehtimal var idi. Parlamentdə öldürülənlərin əksəriyyəti sülh sazişi imzalamağa üstünlük verirdi. Bu güllələbarandan əvvəl Azərbaycan prezidentinin 3 yaxın tərəfdarı vəzifələrindən istefa verdilər. Söhbət prezidentin köməkçisi Eldar Namazov, prezidentin xarici siyasət məsələləri üzrə müşaviri Vəfa Quluzadə və xarici işlər naziri Tofiq Zülfüqarovdan gedir. Bu onların birgə verdiyi qərar idi. Onlar hesab edirdilər ki, bu istefa ilə Azərbaycan üçün əlverişsiz olan sülh sazişinin İstanbulda imzalanmasının qarşısını alacaqlar. Ancaq Ermənistan parlamentinin güllələbaran olunması daha erkən olsaydı, adıçəkilən rəsmilər bəlkə də istefa verməzdilər. Çünki onsuz da Ermənistan parlamentinin güllələbaran olunması İstanbulda mümkün razılaşmanı əngəllədi.

Ermənistanın hakim partiyasının deputatının Putinin əleyhinə açıqlaması Moskvada ciddi rezonans doğurmalıdır. Çünki bu açıqlama Ermənistanın hansısa müxalifət partiyasının nümayəndəsindən deyil, hakim partiyasının deputatının dilindən səsləndirilib. Bu isə o deməkdir ki, hakim partiyada da Putinə qarşı eyni əhval-ruhiyyə var. Moskvadan bu açıqlamaya görə təzyiq olsa Ermənistanın baş naziri Nikol Paşinyan ya deyəcək ki, bu onun və partiyasının mövqeyi deyil, lap böyük təzyiq olacağı halda isə bəlkə də açıqlaması səsləndirən deputatı partiyasından və ya komitə rəhbərliyindən xaric edəcək".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# Qarabağ separatçılarından Sərsəng su anbarı ilə bağlı məkrli təklif

## Ekspert: "AŞ PA-nın qətnaməsində Sərsəng su anbarının işğalına son qoyulması tələb olunur"

**İşğalçı Ermənistan və Qarabağdakı separatçılar vaxtaşırı Azərbaycana yönəlik absurd çağırışlar edirlər, özlərini "sülhpərvər", "humanist adamlar" kimi təqdim etməyə çalışırlar. Növbəti sərsəm təklifləri Dağlıq Qarabağdakı qondarma "hökumətin keçmiş rəhbəri Araik Arutyunyan səsləndirib. Arutyunyan facebook səhifəsində yazıb ki, beynəlxalq uçuşlar üçün Qarabağ hava məkanının açılmasını, həmçinin Azərbaycanla birlikdə Sərsəng su anbarının istifadəsini təklif edib.**

Onun iddiasına görə, razılıq əldə olunarsa, sərhədyanı rayonlarda minlərlə hektar torpaq suvarılacaq ki, bu da əhalinin həyat səviyyəsini kardinal şəkildə dəyişəcək. Arutyunyan deyib ki, bu təkliflər Azərbaycan və Ermənistan XİN rəhbərlərinin qarşıdakı görüşündə müzakirə oluna bilər. Qarabağ separatçısı onu da bildirib ki, vaxtilə bu təkliflər BQXK və ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəsilə Azərbaycan hakimiyyətinə təqdim olunub, lakin Bakı tərəfindən qəbul edilməyib. ("Turan")

Xatırladaq ki, Qarabağ üzərində hava məkanı Azərbaycan ərazisi sayılır və onun razılığı olmadan orada beynəlxalq aviareyslər mümkün deyil. Bakı dəfələrlə bildirib ki, Ermənistan-Azərbaycan münaqişəsi nizamlanmayınca bu cür uçuşların həyata keçirilməsinə imkan verilməyəcək.

Sərsəng su anbarına gəldikdə, rəsmi Bakı bunu da qəbulolunmaz hesab edir. Hətta Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) sessiyasında "Azərbaycanın sərhəd rayonlarının sakinləri qəsdən sudan məhrum edilib" adlı qətnamə qəbul edilib.

Xatırladaq ki, Sərsəng su anbarı 1976-cı ildə Tərtərçayın üzərində, keçmiş Ağdərə, indiki Tərtər rayonu ərazisində inşa edilmiş su anbarıdır. Onun ümumi sututumu 560 mln $m^2$, bəndinin hündürlüyü isə 125 m-dir. Sərsəng su anbarı respublikada bəndinin hündürlüyünə görə ən hündür bəndli su anbarlarından biridir. Sərsəng su anbarı hazırda Tərtər rayonunun erməni işğalında olan (keçmiş Ağdərə rayonu) ərazisində qalıb və Azərbaycan tərəfindən istismarı qeyri-mümkün olub. Sərsəng su anbarı respublikanın 6 rayonunun (Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin edirdi. Bir sıra hallarda ermənilər anbarın bəndini dağıdaraq Azərbaycan üçün su fəlakətini yaradacaqları ilə də təhdid edirlər.



Ekspertlərimiz ermənilərin Azərbaycana təklifini qəbulolunmaz sayır.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a dedi ki, Sərsəng su anbarı ilə bağlı separatçı qurumun rəhbərlərinin Azərbaycana təklifi təsadüfi deyil:** "Bununla onlar yenə də özlərini subyekt kimi göstərməyə çalışırlar. Tək Sərsənglə bağlı məsələni yox, eyni zamanda mülki aviasiyanın da sərbəst hərəkətini gündəmə gətirirlər. Sərsəng su anbarı Azərbaycanda ən hündür bəndli su anbarlarından biridir və hazırda Tərtər rayonunun erməni işğalında olan ərazisində yerləşir. Ərazilərimizin işğalından sonra bu anbardan istifadə etmək mümkün olmayıb. Buna görə də Azərbaycanın 6 rayonunda 100 min hektarlarla ərazi susuz qalıb". **Politoloq qeyd etdi ki, mütəmadi olaraq erməni tərəfi bu məsələni bir təzyiq vasitəsi kimi qabardır:** "Maraqlıdır ki, Avropa Şurası Parlament Assambleyasında Sərsənglə bağlı 11 ölkədən olan 27 deputatın imzası ilə sənəd də qəbul edilib və həmişə olduğu kimi icra mexanizmi yoxdur. Yeni ermənilərin mütəmadi olaraq verdikləri belə bəyanatlar əsasən siyasi məqsədlər daşıyır və Azərbaycan-Ermənistan danışıqlarında predmetə çevrilmək məqsədi güdür. Həqiqətən də su ilə terrora məruz qoyma Sərsəng su anbarının bağlanması və ya qəflətən açılaraq təhlükəli vəziyyətin yaradılması məsələsi bu gün ermənilərin mənfur xislətindən başqa bir şey deyil".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu da bildirdi ki, Azərbaycanın Sərsəng su anbarını işğalçılarla birgə işlətməsindən söhbət gedə bilməz:** "Sərsəng su anbarı işğal altındadır. Əgər separatçıların "birgə əməkdaşlıq" təklifinə razılaşsaq, gərək onda başqa sahələrdə də "əməkdaşlıq" edək. Separatçılar bu yolla özlərini tanıtdırmağa çalışırlar. Yəni sonda desinlər ki, "görürsünüz, Azərbaycan da bizimlə əməkdaşlıq edir". AŞPA-nın Sərsəng Su Anbarı ilə bağlı qətnaməsi var. Həmin qətnaməyə görə "birgə əməkdaşlıq" yox, Sərsəng su anbarının işğalına son qoyulması tələb olunur. Ermənistan hakimiyyəti və separatçılar AŞ PA-nın bu qətnaməsi ilə hesablaşmadılar. Separatçılar istəyirlər ki, Azərbaycan maliyyəsi hesabına Sərsəng su anbarını bərpa edib ondan daha keyfiyyətli şəkildə istifadə etsinlər. Buna razılaşmaq olmaz! Sərsəng su anbarının birgə istifadəsi yalnız ədalətli sülh sazişinin imzalanmasından sonra mümkündür".

Qeyd edək ki, BMT-dəki tədbirlərdə də Su, Ətraf Mühit və Sağlamlıq üçün Qlobal İnstitutun rəhbəri Nidal Salim Ermənistanı Azərbaycana qarşı sudan təzyiq kimi istifadəsini dayandırmağa, bu sahədə qəbul edilmiş beynəlxalq hüquqi sənədlərə əməl etməyə çağırıb. O, Azərbaycana qarşı sudan təzyiq vasitəsi kimi istifadəni beynəlxalq cinayət adlandırıb.

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 77 (7247) 12 aprel 2019

## Bir gündə üç intihar-biri hamilə qadındır



**Ağdaşda intihar hadisəsi baş verib. ONA-nın xəbərinə görə, hadisə aprelin 10-da gecə saat 03:00 radələrində qeydə alınıb. Rayonun Nehrəxəlil kənd sakini, 1995-ci il təvəllüdlü İslamova Səidə Ağaməmməd qızı özünü rayon ərazisindən keçən Türyançay çayına atıb. Nəticədə qadın boğularaq ölüb. Onun özünə qəsd etməsinin səbəbləri hələlik məlum deyil. Qadının meyiti sudan çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.**

Faktla bağlı Ağdaş Rayon Prokurorluğu tərəfindən araşdırma aparılır. Qeyd edək ki, S.İslamova yeddi aylıq hamilə imiş.

Daha bir intihar Sabirabadda qeydə alınıb. Rayonun Qalaqayın kənd sakini, 1987-ci il təvəllüdlü Əliyev Sarvan Zabit oğlu özünü su kanalına ataraq intihar edib.

Bakıda isə 34 yaşlı kişi özünü öldürüb. Hadisə paytaxtın Nərimanov rayonunda qeydə alınıb. Rayon sakini, 1985-ci il təvəllüdlü Elçin Süleymanov yaşadığı evdə özünü asıb.

Faktla bağlı Nərimanov Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, istintaq gedir.

## Xırdalanda kütləvi dava olub, iki polis bıçaqlanıb



**Xırdalanda kütləvi dava olub. ONA-nın məlumatına görə, hadisə "Sultan" kafesində qeydə alınıb. Müştərilərlə kafenin işçiləri arasında baş verən kütləvi dava zamanı Çevik Polis Alayının əməkdaşı Rəşad Alışov, Daxili Qoşunların əməkdaşı Orxan Nağıyev və onun qardaşı Rauf bıçaqlanıblar. Yaralılar ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib.**

Faktla bağlı cinayət işi başlanıb, istintaq hərəkətləri davam etdirilir.

## Bakıda axtarışda olan şəxs ölkədən qaçmaq istəyərkən tutulub



**Bakıda axtarışda olan şəxs saxlanılıb. ONA-nın məlumatına görə, Xətai Rayon Polis İdarəsi tərəfindən Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə axtarışda olan Xaspolad Rzayev ölkədən qaçmaq istəyərkən Heydər Əliyev Hava Limanında saxlanılıb.**

Qeyd edək ki, X.Rzayev işə düzəltmək adı ilə vətəndaşlara qarşı dələduzluq etməkdə təqsirləndirilir.

## Rusiyadan qanunsuz yolla gətirilən siqaretlər aşkarlandı

**Şimal Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinin Əməliyyat şöbəsinə daxil olan məlumat əsasında Rusiya Federasiyası istiqamətindən "Samur" gömrük postunun idxal gömrük nəzarəti xəttinə daxil olan Azərbaycan vətəndaşının idarə etdiyi "Mercedes Benz E300" markalı nəqliyyat vasitəsi saxlanılıb və gömrük baxışı keçirilib.**

Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, yoxlama zamanı nəqliyyat vasitəsinin gizli saxlanc yerlərindən gömrük orqanlarına bəyan edilməyən 20 840 ədəd müxtəlif markalı siqaretlər aşkar olunub.

Faktla bağlı araşdırma aparılır.

## Sabunçuda narkotik satan şəxslər tutulub

**Sabunçu Rayon Polis İdarəsinin Cinayət Axtarış Şöbəsi və Narkotiklərlə Mübarizə Bölməsi əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi və alqı-satqısı ilə məşğul olan şəxslər saxlanılıb.**

Daxili İşlər Nazirliyindən ONAya verilən xəbərə görə, əməliyyat zamanı qeyd edilən cinayəti törətməkdə şübhəli bilinən Maştağa qəsəbə sakini Mütəllim Babayev saxlanılıb.

Onun üzərinə baxış zamanı 5,695 qram narkotik vasitə olan marixuana aşkar edilərək götürülüb



# Yanan yataqxananın sakinlərinə 300 manat kirayə pulu verildi

## Hazırda nə qədər məcburi köçkün ailəsi yataqxanada yaşayır - rəsmi rəqəmlər

**Xəbər verildiyi kimi, aprelin 10-da Bakıda, Babək prospektində - "Azərsutikinti" xəstəxanasının məcburi köçkünlərin məskunlaşdığı korpusunda yanğın olub. Hadisə yerinə Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin yanğınsöndürənləri gəlib və alov söndürülüb. Koridorlar dar, bir ədəd giriş və çıxış olmağına baxmayaraq, yanğın zamanı xoşbəxtlikdən ölüm halı baş verməyib.**

Qeyd edək ki, binanın qəsdən yandırılması versiyası da irəli sürülüb. Lakin sakinlər bu fikrə kəskin etirazlarını bildiriblər. Onların iddiasına görə, bu cür vəziyyətdə olan binanın indiyə qədər yanmamasının özü belə möcüzədir.

Etiraf etmək lazımdır ki, məcburi köçkünlərin məskunlaşdıqları digər yataqxanalarda olduğu kimi burada da elektrik xətlərinin vəziyyəti bərbad haldadır. Binaya təbii qaz verilmir, ona görə də yataqxanada məskunlaşan 23 ailənin hamısı otaqlarını elektrik enerjisi hesabına isidib. Sakinlər söyləyiblər ki, dəfələrlə naqillərdə problemlər, qırılmalar baş verib. Sakinlər tələb ediblər ki, onların hamısına məcburi köçkünlər üçün inşa edilən binadan mənzil verilsin.

Bəs hazırda onların durumları nə yerdədir? Məcburi köçkünlər üçün binalar tikilirmi?

"Yeni Müsavat" olaraq bu istiqamətdə araşdırma edərək, bəzi məlumatlar əldə etdik. Əvvəlcə onu qeyd edək ki, yanğın baş verən yataqxanada məskunlaşan bütün ailələr kirayə mənzillərə köçürülüb. İndiyə qədər bu kimi yataqxanalarda yanğın hadisələri tez-tez baş verib. Baş nazirin müavini Əli Əhmədov da qeyd etdi ki, son aylarda Bakıda 5 ardıcıl yanğın hadisəsi baş verib ki, bununla bağlı da ciddi göstərişlər verilib: "Hazırda mənzilə ehtiyacı olan məcburi köçkünlərin sayı da çoxdur. 100 minlərlə rəqəmlərlə ölçülür və bütün bunların hamısını həll etmək üçün zaman lazımdır. Yaxın bir neçə il ərzində problemin əhəmiyyətli dərəcədə kəskinliyini azaltmaq niyyətindəyik. Amma bundan ötrü on minlərlə yeni mənzillər tikilməlidir. Bunlar asan şeylər deyil və zaman tələb edir ki, Azərbaycan hökuməti bunları ardıcıl şəkildə həyata keçirə bilsin",-deyə baş nazirin müavini bildirib.

Sakinlərdən aldığımız məlumata görə, aprelin 11-də onların bir qismi Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri tərəfindən qəbul edilib. Biz ərazidə olduğumuz zaman da müşahidə edirdik ki, Rövşən Rzayev məcburi köçkünlərin adlarını qeyd etdirib, onların qəbula gəlmələri üçün şərait yaradır. Öyrəndik ki, 23 ailənin hər birinə 300 manat məbləğində kirayə pulu verilib.

Son zamanlar yanan yataqxanalarda adətən bu cür təcrübədən istifadə edilir və sakinlər yataqxana təmir olunana qədər kirayə mənzillərə köçürülür. Nümunə kimi martın 6-da Nəriman Nərimanov rayonunda yerləşən məcburi köçkünlərin məskunlaşdığı yataqxanada baş verən yanğını göstərə



bilərik. Həmin yanğın zamanı 2 nəfər dünyasını dəyişmişdi. Evləri yanan məcburi köçkünlər isə yataqxana təmir olunana qədər müvəqqəti kirayə mənzillərə köçürülmüşdü.

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən "Yeni Müsavat"a bildirilib ki, ilk növbədə pis vəziyyətdə yaşayan məcburi köçkünlərin mənzillərlə təmin olunması prosesi həyata keçirilir ki, bu, hazırda da davam etdirilir:** "Ötən aylarda Sumqayıt şəhərində pis vəziyyətdə yaşayan məcburi köçkünlər mənzillərlə təmin olundular. Aprelin 5-də isə Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi istifadəyə verildi. Layihə üzrə doqquzmərtəbəli 15 bina tikilib ki, bunlardan 9-u 54, 4-ü 36, digərləri isə 108 və 72 mənzillidir. Yeni yaşayış kompleksində məktəb və uşaq bağçası, o cümlədən digər zəruri infrastruktur obyektləri - klub-icma mərkəzi, həkim məntəqəsi inşa edilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb". Bildirildi ki, bu, ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 103-cü müasir yaşayış kompleksidir.

2018-ci ilin may ayında açıqlanan rəsmi rəqəmlərdə bildirilir ki, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu ərazisində yerləşən 149 qəzalı obyektdə 8701 ailə, 32743 məcburi köçkün məskunlaşıb. Bu ilin aprel ayının 5-də kompleksin açılışı zamanı isə məlumat verilib ki, artıq Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binalarının da açılışı olub.

"Qaçqınkom"dan bildirilib ki, 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. İndiyədək 58 min 203 ailə və ya 300 min qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb ki, ondan da 54 min 203 ailə, yaxud 272 min nəfər son 15 ilin payına düşür. Təkcə 2018-ci ildə 5903 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. Ümumilikdə bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manat vəsait xərclənib. Açılan yeni iş yerləri nəticəsində məcburi köçkünlər arasında yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azalıb.

**Komitədən məlumat verilib ki, bu il ərzində 5 min məcburi köçkün ailəsinin mənzillə təmin edilməsi nəzərdə tutulub:** "Ötən il Lökbatan-Qobu yolunun 3 kilometr şərq hissəsində məcburi köçkünlər üçün salınmış "Qobu Park" yaşayış kompleksinin açılışı oldu. Bu kimi komplekslərin tikintisi davam edir. Ümumilikdə ötən il ərzində 5700 ailə - təxminən 25 min məcburi köçkün evlə, mənzillə təmin edilmiş oldu".

**Əli RAİS,
"Yeni Müsavat"**

**Bakı Şəhər İcra Hakimiyyəti Milli Şuranın 6 aprelə təyin etdiyi mitinqə də "yox" cavabı verdikdən sonra Milli Şura aprelin 20-nə daha bir mitinq təyin edib. 20 aprelə Qarabağ Komitəsi də mitinq təyin edib. Lakin Bakı Şəhər İcra Hakimiyyəti hər iki mitinqlə bağlı müraciətlərə hələ rəsmi cavab verməyib.**

# Hakimiyyət və müxalifət mitinq məsələsində israr edir

## BŞİH mitinqlərə razılıq verməmək xəttindən, müxalifət isə ard-arda aksiyalar təyin etməkdən geri çəkilmir...



Qeyd edək ki, Bakı Şəhər İcra Hakimiyyəti müxalifətin 19 yanvar mitinqindən sonra kütləvi aksiyalar üçün edilən müraciətlərə bir qayda olaraq mənfi cavab verir. Milli Şuranın fevralın 23-də və martın 2-də, Müsavat Partiyasının martın 10-da keçirmək istədiyi aksiyalara da razılıq verilməmişdi. Maraqlıdır ki, hər dəfə BŞİH-dən mənfi cavab alınsa da müxalifət eyni addımı təkrarlayır. Beləliklə, mitinq məsələsində həm iqtidar, həm də müxalifət direniş göstərməkdə davam edir. Hakimiyyət mitinqlərə razılıq verməmək xəttindən geri çəkilmir, müxalifət isə ard-arda mitinqlər təyin etmək mövqeyindən geri durmur.

Bəs hakimiyyətin mitinqlərdən ehtiyatlanmasında ciddi səbəblər varmı? Müxalifətin hətta keçirilsə belə ciddi dəyişikliklərə səbəb olmayan mitinqlərdə israr etməsinin səbəbi nədir? Bu özünüifadə istəyindən irəli gəlmir ki?

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev "Yeni Müsavat"a bildirdi ki, burada mübarizə taktikası özünü göstərir. Hər iki tərəfin öz taktikası var:** "İqtidar bir neçə düşərgədə döyüşür. Hakimiyyətdaxili qruplar, ənənəvi beynəlxalq müttəfiqlər, cəmiyyətin oyanışı və tələbləri, bir tərəfdən də toparlanan müxalifət təşkilatları. Hakimiyyətdə olanlar fərqindədirlər ki, kütləvi tədbirlər belə anturajda dayanıqsızlıq verə bilər. Bu laxlama isə proqnoza yatmır. Müxalifət də bunu duymaqdadır. Ona görə də zəifi gördüklərindən, oranı da vururlar. Qanun müstəvisində özünümüdafiə iqtidarın, kütləvi tədbirlər keçirmək müxalifətin konstitusion haqqıdır. Hər bir təşkilat qanunla kütləvi aksiya keçirmək hüququna malikdir. Mitinq üçün müraciət edənlər də bu haqlarından istifadə etmək istəyirlər. Konstitusiya hüququndan istifadə təşəbbüsündə ziyanlı heç nə yoxdur. Buna söz demək olmaz".

**AXP sədri Pənah Hüseyn isə bildirdi ki, mitinq üçün müraciətlər, sadəcə, müraciət xatirinə edilən müraciətlər deyil, yürüdülən siyasətin tərkib hissəsidir. Mitinqlərlə bağlı müraciətlərə mənfi cavab verilməsinə baxmayaraq müraciətlərin edilməsi sistemli və ardıcıl siyasətin aparılmasını özündə əks elətdirir:** "Hər dəfə müraciət edildikdən sonra müəyyən hazırlıq işləri aparılır, təbliğat gedir, fəallaşma olur. Yəni müəyyən bir xətt davam etdirilir. İkincisi, hər dəfə mitinq üçün müraciətlər və müraciətlərə cavablar qeydə alınır, ölkədə ümumi siyasi vəziyyət haqqında dəyərləndirilmə aparılması üçün bu məqam istifadə olunur. Bu cür vəziyyətin davam etməməsi üçün istər hüquqi müstəvidə, istərsə də siyasi təbliğat istiqamətlərində iş aparılır. İqtidarın mitinqlərə razılıq verməməsi isə belə görünür ki, kütləvi aksiyaların artan xətt üzrə inkişaf edəcəyinə əmin olmalarındandır".

❑ **E.SEYİDAĞA, "Yeni Müsavat"**

# Bakıda Tehranı qəzəbləndirəcək Bütöv Azərbaycan müzakirəsi

## **Fərəc Quliyev:** "Siyasətdə ölkəmizə qarşı kiminsə qəzəblənməsi kimi məsələləri tamamən gözardı etmək lazımdır"

**Aprelin 13-də saat 12-də Beynəlxalq Mətbuat Mərkəzində Bütöv Azərbaycan Ocaqlarının (BAO) təşkilatçılığı ilə I Bütöv Azərbaycan Forumu keçiriləcək. Bu barədə BAO-nun yaydığı məlumatda deyilir ki, forumun keçirilməsində əsas məqsəd Azərbaycanın bütövlüyü məsələsini gündəmə gətirmək, Bütöv Azərbaycanın problemlərinə bir müstəvidən yanaşmaq, ümummilli birliyə nail olmaqdır. Qeyd olunur ki, bu birlik bizim mədəni-siyasi birliyimiz olmaqla böyük bir gücə çevriləcək.**



Forumda Azərbaycanın Güneyini təmsil edən təşkilatların nümayəndələrinin, Borçalıdan, Kərkükdən, Dərbənddən, Şimal-Qərbi Azərbaycandan olan fəalların, digər ictimai-siyasi təşkilatların nümayəndələrinin, ziyalılar və gənclərin iştirak edəcəkləri bildirilir.

Bəzi ekspertlər hesab edir ki, İranın Qərb tərəfindən get-gedə daha da sıxışdırıldığı bir vaxtda Azərbaycanda bütöv Azərbaycan məsələsinin gündəmə gətirilməsi Tehranı bizə qarşı qəzəbləndirə bilər.

**Deputat Fərəc Quliyev isə "Yeni Müsavat"a bildirdi ki, Güney Azərbaycan məsələsi ilə bağlı tədbirlər həmişə keçirilib və bu cür forumların keçirilməsi lazımdır. Bizim strateji hədəfimiz olan Bütöv Azərbaycanla bağlı hər bir müsbət fəaliyyət dəstəklənməlidir. Bu forum da yaqin ki, Bütöv Azərbaycan məsələsi ilə bağlı fəaliyyətlərin koordinasiya edilməsinə yönəlib:** "Hesab etmirəm ki, Güney Azərbaycan məsələsi ilə bağlı fəaliyyət günlük dünya siyasətində olan proseslərə rəğmən müəyyənləşməlidir. Çünki bu məsələ bizim bir xalq olaraq strateji hədəfimizdir. Hədəfsiz millət kompassız gəmi kimidir. Bizim millət üçün ədalətli status-kvo özünün tarixi coğrafi ərazisində Bütöv Azərbaycan qurmaqdır. Bu məsələ bizim gündəlik həyat tərzimiz olmalıdır, hər gün bu istiqamətdə iş görülməlidir. Bu gün Bütöv Azərbaycan Ocaqları da bu istiqamətdə tədbir keçirirsə, təqdirə layiqdir. Hesab edirəm ki, bu iş davamlı olaraq və təşkilatlandırılmış şəkildə davam elətdirilməlidir. Mənim özüm də o forumda iştirak eləyəcəyəm. Bütün azərbaycanlılar belə məsələlərdə bir yerdə olmağı bacarmalıdırlar.

Hesab edirəm ki, Bütöv Azərbaycan məsələsi ilə bağlı forum ölkəmizin xeyirinədir. Siyasətdə ölkəmizə qarşı kiminsə qəzəblənməsi kimi məsələləri tamamən gözardı etmək lazımdır. Çünki cidanı çuvalda gizlətmək olmaz, bizim millət, dövlət bölünüb və tarixi ədalət bərpa olunmalıdır. Bu istiqamətdə görülən tədbirlər strateji olaraq xeyirlidir. Tehran qəzəblənəcək deyə biz Bütöv Azərbaycan məsələsini kənara qoymalı deyilik. Tehran onsuz da elədiyini eləyib, bizi iki yerə bölüblər və həmişə də ermənilərə dəstək verir. Qaradan artıq rəng olmaz. İndiki status-kvo bizim millət üçün ədalətli deyil və biz kiminsə xoşuna gəlməsə də bu mübarizəni aparmalıyıq".

**"ABŞ-İran qarşıdurması get-gedə kəskinləşir. Güney Azərbaycan məsələsində azərbaycanlılar fəallaşsa, bu prosesə Qərbdən dəstək gələ bilərmi" sualına F.Quliyev belə cavab verdi:** "Biz heç kimin projesində yer almırıq. Biz öz mübarizəmizi aparırıq. Bəzi məqamlarda isə əməkdaşlıq eləmək mümkündür. İrana qarşı ABŞ-ın və digərlərinin mübarizəsinin güclənməsi bizim işimizi yüngülləşdirə bilər".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Zahid Orucun yeni vəzifəyə təyinatından iki ay keçdi

## Deputat yeni yaranan qurumun ortaya ciddi iş qoymasına çalışır



**Deputat Zahid Orucun prezident İlham Əliyevin sərəncamı ilə Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin rəhbəri təyin olunmasından dünən 2 ay keçdi. Media ilə sıx əməkdaşlıq etməsi və aktivliyi ilə seçilən azsaylı deputatlardan olan Zahid Oruc sözügedən vəzifəyə təyin olunandan sonra işinin nədən ibarət olduğu haqda açıqlama verdi. O zamandan indiyə qədər Zahid Orucun hər hansı bir media orqanına açıqlama verməsi və ya müəllif yazısı ilə çıxış etməsinə rast gəlinmir. Əldə etdiyimiz məlumata görə, bu, hörmətli Zahid Orucun yeni yaranan qurumun işləri ilə intensiv məşğul olması, ortaya ciddi iş qoymağa çalışması ilə bağlıdır.**

Sosial Tədqiqatlar Mərkəzinin harada yerləşməsinə gəlincə, məlumatda deyilir ki, mərkəz keçən il fəaliyyətinə xitam verilən Strateji Araşdırmlar Mərkəzinin inzibati binasında yerləşir.

Sosial Tədqiqatlar Mərkəzinin yaradılmasının dövlət və vətəndaş arasında sağlam, etibarlı və dürüst əlaqələrin formalaşması məramından irəli gəldiyi bildirilir. Məqsəd hakimiyyət institutlarına ictimaiyyətin münasibətini həm də bu yolla öyrənməklə dövlət quruculuğu prosesinə aktiv yön vermək, xalq qarşısında hesabatlı, şəffaf və ədalətli idarəçilik sistemini bərqərar etməkdir. Sosial Tədqiqatlar Mərkəzinin yaradılması barədə prezident fərmanında da deyilir ki, mərkəz ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini, sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

İndi hər kəs qəbul edir ki, istənilən rəsmi qərar cəmiyyətin ona hazırlanmasını, millətin həmin siyasətdə aktiv iştirakını tələb edir. Zahid Oruc bu vəzifəyə təyin olunanda bəyan edib ki, Sosial Tədqiqatlar Mərkəzi öz imkanları və səlahiyyətləri daxilində əldə etdiyi təhlilləri, hesabatları və rəy sorğularını daimi əsasda ölkə rəhbərliyinə təqdim etməyə çalışacaq.

STM-in yaradılmasının təşkilati bazası əsasən keçmişdə mövcud olan Strateji Araşdırmlar Mərkəzinin kadr bazası əsasında həyata keçirilir. Mərkəzin işçi heyətinin mühüm bir hissəsi əvvəlki illərdə SAM-da daxili siyasət üzrə çalışan insanlardan ibarətdir.

❑ **E.SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 77 (7247) 12 aprel 2019

**Hesablama Palatasının 2018-ci ilə dair fəaliyyət hesabatı ötən hesabatlardan bir neçə parametr üzrə fərqlənirdi. Bura ilk növbədə hesabatın daha detallı və əhatəli hazırlanması, büdcəyə bərpa olunan vəsaitlərin həcmi aiddir. Parlamentə təqdim olunan hesabatda Palata 700-ə yaxın nöqsan haqda qeydləri diqqətə çatdırıb. Hesablama Palatasının yoxlamaları nəticəsində 22 milyard manatlıq büdcədən cəmi 23 milyon manat vəsait mənimsənilməsi üzə çıxarılıb. Müzakirələr zamanı deputatlar vəsaitin miqdarının artırılması ilə bağlı fikirlər səsləndiriblər.**

# Deputat büdcədən 23 milyon manat oğurlayanlardan danışdı

## Fəzail Ağamalı: "Büdcədən oğurluq etmiş məmurlara amnistiya və əfv şamil edilməli deyil"



### "Hesablama Palatasına kənar təsirlər var!"

**Deputat Fəzail Ağamalı Hesablama Palatasının fəaliyyəti ilə bağlı "Yeni Müsavat"ın suallarını cavablandırıb. Deyib ki, Palatanın müstəqil fəaliyyəti üçün qanunvericilik bazası var:** "Sadəcə olaraq, kənar təsirlər var, palatanın işinə qarışanlar var. Hesablama Palatası müstəqilliyini təmin etməlidir. Kənar təsirlərə fikir verməməli, kimlərinsə sözünə baxmalı, məruz qalmalı deyillər. Milli Məclisə tabe qurum kimi işini davam etdirməli, audit aparmaq hüququndan qanunauyğun şəkildə istifadə etməlidir. Hesablama Palatası 23 milyon manat pulun yayındırılması haqda hesabat verib. Əslində bunun adı yayınma deyil, əslində bu, büdcə vəsaitinin mənimsənilməsi, büdcə vəsaitinin oğurlanmasıdır. 23 milyon manat pulu büdcədən oğurlayıblar. Əgər nöqsan varsa, bu ayrıca göstərilməlidir. Yayınma varsa, bu, ayrıca qeyd olunmalıdır. Hər birinin fərqli təsnifatı və hüquqi qiyməti var. 23 milyon manat vəsaitin büdcədən yayınma kimi göstərilməsi yanlışdır. Hesablama Palatası işini yenidən qurmaq üzərində çox ciddi şəkildə düşünməlidir. Büdcə icrasında müəyyən olunmuş yayınmalar, mənimsəmələrin ayrılıqda təsnifatı aparılaraq hüquqi qiymət verilməsinə nail olunmalıdır. Hesablama Palatası hüquq-mühafizə orqanı deyil. Konkret faktları müəyyən edib Respublika Prokurorluğuna göndərməli, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılmalıdır. Heç kimə güzəşt olunmalı deyil. Cinayət Məcəlləsində büdcə oğurluqları ilə bağlı maddələrin sanksiyaları sərtləşdirilməli, büdcədən oğurluq etmiş məmurlara amnistiya, əfv fərmanları şamil edilməli deyil. Təyin olunmuş cəzaların günə-gün çəkmələri təmin edilməlidir. Büdcədən oğurluqların qarşısının alınması üçün bu addımlar atılmalıdır".

### "Bəs bu oğurluq üzə çıxmasa necə olacaq?"

**Deputat deyir ki, indiki halda durum belədir ki, məmur ona etibar edilən büdcə vəsaitlərini mənimsəyir, Hesablama Palatası həmin mənimsəməni müəyyən edirsə, məmur pulu qaytarır, etmirsə, pullar büdcəyə qayıtmır:** "Əgər məmur büdcə pulunu geri qaytarırsa, pul ciblərə gedibsə və ciblərdən qayıdırsa deməli büdcədən həmin pulu oğurladığını etiraf edir. Bu cinayətin etirafıdır. Mənin üçün maraqldır, həmin pulu haradan qaytarır? Dövlətin vətəndaşın rifahı üçün ayırdığı vəsait hansısa məmurun villasına, bahalı maşına xərclənir. Bəs bu oğurluq üzə çıxmasa necə olacaq?"

### "Qanunun bütün sərtliyi ilə tədbir görülməlidir"

**Fəzail Ağamalı deyir ki, islahatların geniş vüsət aldığı, korrupsiyaya qarşı mübarizə prezident tərəfindən dəstəkləndiyi bir dönəmdə büdcə vəsaitlərinin mənimsənilməsi, təyinatı üzrə xərclənməməsi, müxtəlif yollarla ələ keçirilərək ayrı-ayrı məmurların cibinə axıdılması yolverilməzdir, cinayətdir:** "Bunu bütün büdcə təşkilatlarına aid etmək olmaz. Ancaq belə hallar var və buna qarşı qanunun bütün sərtliyi ilə tədbir görülməlidir. Hesablama Palatası heç bir kənar təsirə uymadan, Palatanın işinə qarışanlara əhəmiyyət vermədən işini davam etdirməli, büdcə oğurluqları haqda hesabatları prokurorluğa təqdim etməlidir".

### "Bunun 1 adı var - cinayət!"

Hesablama Palatasının hesabatlarında "yayınma", "təyinatı üzrə xərclənməmə" ifadələrinin əvəzinə "büdcə vəsaiti mənimsənilib", "şəxsi məqsədlər üçün istifadə olunub" ifadələrinin işlədilməsi haqda təkliflər var. Belə təkliflərin müəllifləri düşünürlər ki, büdcədən oğurluq etmiş məmur bu halda oğurluq etdiyinin məsuliyyətini dərk edə bilər və əməlindən əl çəkər.

**Fəzail Ağamalı belə təkliflərin də dəyərləndirilməsinin vacib olduğunu deyib:** "Razıyam ki, əməl oğurluqdursa, elə oğurluq kimi də göstərilməlidir. Adı nöqsan qoyulmamalıdır. Mənimsəmədirsə, elə mənimsəmə kimi də yazılmalıdır. Külli miqdarda büdcə vəsaiti təyinatdan kənara çıxarılırsa, həmin vəsait mənimsənilirsə, bunun 1 adı var - cinayət!"

### "Şəffaflığı təmin etsələr, kənar təsirlər də olmayacaq, kimsə təzyiq etmək haqda da düşünməyəcək"

Fəzail Ağamalı deyir ki, Azərbaycanda elektron hökumətin yaradılması prosesi belə halların qarşısının alınmasına xidmət edir: "Prezident ortaya çox ciddi tələblər qoyub, hökumətin elektronlaşdırılması belə halların minimuma endirilməsi üçün çox vacib amildir".

**Hesablama Palatasına istintaq aparmaq səlahiyyətlərinin verilməsi təkliflərinə münasibət bildirən deputat deyir ki, bunun üçün dünya praktikasına müraciət etmək vacibdir:** "Hər bir qurumun istintaq idarəsindənsə, Vahid İstintaq Komitəsinin yaradılması daha uyğun, faydalı olar. Hesablama Palatası müəyyən etdiyi büdcə oğurluqları haqda hüquq-mühafizə orqanları ilə yanaşı ictimaiyyətə də bu haqda məlumat verilməsini təmin etməlidir. Şəffaflığı təmin etsələr, kənar təsirlər də olmayacaq, kimsə təzyiq etmək haqda da düşünməyəcək. Hesablama Palatası belə halları ictimailəşdirməklə, Azərbaycan cəmiyyətinə məlumat verməklə göstərməlidir ki, konkret hansı sahələrdə cinayət əməllərinə yol verilib, büdcədən nə qədər pul, hansı məmur tərəfindən oğurlanıb. Belə məsələlər ictimailəşərsə, cəmiyyətin diqqət mərkəzində olarsa, təbii ki, hüquq-mühafizə orqanları da, Respublika Prokurorluğu da üzə çıxarılmış cinayət əməllərini diqqətlə araşdıracaq. İctimai nəzarət olduğu yerdə konyukturaya yol vermək imkanları da xeyli məhdudlaşacaq".

### "Məmur vəzifədə olanda onun qurduğu bizneslə bağlı araşdırmalar aparılmalıdır"

**Fəzail Ağamalı məmurların biznes qurması ilə bağlı da araşdırmalara ehtiyac olduğunu deyib:** "Məmur vəzifədə olanda onun qurduğu bizneslə bağlı araşdırmalar aparılmalıdır. Ancaq bu olmur, məmur vəzifədən çıxarılandan sonra mətbuatda biznesi haqda geniş məlumatlar verilir. Sənədli-sübutlu siyahı təqdim olunur. Məmur həmin siyahılara reaksiya vermir, eyni zamanda KİV-də dərc olunan yazılara hüquq-mühafizə orqanları da reaksiya vermir. Hüquq-mühafizə orqanlarının verdiyi qiymət, ictimai qınaq büdcənin mənimsənilməsinə həvəsli olan məmurların bu yoldan çəkilməsinə böyük təsiri ola bilər".

**Fəzail Ağamalı Hesablama Palatasının saytında yoxlama aparılan ünvanlar haqda məlumatların dərhal yerləşdirilməsi, yoxlamalar haqda hər gün müfəssəl məlumatların sayt üzərindən yayımlanması təkliflərini də müsbət dəyərləndirdi:** "Bu cür yanaşma çox yerində olardı, əlbəttə prosesə ictimai nəzarət sisteminin gücləndirilməsinə çox müsbət təsir göstərirdi. Belə təkliflər nəzərə alınmalıdır".

### "Problemlərin aradan qaldırılması üçün əlavə bir gücə, imkanlara ehtiyac var"

**Deputat Hesablama Palatasının sədri Vüqar Gülməmmədovu peşəkar, öz işini bilən kadr adlandırıb:** "Təmiz imici olan bir şəxsdir. İqtisad Universitetində ona dərs deyən müəllimlərdən olmuşam. Çalışqan bir tələbə idi. Bu gün də qabiliyyətli, bacarıqlı məmurdur. Ancaq belə görünür ki, problemlərin aradan qaldırılması üçün əlavə bir gücə, imkanlara ehtiyacı var. Biz də bu məsələləri parlamentdə qaldırdıq. Ümidvaram ki, Hesablama Palatası parlamentdəki bu müzakirələrdən öz nəticələrini çıxarmalı, kəskin, qətiyyətli mövqeyini ortaya qoymalıdır".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Yaxın günlərdə "Diqlas"ın söküntüsü başlayacaq

## Hazırda sahibkarlar anbardan yanmayan mallarını çıxarırlar

**Ötən həftə "Diqlas" Ticarət Mərkəzinin söküləcəyi xəbəri yayılsa da, hələ ki bu istiqamətdə əsaslı işlərə başlanılmayıb. "Yeni Müsavat"ın məlumatına görə, hazırda ticarət mərkəzinin anbarının boşaldılması davam edir. Artıq 3 gündən çoxdur ki, Fövqəladə Hallar Nazirliyinin əsgər və zabit heyəti ərazidədir, onlar sahibkarlara anbarların boşaldılması üçün yardım edirlər.**






Ümumilikdə isə İqtisadiyyat, Maliyyə, Vergilər, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Baş Prokurorluğun, Dövlət Gömrük Komitəsinin, Nizami Rayon İcra Hakimiyyəti əməkdaşlarının və sahibkarların iştirakı ilə akt tərtib edilərək yanmamış mallar sahibkarlara təhvil verilir, yanğın nəticəsində yararsız vəziyyətə düşmüş mallar isə müvafiq akt tərtib edilməklə Suraxanı rayonunda xüsusi ayrılmış anbara göndərilir. İndiyədək 175-dən çox sahibkar mallarını ticarət mərkəzindən çıxarıb.

Ərazidə FHN-in yük maşınları da dayanıb. Çıxarılan mallar həmin maşınlara yüklənir və sahibkarın göstərişinə uyğun olaraq əraziyə aparılır. Anbarda daha çox tikintidə istifadə olunan materiallar olub. Geyim mağazalarının sahibləri öz mallarını vitrində və ya mağazalarında saxlamağa üstünlük veriblər. Anbar yanmasa da görünən odur ki, içəri su sızıb. Çünki çıxarılan divar kağızlarının əksəriyyəti yararsız, nəmli vəziyyətdə idi.

Ərazidə olduğumuz zaman müşahidə etdik ki, ticarət mərkəzinin qarşısında və ətrafında olan bütün xırda obyektlər sökülüb. Məlumat üçün bildirək ki, həmin obyektlərin sahiblərinə maddi yardımın edilməsi nəzərdə tutulmayıb. Ticarət mərkəzinin özünün isə sökülməsi istiqamətində heç bir addım atılmır. Hələ ki bu tikilinin konkret olaraq nə zaman söküləcəyi isə bildirilmir. Ərazidəki rəsmilərdən aldığımız məlumata görə, anbar boşalandan sonra söküntü istiqamətində işlər aparılacaq. Qarşıdan Azərbaycanda "Formula 1" yarışının keçiriləcəyi, yüzlərlə turistin gələcəyini nəzərə alsaq, "Diqlas"ın yaxın zamanlarda söküntüsünə başlanılacağı şübhə doğurmur.

İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, indiyədək İşçi Qrupu tərəfindən barəsində maddi yardımın ödənilməsi qərara alınmış 159 zərər çəkmiş sahibkara 1 mln. 142 min manat məbləğində maddi yardım ödənilib.

Ödənişlər "Kapital Bank" və "TuranBank" vasitəsilə həyata keçirilir. Vəsaitlər sahibkarlara bank kartları vasitəsilə nağdsız şəkildə verilir və banklar tərəfindən maddi yardımdan xidmət haqqı tutulmur.

❑ **Əli RAİS, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 77 (7247) 12 aprel 2019

# 12-si Şeyxin 40 ili-niyə Allahşükür Paşazadə...

## Qafqaz Müsəlmanları İdarəsi Azərbaycanın ən qədim dini mərkəzidir

**Xəbər verdiyimiz kimi, ölkə prezidenti "Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzalayıb.**

Sərəncamda deyilir ki, Şeyxülislam Allahşükür Paşazadə bütün həyatı boyu cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olunması yolunda səmərəli fəaliyyət göstərmiş, yaxın tarixi keçmişdə xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı həm dini rəhbər, həm də ictimai xadim kimi yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmişdir. O, ölkəmizdə beynəlxalq hüquq normalarına və mütərəqqi tarixi ənənələrə əsaslanan dövlət-din münasibətlərinin formalaşması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və təbliği sahəsində səmərəli xidmətlər göstərməkdədir.

Sərəncamda DQİDK QMİ-nin təkliflərini nəzərə almaqla, Şeyxülislamın anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinə həsr edilmiş tədbirlər planını hazırlayıb həyata keçirmək, Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Qeyd edək ki, Qafqaz Müsəlmanları İdarəsi hazırda Azərbaycanda fəaliyyət göstərən ən uzunömürlü təşkilatdır. Eyni zamanda QMİ dövlətin tanıdığı və səlahiyyət verdiyi əsas dini qurum, belə desək, dini mərkəzdir. Hər bir müsəlman ölkəsində dini mərkəzin olması o dövlətin bir mənada dini müstəqilliyi və xaricdən asılılığı qarşısında əsas sipər hesab olunur.

Doğrudur, QMİ-nin xarici dini təsirlərin qarşısını tamamilə aldığını demək çətindir. Çünki bunu etmək o qədər də asan deyil, xüsusən də Azərbaycan kimi yeni müstəqil olmuş və din azadlığını yeni əldə etmiş ölkə üçün. Lakin hər bir halda, QMİ Azərbaycanda rəsmi olaraq ölkənin baş dini idarəsi və mərkəzi kimi xarici təsirlərə qarşı dayanmağa çalışır. Yeri gəlmişkən, 4 ildən sonra bu idarənin yaranmasının 200 ili tamam olacaq.







Qeyd edək ki, QMİ-nin rəsmi saytında qeyd olunur ki, təşkilat bu regionda - Azərbaycan Respublikasında, Ermənistan Respublikasında, Gürcüstan Respublikasında, Rusiya Federasiyasının Şimali Qafqaz (Dağıstan, Çeçenistan, İnquşetiya, Qaraçay-Çərkəz, Kabarda-Balkar, Adıgey və Şimali Osetiya-Alaniya) ərazisində yaşayan müsəlmanların dini qurumlarını özündə birləşdirən tarixi, İslam dini ali mərkəzidir. Eyni zamanda Azərbaycanda təşkilat məsələlərində İslam dini icmaları QMİ-yə tabedirlər.

Qafqaz Müsəlmanları İdarəsinin yaranması isə bir mənada zərurətin nəticəsi olub. 19-cu əsrin əvvəllərində Cənubi Qafqazı işğal edən Rusiya burada ilk vaxtlardan yerli müsəlmanların qonşu ölkələrlə, xüsusən də İranla dini bağlarını zəiflətmək üçün yerli dini mərkəzə ehtiyac duyurdu. Çünki müsəlman əhalisi təbii olaraq İranda, eləcə də İraqda və digər müsəlman dini mərkəzləri ilə bağlı idi. Çar Rusiyasına isə yeni müsəlman təbəələrin dini işlərini idarə etmək üçün təşkilat lazım idi. Daha əvvəl Təbrizdən gəlmiş Ayətullah Təbatəbai bir müddət bu işi icra etsə də, sonradan geri qayıtdı.

Nəhayət, 1823-cü ildə Rusiya Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsini və şeyxülislam vəzifəsini təsis etdi. İlk şeyxülislam isə Tiflis axundu Məhəmməd Əli Hüseynzadə oldu. Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi tərkibinə Şimali Azərbaycan, Qərbi Azərbaycan, Qars, Ərdahan, Batumi, Krasnodar, Terek və Gürcüstan ərazilərində yaşayan müsəlman əhali daxil idi.

1872-ci il tarixli fərmanı ilə "Cənubi Qafqaz Şiə və Sünni Məzhəbləri Müsəlman Ruhani İdarələri haqqında" əsasnamələr təsdiq edilib. Bununla da Cənubi Qafqazda müsəlmanların iki dini idarəsi - Şiə Şeyxülislamlıq və Sünni Müftilik təsis edildi.

1918-ci il Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra hər iki ruhani idarəsi Gəncə şəhərinə köçürülür. 1918-ci ilin 1 sentyabrında iki ruhani idarə birləşdirilərək "Məşixət" (Şeyxlik) adı altında yenidən qurulub. Şeyxülislam və müftinin 1 sentyabr 1918-ci il tarixli birgə qərarı ilə hər iki idarə "Məşixət" adlanan vahid bir idarədə birləşdirildi. Bakının azad edilməsindən sonra isə Məşixət paytaxt Bakıya köçüb.

Ancaq sovet işğalından sonra İslam dini qadağan olunur və bütün dini qurumlar, o cümlədən şeyxülislamlıq ləğv olunur. Sovetlər bir də İkinci Dünya müharibəsində Hitler ordusu Şimali Qafqazın bir hissəsini işğal edəndə Stalin SSRİ-dəki dini qurumları, o cümlədən Zaqafqaziya Müsəlmanları İdarəsini yenidən bərpa etmək qərarına gəlir. 1943-1944-cü illərdə SSRİ Ali Soveti Rəyasət Heyətinin müvafiq qərarları ilə SSRİ-dəki müsəlman obyektlərinə və ruhanilərinə əməli rəhbərlik etmək üçün bir neçə müsəlman dini idarəsi, o cümlədən ZMRİ yaradıldı.

1944-cü il mayın 25-28-də Zaqafqaziya Müsəlmanlarının I Qurultayı keçirilir və Axund Ağa Əlizadə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin (ZMRİ) sədri seçilir. Maraqlıdır ki, bu təşkilatın ilk fətvalarından biri də faşistlərə qarşı cihad çağırışı olur. Sonrakı illərdə ZMRİ fəaliyyətini davam etdirir və bir mənada SSRİ-nin müsəlman ölkələri ilə əlaqələrdə aktiv iştirak edirdi.

Azərbaycan müstəqil olduqdan sonra ZMRİ artıq yerli Azərbaycan dini qurumu oldu və Qafqaz Müsəlmanları İdarəsi adını aldı. İdarənin hazırkı sədri və sayca 12-ci Şeyxülislam Hacı Allahşükür Paşazadə 1949-cu ildə Lənkəran Rayonmunun Cil kəndində anadan olub. Buxara Mir-Ərəb mədrəsəsində və Daşkənd İslam İnstitutunda təhsil alıb. 1980-ci ildən ZMRİ-nin sədri seçilən Şeyxülislam Allahşükür Paşazadə Qafqaz müsəlmanlarının 29 iyul 2003-cü il tarixində keçirilmiş XI Qurultayında yekdilliklə ömürlük sədr - Şeyxülislam seçilib. Qeyd edək ki, 1823-cü ildən bu günə kimi 12 şeyxülislam və 11 müfti olub.

Bundan başqa, şeyxülislam Allahşükür Paşazadə 2003-cü ildən - MDB Dinlərarası Şurasının yarandığı gündən bu qurumun həmsədridir. Bundan başqa, şeyxülislamın Şimali Qafqaz müftiləri və din xadimləri üzərində nüfuzu sayəsində Qafqaz Xalqları Ali Dini Şurasının sədri seçilib. Dünyada və xüsusən də müsəlman ölkələrində ciddi nüfuzu olan Şeyxülislam dinlərarası dialoq, tolerantlıq və eləcə də siyasi və dini əlaqələrin qurulmasında ciddi rola malikdir. Həm özü, həm də rəhbərlik etdiyi qurum tarixi ənənələrə görə Azərbaycan üçün xüsusi önəm daşıyır.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# "Sepah-ın Azərbaycana qarşı cəhdləri olub"-iddia

## Politoloq: "Tək bu faktın özü ABŞ-ın addımına münasibətimizi müəyyən etməlidir"

**ABŞ hökuməti tarixində ilk dəfə başqa bir ölkənin rəsmi güc strukturunu - ordusunu terror təşkilatı olaraq tanıyıb. "Yeni Müsavat" yada salır ki. söhbət prezident Donald Trampın dünyanı qarışdıracaq növbəti qalmaqallı sənədə imza atmasından gedir. Ağ Ev sahibi İran İslam İnqilabı Keşikçiləri Korpusunu (Sepah) terror təşkilatı elan edib.**

Trampın bu addımı Vaşinqtona dost olmayan ölkələrin ABŞ ordusu və təhlükəsizlik qüvvələrinə qarşı analoji addım ata bilmələrinə şərait yaratdığı səbəbindən ölkə daxilində sərt tənqid edilir.

ABŞ ötən ayın sonunda İran İran İslam İnqilabı Keşikçiləri Korpusunu, eləcə də Sepah-a bağlı bəzi şəxslər və qurumları qara siyahıya salmışdı.



Sepah İran silahlı qüvvələrinin ən böyük qoşunudur. Xalq içində və xüsusilə İran diasporunda orduya mənsub insanlara təşkilata olan heyranlıqlarını bildirmək üçün farsca keşikçi mənasını verən "Pasdaran" deyilir.

Sepah 5 may 1979-cu ildə İslam inqilabının ilk günlərində dini lider Ayətullah Xomeyni tərəfindən yaradılıb.

İran konstitusiyasına uyğun olaraq daxili sabitliyin təmin edilməsi, inqilabın qorunması və "azğınlığın" qarşısının alınması üzrə vəzifələri həyata keçirir.

İnqilab keşikçilərinin quru, hava və dəniz qoşunlarında ümumilikdə 125,000 şəxsi heyət xidmət edir. İnqilab keşikçilərinin dəniz qoşunları Fars körfəzində hərəkətə nəzarəti təmin etmək vəzifəsi verilmiş ilk qoşundur.

Bəs ABŞ-la müttəfiq olan və İranın qapı qonşusu Azərbaycan bu situasiyada nə etməlidir? Rəsmi Bakının Vaşinqtonun qərarına münasibət bildirmək zərurəti varmı?

**Politoloq Nəzakət Məmmədova "Yeni Müsavat"a bildirdi ki, ideologiyası antiimperializm, antisionizm olan bu təşkilatın ABŞ tərəfindən terror təşkilatı elan edilməsi gözlənilən idi.**

**Onun sözlərinə görə, Sepah xüsusən də general Qasım Süleymaninin başçılıq etdiyi Qüds briqadası Yaxın Şərq siyasətində fəal iştirak edir:** "Sepah dövlət içində dövlətdir, onun fəaliyyət coğrafiyasına Yaxın Şərqin şiə ayparasında İranın siyasi, hərbi, diplomatik, kəşfiyyat maraqlarının qorunması dayanır.

Fələstin Azadlıq Təşkilatı, Hizbullah, Mehdi ordusu, Həşdi-Şabi, Husi ordusu hamısı məhz Sepah-ın nəzarətindədir. Bu təşkilatın Yaxın Şərqdəki proseslərdəki rolunu, qüdrətini inkar etmək olmaz".

**Xanım ekspertin fikrincə, Sepah-ın Xarici Kəşfiyyat Komitəsi fəaliyyət göstərir:** "Həmin strukturların Livan, Sudan İran körfəsi ölkələri, Fələstin, Almaniya, Fransa, Kanada, Braziliya, Paraqvay, Pakistan və Filippin ərazilərində də şaxələnmiş agentura şəbəkələri mövcuddur.

Sepah-ın yaxın tərəfdaşlarından biri də Ermənistan ordusudur. İşğal olunmuş Azərbaycan-İran sərhədinin 132 km.hissəsində Sepah Ermənistana qarşı indiyədək bir dəfə də olsa, təxribat etməyib, sərhədi pozmayıb. Əksinə, bir neçə dəfə Azərbaycanda konstitusiya quruluşunu dəyişmək cəhdləri edib. Tək bu faktların özü ABŞ-ın addımına bizim münasibətimizi müəyyən etməlidir. Əksinə, ABŞ Azərbaycana sərhəd təhlükəsizliyi məsələsində texnika ayırıb. Azərbaycanın burada marağı olmayan dövlət kimi rəsmi münasibət bildirməsi tələb olunmur".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 77 (7247) 12 aprel 2019

# Quduz itləri, yoxsa insanları qoruyaq?

## Küçələrdə, məhəllələrdəki sahibsiz, virus daşıyıcısı olan və adamların həyatına təhlükə yaradan itlərlə bağlı effektiv tədbirlər görülməlidir

**Bu günlərdə Göyçay rayon sakini Qoşqar Quliyev iş dişləməsi nəticəsində dünyasını dəyişib. Məlum olub ki, bir müddət bundan əvvəl Q.Quliyevi yaşadığı evin həyətindəki it dişləyib. İt hadisənin səhəri günü ölüb. Səhiyyə Nazirliyinin məlumatına görə, rayon sakini 39 gün müddətində həkimə müraciət etməyib. Yalnız quduzluq əlamətləri müşahidə olunduqdan sonra həkimə müraciət edib, xəstəxanaya çatdırılıb. Həkimlərin səyinə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmayıb.**

Quduzluq nədir? Bu virus insan orqanizmində necə inkişaf edir və öldürür?

Qeyd edək ki, quduzluq (sudanqorxma) ağır ensefalitin inkişafı ilə xarakterizə olunan "zoonoz" virus neyroinfeksiyadır. Bu virus əsasən ət yeyən heyvanlarda, o cümlədən tülkülərdə, çaqqallarda, canavarlarda, həmçinin ev itlərində, pişiklərində mövcud ola bilir. Heyvanlarda xəstəliyin inkişafı 3 mərhələdən ibarət olur: xəstəliyin ilkin mərhələsində heyvanlar gizlənirlər, insanlardan qaçırlar, bəzən isə digər heyvanları və insanları yalamaq istəyirlər. İkinci mərhələdə heyvan qıcıqlanmış olur, gördüyü əşyalara, insanlara, heyvanlara hücum edir. Son mərhələdə isə heyvan hərəkət etmir, komaya düşür və ölür.



İnsanlarda yoluxma əsasən dişləmə və ya zədələnmiş dəri örtüklərinə infeksiyalaşmış ağız suyunun bulaşması ilə baş verir. İnsandan bir qayda olaraq virus ötürülmür. Virus inkubasiya dövrünün sonuncu 7-10-cu günündən başlayaraq bütün xəstəlik dövrü ifraz olunur. İnsan bir çox yırtıcı heyvanlardan fərqli olaraq daha həssasdır. Xəstəliyə yoluxma halları ən çox kənd əhalisi arasında və xüsusən də uşaqlarda yaz-payız aylarında çox rast gəlinir.

Mərkəzi sinir sisteminə keçmiş quduzluq virusu uzunsov beyin neyronlarında, beyin əsasının düyünlərində və onurğa beynin sol hissəsində fiksasiya olunur. Bu isə reflektorlu oyanmanın artmasına, sonradan isə ifliclərin inkişafına səbəb olur. Quduzluq üçün xarakterik olan tənəffüs və udma əzələlərinin qıc olması dil-udlaq, dilaltı sinirlərin zədələnməsi ilə əlaqədardır. Sinir sisteminin qıcıqlanması ağız suyunun axmasına, tər ifrazının artmasına səbəb olur. Daha sonra ürək-damar sisteminin pozulması müşahidə olunur. Bunla da mərkəzdən qaçan sinir lifləri ilə ağız suyu vəzilərinin sinir uclarına çataraq xəstənin ağız suyuna keçmiş olur.

İnsanlarda da xəstəliyin inkişafı 3 mərhələdə olur. Birinci mərhələdə ilk öncə heyvanın dişlədiyi yarada qızarma, narahatlıq yaranır. Daha sonra bədən hərarəti bir qədər yüksəlir, depressiv hal müşahidə olunur. Yuxu pozulur, xəstə qorxulu yuxular görür.

İkinci mərhələdə psixomotor oyanma, qıcıqlanma başlayır. Xəstədə sudan, işıqdan qorxma halları müşahidə olunur. Xəstələr su içmək istəyəndə boğazlarında spazm olur, panika başlayır. Xəstələr işıqdan, səsdən dəhşətli qorxurlar, qıcolmalar olur. Xəstələr öz paltarlarını cırırlar, ətrafdakılara hücum etməyə çalışırlar, dişləməyə can atırlar, idarəedilməz olurlar.

Sonuncu mərhələdə isə artıq paralic, koma baş verir, xəstə hərəkətsizləşir, bədən hərarəti 40 dərəcəyə qədər qalxır, ürək və tənəffüs dayanmasından xəstələr ölür.

Bəzən isə xəstəliyin aktiv əlamətlərinin başladığı 5-8 gün ərzində xəstələr ölür. Uşaqlarda isə xəstəlik daha sürətli inkişaf edir, bəzən bir gün ərzində ölürlər.

Bu baxımdan it dişləməsi zamanı mütləq şəkildə vaxt itirmədən həkimə müraciət etmək lazımdır. Vaxtında müdaxilə ölümün qarşısını ala bilir. Mütəxəssislər bildirir ki, belə bir hal baş verdikdə ilk olaraq, təcili yaranı çoxlu miqdarda su ilə sabunlayıb yumaq, yaranı sıxıb qan çıxartmaq lazımdır. Yaranı yuyarkən 70%-li spirtdən istifadə etmək tövsiyə olunur. Təcili olaraq həkimə (yaxşı olar infeksionistə) müraciət edib, quduzluq əleyhinə vaksin vurulmalı, sxem üzrə vaksinin vurulması sonrakı günlərdə də davam etdirilməlidir.

Bir faktı da qeyd edək ki, quduzluq virusu bir çox ölkələrdə problem olaraq qalmaqdadır. Məsələn, Hindistanda ildə təxminən 55 min insan quduzluq üzündən tələf olur. Eyni zamanda ildə təxminən 10 milyon insan quduzluğa şübhəli xəstə kimi müalicə alır.

Qeyd edək ki, son illərdə nəinki paytaxt Bakıda, eləcə də regionlarda sahibsiz, küçə itlərinin sayı artmaqdadır. Hətta mərkəzi küçələrdə, parklarda itlər tez-tez insanlara hücum edir, qorxudurlar. Təkcə son 3 ayda Lənkəranda 110 nəfər it dişləməsi səbəbindən xəstəxanaya müraciət edib, quduzluğa qarşı vaksinlər vurulub, onların həyatı xilas olunub. Yaranmış vəziyyətdən ciddi narahat olan yerli sakinlər bunun qarşısının alınması üçün aidiyyəti qurumlardan yardım istəyir.

Bəs nə etməli?

Xatırladaq ki, ötən ilin oktyabr ayına qədər paytaxtdakı sahibsiz küçə itləri ilə bağlı Bakı şəhəri Mənzil-Kommunal Təsərrüfatı Departamentinin balansındakı, sahibsiz heyvanlarla mübarizəyə cavabdeh olan Sanitariya və Texniki Təmizlik İdarəsi məşğul olurdu. Lakin sonradan qurumun fəaliyyəti dayandırıldı. Əvəzində bu ilin 1 mart tarixində Heydər Əliyev Fondu və Bakı Şəhər İcra Hakimiyyətinin birgə layihəsi ilə Sabunçu rayonunun Balaxanı qəsəbəsində sahibsiz itlərə sahib çıxan "Toplan" Sahibsiz İtlərə Qayğı Mərkəzi açılıb. Quruma gətirilən itlər tibbi müayinədən keçirilir, peyvəndlər vurulur, qısırlaşdırma və digər proseduralar aparılır. Xüsusi hallarda (açıq ərazilərdə, narahat davranan və s.) itləri tibbi ləvazimatlarla təchiz edilmiş avtomobillərə yükləmək üçün itlərin sağlamlığına ziyan vurmayan xüsusi uyuducu məhlullarla doldurulmuş silahlardan istifadə edilir.

Lakin bu işlər küçələrdəki sahibsiz itlərlə bağlı problemin həll olunmasına ciddi təsir göstərə bilmir. Üstəlik, itlərin sayı çox olduğundan onların hamısının qısırlaşdırılması da mümkün deyil. Bakının mərkəzi küçələrində insanlara hücum edən sahibsiz itlərin sayının artmasına dair çoxsaylı informasiyalar yayılmaqdadır.

**"Alyans" Canlı Aləm və Etika Xeyriyyə Cəmiyyətinin rəhbəri Mənsurə Rəsulzadə isə mövzu ilə bağlı "Yeni Müsavat"a danışarkən insanların deyil, heyvanların müdafiəsini üstün bilib. O deyib ki, itlərin sayının artması normaldır:** "Diqqət etsək görərik ki, insanların da sayı artıb. Sahibsiz itlərin hətta mərkəzi küçələrdə belə insanlara hücum etməsinə gəldikdə, yəqin ki, velosiped sürən insanlara hücum olub, bu da normal haldır. Heyvanların nəzarətsiz qalması bu işə baxan aidiyyəti qurumların işidir. Heyvanları yaralamaq, onları qısırlaşdırmaq, su, qida olmayan quru ərazilərə buraxmaq qeyri-humanistlik, qəddarlıqdır. O heyvanların hamısı mehriban, insana inanan heyvanlardır. Şəxsən bu vaxta qədər heç bir zaman heyvan aqressiyası ilə rastlaşmamışam. Hətta sürü ilə olan heyvanların içərisinə daxil oluram, problem yaşanmır".

Lakin fakt ondan ibarətdir ki, küçələrdəki sahibsiz itlərin heç də hamısı sağlam deyil, bir çoxu virus daşıyıcısıdır, quduzluq yayırlar. Vaxtaşırı quduz itlərin insanlara hücum edib dişləməsi də faktdır. Bu səbəbdən insanların, xüsusilə təhlükəsizliyi istiqamətində sahibsiz itlərin məhəllələrdən yığışdırılması üçün müvafiq dövlət qurumları hərəkətə keçməlidir.

**❑ Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Havanın çirkləndirən məşhur restoranlara xəbərdarlıq

## Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ciddi yoxlamalarına baxmayaraq, hələ də bəzi restoranlar havanı çirkləndirməkdə davam edir

**Havaların isinməsi ilə restoranların həyətində keçirilən şənliklər, toy və nişanların da sayı artmaqdadır. Artıq bəzi restoranların havalandırma sistemindən müştərilərinin çox olduğunu öyrənmək olur. Belə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ciddi yoxlamalarına baxmayaraq, hələ də bəzi restoranlar havanı çirkləndirməkdə davam edir.**

ETSN-in yaydığı son məlumatdan belə aydın olur ki, həmin restoranların içərisində məşhurları da var. "Bunlar "Real", "Golden Ring", "Sonalar Sonası", "Milord", "Həyat", "Cənnət", "Flaminqo", "Qızıl Buta", "Madonna", "Afrodita", "Oazis", "Qızıl Tac", "Gold Palace", "Niel", "İdeal", "Şəhanə" və digər şadlıq saraylarıdır ki, onların sahiblərinə çirklənmiş filtrlərin vaxtlı-vaxtında dəyişdirilməsi barədə göstərişlər verilib. Araşdırma və monitorinqlər davam etdirilir", - deyə, məlumatda bildirilir.

"Yeni Müsavat" "Flaminqo", Golden Ring", "Gold Palace", "Qızıl Buta" restoranları ilə əlaqə yarada bilib. Restoranların hamısından oxşar cavab verildi. Bildirildi ki, onlar bu qurğunu bir neçə ay öncə quraşdırıblar və lazımi baxımı həyata keçirəcəklər.



**Qeyd edək ki, havanı çirkləndirən məişət obyektləri ilə bağlı birbaşa ölkə başçısının ciddi xəbərdarlığı olub. Belə ki, prezident İlham Əliyev oktyabrın 9-da Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında məsələ ilə bağlı ciddi tapşırıq vermişdi:** "Axşam saatlarında Bakı şəhərini tüstü bürüyür. Şadlıq evlərində tüstü təmizlənmədən havaya sovrulur. Ona görə çox ciddi xəbərdarlıq edilib, kim əməl etməyəcəksə, o şadlıq evinin, məişət obyektinin qapısı bağlanacaq. Mən tapşırmışam ki, bunun üçün hüquqi əsaslar hazırlansın. Bildiyimə görə, birinci xəbərdarlıqdan sonra bir çox məişət obyektləri təmizləyici qurğuları quraşdırmağa başlayıblar. Onların hamısına məsləhətim ondan ibarətdir ki, bu işi tezləşdirsinlər. Çünki ikinci xəbərdarlıq olmayacaq, bir də görəcəklər ki, əldən çıxdı. Ona görə tezliklə bütün böyük-kiçik məişət obyektlərində havanı çirkləndirən, havaya tüstü, kanserogen buraxan obyektlərdə təmizləyici qurğular quraşdırılmalıdır, müvafiq qurumlar monitorinq aparmalıdır. Mən Bakı Şəhər İcra Hakimiyyətinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göstəriş verdim ki, mənə dərhal məlumat verilsin və dərhal ölçü götürüləcək".

"Yeni Müsavat" qəzeti olaraq bu barədə restoranların ətrafında yaşayan əhalinin fikirlərini aldığımız zaman onlar durumun xeyli dərəcədə acınacaqlı olduğunu bildiriblər. Sakinlər söyləyirlər ki, restoranlar yay aylarında açıq havada məclis qurub, gecə saatlarına qədər səsgücləndiricilər vasitəsilə onları narahat etmələri ilə yanaşı, havanı da zəhərləyirlər. Onların sözlərinə görə, bununla bağlı müvafiq qurumlara dəfələrlə şikayət etmələrinə baxmayaraq, bəzi restoranlar öz fəaliyyətlərinə davam edirlər.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**




# Dünyaya açılan gözəllik pəncərəsi

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Mübarək Şəban ayını yaşamaqdayıq. Bu ay özünün bütün bərəkətləri, fürsət və imkanları ilə yanaşı, mübarək mövludları ilə də zəngindir. Xüsusilə bu ayda Kərbəla qəhrəmanlarının - İmam Hüseynin (ə), Həzrət Əbülfəzl-Abbasın (ə), İmam Səccadın (ə) nurani mövludları sanki Kərbəlanı insanlara bir daha xatırlatmış olur. Ona görə də bu bəhsimizdə bütün Kərbəla qəhrəmanlarının dayağı olmuş xanım - Həzrət Zeynəb (s.ə) barədə danışacağıq. Və bununla yanaşı, Qurani-Kərimdə əksini tapmış bir xanım barədə də bəhs edəcəyik.**

**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**



## Allah Təalanın Qurani-Kərimdən tanıtdırdığı nümunə

Xanım Zeynəb (s.ə) bütün toplumda olan stereotipləri, ictimai yanlışları kökündən dəyişə bilmişdir. Əgər Həzrət Peyğəmbərimizin (s) qızı Həzrət Zəhra (s.ə) bu yolun başlanğıcı və nümunəsidirsə, Həzrət Zeynəb (s.ə) bu nümunənin praktik və əməli halda öz həyatı ilə yaşayan əsas şagirdlərindən olub.

Allah Təala Qurani-Kərimdə həm pis insanları göstərir, həm də yaxşı insanları. Yaxşı insanları möminlər üçün nümunə göstərərkən, xanımlardan da misal gətirir. Allah Təala iki xanımı nümunə olaraq göstərib. Onlardan biri də Fironun (lən) zövcəsi Asya xanımdır (s.ə). "Təhrim" surəsinin 11-ci ayəsində Allah Təala buyurur: "Və Allah iman gətirən kəslər üçün Fironun zövcəsini məsəl çəkdi; o zaman o, demişdi: "Ey Rəbbim, mənim üçün Öz yanında (Öz cəlal və rəhmətinin yaxınlığında) - Cənnətdə - bir ev tik! Mənə Firondan və onun əməlindən nicat ver, məni zalım qövmdən (onun sarayındakılardan və millətindən) qurtar!".

Ayədə tək qadınlar üçün deyil, bütün insanlar üçün nümunə göstərildiyi vurğulanır. Bir nümunə bəs edər ki, insanlar ayılsın. Allah Təala bizlərə anlatmaq üçün nümunələr çəkir, misallar çəkir, bizi tarixdə baş verənlərdən xəbərdar edir. Bu nümunələr kişili-qadınlı hər kəs üçün çəkilir. Misal çəkərkən həm kişilərdən, həm də qadınlardan nümunələr göstərir.

Bəzən deyərlər ki, filan insanlar ata-anadan mömindirlər, ona görə elə o cür həyat yaşayıblar. Xanım Asyanın (s.ə) tövhidi keçmişi yoxdur. Üstəlik o, bir xanımdır ki, özünəməxsus şəraitdədir, dövrün Fironu (lən) kimi birisinin həyat yoldaşıdır. Amma həyatında bir vəziyyət yaşayır, bir həddə qədər təkamül edir, ucalır ki, Qurani-Kərimdə misal çəkilərək, adı, özü nümunə olaraq təqdim edilir. Həm mömin kişilər, həm də mömin qadınlar üçün nümunə olaraq göstərilir.

Bəlli olur ki, bir şərait meydana gəlir ki, Fironun (lən) zövcəsi Asya xanım (s.ə) bu mənada bir sözü deməli olur ki, Allah Təala onu Öz yanına aparsın.

## Tövhidi keçmişi olmayan insan, Quranın nümunələrinə çevrilir

Ayədən başa düşülən nöqtələrdən biri budur ki, Asya xanım (s.ə) Həzrət Musanın (ə) möcüzəsini görür və iman gətirir. Firon (lən) buna görə, ona cəza verir. Qızmar günün altında ağır işgəncələr altında saxlanılır. Asya xanım (s.ə) bu ağır işgəncələr altında bu duanı edir, Allahdan bu şeyləri istəyir. Qurani-Kərim bu duanı, bu sözləri İlahi kəlam olaraq bizlərə təqdim edir.

Mühüm nöqtə budur ki, Asya xanım - məsum deyil, öncədən tövhidi keçmiş yoxdur, amma nümunəyə çevrilir. Tövhidi keçmişi olmayan bir insan, Quranın nümunələrinə çevrilə bilir.

Orada, həmin dövrdə Asya xanımdan daha çox savadlılar da var idi. Amma onlar Həzrət Musanın (ə) göstərdiyi möcüzələrdən ayılmadılar. Bəzən savad bəs etmir, bəzən hətta mane olur.

O, bir qadın idi, yaranan situasiya ilə bağlı onda suallar meydana gəlir. Bu hadisələr onun həyat yoldaşı ilə əlaqədar baş verirdi. Allahın Elçisi (ə) onun həyat yoldaşı ilə qarşı-qarşıya idi. Xanım Asyanın (s.ə) tövhidi ruhiyyəyə yiyələnmək yönündə böyük maneələri var idi. Bir tərəfdən xanım idi, o zaman da, indinin özündə də çox da öyrəşilməyib ki, xanım mənfi streotipləri dağıtsın. Amma o, dağıdır.

Böyük akademik bilgisi, savadı yox idi. Amma fitrəti pak idi. O, ayılır. Digər tərəfdən, atifəsi var idi, ailə bağlantısı kimi mövzuları var idi. O isə ailəni deyil, haqqı seçir, haqla olur, bununla da böyük bir stereotipi dağıdır. Bunlar hamısı düşünülməli məsələlərdir.

Ayədən başa düşülən mühüm məsələlərdən biri də budur ki, Qurani-Kərim haqqı tanımada, haqqa çağırış etmədə qadın ilə kişi arasında fərq qoymur.

## Mühitin yanaşması səhv ola bilər

Həzrət Asya xanımın (s.ə) keyfiyyətlərinə diqqət edək. Mühitin təsiri altında deyil. Biz gərək mühitin təsiri altına düşməməklə bağlı ondan nümunə götürək. "Hamı belə deyir, hamı belə qəbul edir" kimi fikirlərdən azad olmalıyıq. Mühitin yanaşması, düşünməsi səhv də ola bilər. Bizlər mühitin təsiri altına düşməməliyik.

Xanım Asya (s.ə) mühitin təsiri altına düşmür. Özü də bir vəziyyətdədir ki, o, özü mühitin özəyini təşkil edir. Xanım (s.ə) həmin mühitdə ən önəmli şəxslərdən biridir.

Xanım Asyanın (s.ə) digər bir keyfiyyəti budur ki, məntiq əhlidir, şüurlu bir insandır. O, anlayır ki, Həzrət Musa (ə) - Allahın elçisidir. Bunu anlayandan sonra artıq olduğu kimi davrana bilməyəcəyini dərk edir.

## Dünyaya bağlantının mühit amili

Allahın tanıtdığı bu nümunə, bizlərə dünyaya bağlantımızın olub-olmadığını müəyyən etməyə imkan verir. Xanım Asyanın (s.ə) dünyaya bağlantısı yoxdur. Bütün müsibətlər buradan başlayır. Biz əvvəl yaxşı yaşamağa öyrəşirik, sonra yaxşı yaşamaqdan imtina edə bilmədiyimizə görə şeytan (lən) rahat bizə vəsvəsə edə bilir.

İnsanın dünyaya bağlantısı olmamalıdır. Dünyada yaşayırıq, dünyadan istifadə edirik, dünya vasitə kimi çox mühümdür - amma, dünyaya bağlantımız olmamalıdır. Əgər dünyaya bağlantımız olsa, şeytan (lən) burada öz işini görəcək.

Təəssüflər olsun ki, günümüzdə bununla bağlı bir faciəvi durum yaşanır. Vəziyyət o yerə çatıb ki, dünyaya bağlantı istisna deyil, artıq normaya çevrilib. Adamlar olur ki, kasıb olanda təqvalı və pəhrizkarlığı kasıblıqda görür, imkanı artanda - durumu tamamilə dəyişir. Sosioloji araşdırmalar da bunu göstərir ki, insan mühitin təsiri altında olarkən, imkanı olmayanda solçu olur, imkanlı olanda sağçı, kapitalist ruhiyyədə olur.

Görürsən ki, kasıb olan insan hər şeydən narazıdır, bəhanə axtarır ki, narazılığını ifadə etsin. Bir də görürsən ki, həmin insan imkanlı hala keçir, yanında bu şeylərdən danışılan zaman, artıq digərlərini hər şeydən narazı olmaqda qınayır. Nə əvvəlki ifrat, nə sonrakı təfrit yerindədir. İnsan yalnız emosiyaları ilə davranarıda, mühitin təsiri altında olanda, belə çətin durum yaşanar.

Necə ki, imkansızlıq, kasıblıq özü bir imtahandır, elə də imkanın artması, yaşam tərzinin dəyişməsi də böyük bir imtahandır.

İnsanda dünyaya bağlantı olmamalıdır. Bütün imkanlar Asya xanımın ixtiyarındadır. O, öz etiqadı, imana gəlməsi ilə bütün dünya bağlantılarına rahat şəkildə "yox!" deyə bilir. Əgər insanın dünyaya bağlantısı olsa, insan dünya vurğunu olsa - bunu edə bilməz.

## Səbir və agahlıq nümunəsi

Xanım Asya (s.ə) sükut fəzasını dağıdır. Bəzən elə olur ki, böyük sükut olur. Orada kiçik bir səs belə, böyük səsə çevrilir. Asya xanım öz incə, zövqlü, xanıma uyğun yanaşması və mövzuya baxışı ilə sükutu dağıdır, tövhidi səsi trendə çevirir, gündəmi tövhid mövzusu tutur.

Xanım Asya (s.ə) - səbir və ayıqlıq, agahlıq nümunələrindəndir. Məsum rəhbəri, öncülü tanıyan kimi, onu seçir və ardınca gedir. Xanım (s.ə) cənnətdən azına qane olmaq istəmir. Başa düşür ki, bu dünya fanidir və o, cənnətdən azına qane olmaq istəmir.

Höccəti tamamlamaq üçün insana bəzən bircə nümunə bəs edir. Bir toplumda höccətin tamamlanması üçün bir nümunə ilə bəzən kifayətlənmək olur. Allah Təala bir nəfəsi, bir şəxsi, bir xanımı - Firon (lən) kimi birinin zövcəsi olmuş və iman gətirmiş bir xanımı bizlərə misal çəkir və höccəti tamamlayır.

## Həzrət Asya (s.ə) və Həzrət Zeynəbin (s.ə) nümunələri

Zamanımızın böyük müfəssirlərindən, alimlərindən, fəqihlərindən biri Həzrət Zeynəb (s.ə) ilə Xanım Asyanı (s.ə) müqayisə edir. Yəni, biz Həzrət Zeynəbi (s.ə) tanımaq üçün gərək Qurani-Kərimdəki nümunələrə baxaq və paralel olaraq, Həzrət Zeynəbə (s.ə) baxaq. Qurandakı nümunədə bir Xanım (s.ə) iman gətirir, iman gətirəndən sonra verilən işgəncələrə də tab gətirir, yolundan geri dönmür, sonadək dayanır, amma Allahdan istəyir ki, onu bu zülmdən xilas etsin və yanına aparsın.

Amma həmin müfəssir buyurur ki, o, əgər məktəbdirsə, Xanım Zeynəb (s.ə) - bir akademiyadır. Əvvəla, Xanım Zeynəbin (s.ə) vəziyyəti Asya xanımın (s.ə) vəziyyətindən daha ağır idi. Asya xanım (s.ə) cismani işgəncələr altındadır, Həzrət Zeynəb (s.ə) bütün cismani müsibətləri ilə yanaşı, ən ağır ruhi, psixoloji işgəncələr altındadır. Bir neçə qardaşı şəhadətə yetişib, bir neçə balası ən ağır şəkildə qətlə yetirilib, bu qədər əzizini, bu qədər yaxınını gözlərinin qabağında şəhid ediblər. Sonra hələ əsir gedəcək, yolda şəhidlərin övladlarının yavəri olacaq, eyni zamanda bu zülmü yerlə bir etmək üçün həqiqətlərin carçısına çevriləcək.

Bunlar - heç nə ilə müqayisə olunmayacaq dərəcədə böyük işgəncələrdir.

Qurani-Kərimdəki nümunədə bir nəfər Allah yolunda fərdi cismani işgəncələr alır. Bu, çox ağırdır, çətindir və o, bunun müqabilində nümunəvi davranış qoyur. Amma Həzrət Zeynəb (s.ə) Kərbəlada bütün o səhnələrdə, Aşuraya qədər, Aşura günü və Aşuradan sonra bütün mənada imtahanların ən zirvəsindədir. Bəşər tarixində bu Xanım (s.ə) qədər ağrılı işgəncələrlə üz-üzə gələn fərd bəlkə də olmayıb.

## Xanım Zeynəb (s.ə) Allaha müraciəti ilə ali bir məktəb yaradır

Bütün bunların müqabilində Xanım (s.ə) nə deyir? Əziz alim burada iki nümunəni irəli çəkir. Bir tərəfdən Allaha buyurur: "Allahım, bizim bu qurbanımızı qəbul et!".

Fərqə diqqət edin. Xanım Asya (s.ə) Allaha buyurur ki, onu yanına aparsın. Xanım Zeynəbin (s.ə) bütün bu işgəncələrin içərisində yolu davam etdirmək, baş verənləri bəşəriyyətə çatdırmaq missiyası var. Bu məqamda Allahdan istəyir ki, verdikləri qurbanları onlardan qəbul etsin.

Xanımın (s.ə) ikinci əzəmətli sözü isə bu olur: **"(Kərbəlada) gözəllikdən başqa bir şey görmədik".** Xanımın (s.ə) bu iki cümləsi tam yeni vəziyyət yaradır. Biz əgər Xanım Zeynəbi (s.ə) tanımaq istəyiriksə, onu Qurani-Kərimdə insanlar üçün nümunə göstərilən Xanım Asya (s.ə) ilə müqayisə etməliyik. Xanım Zeynəb (s.ə) səbir etmədə, qurban vermədə, isar etmədə, gözəllik görmədə ali nümunələr ortalığa qoyur.

## Kərbəlanın gözəllikləri

Xanım Zeynəbin (s.ə) Kərbəlada gördüyü gözəlliklər nələr idi? Təbii ki, Kərbəlaya baxsaq, orada yüzlərlə, minlərlə gözəlliklər tapa bilərik. Amma əxlaq ustadları bu gözəlliklərin bir neçə mühüm olanını sıralayıblar. Həzrət İmam Hüseyn (ə) hələ Kərbəlaya yola düşməzdən qabaq gözəllik baxışı ilə Allah Təaladan başqa bir şey də istəmişdi. İmam Hüseyn (ə) buyurmuşdu: **"Ümid edirəm ki, hər nə olacaq - Allah Təalanın iradəsi ilə olacaq. Onun üçün hər nə olacaq - xeyirli olacaq, istər şəhadət olsun, istər zəfər olsun!"**

Həzrət İmam Hüseyn (ə) Kərbəlada baş verəcək mövzuları xeyir olaraq dəyərləndirir. Həzrət Zeynəb (s.ə) isə bütün bunlar yaşanandan sonra baş verənlərin gözəlliyini görür.

Əxlaq mütəxəssisləri bunu dəyərləndirərkən, beş nöqtəyə diqqət edirlər.

Biri budur ki, Kərbəlada insanın ali təkamülü baş verir. O insan ki, mələklərə əmr edilmişdi ki, ona səcdə edilsin və mələklər bunu suallandırmışdılar ki, "insana səcdə etməyə dəyərmi?" həmin insan Kərbəlada bu qədər təkamül keçir ki, bütün varlıq aləmi, mələklər də bu səhnədən heyrətlənir. İnsan ən minimumdan, ən maksimuma ucalır. Kərbəlada insanlıq adına, bəşər adına böyük bir yol keçilir.

İkinci mühüm nöqtə - Allahın təqdiratına razı olmaqdır. Bütün mərhələlərdə Allah bəndəsi öz üzərinə düşəni edir. Vəzifəsini tanıyıb, üzərinə düşəni dərk edir, anlayır ki, Allah bəndəsi bu vəziyyətlərdə nə etməlidir və onları edir.

Üçüncü mühüm mövzu budur ki, bütün zamanlar və məkanlar üçün insanın xilası naminə formula təqdim edilir. Kərbəlada haqq ilə batilin sərhədi müəyyən olunur.

Bizim bütün faciələrimiz ondan qaynaqlanır ki, haqq ilə batilin, doğru ilə yanlışın sərhədi bəlli deyil. Əgər sərhədlər bəyan olunsa, aydın şəkildə bilinsə, insanlar rahatlıqla onu pozub, o tərəf-bu tərəfə keçə bilməz.

Dördüncü gözəllik bundadır ki, Kərbəla məktəbi məzlumiyyətin pikində olaraq zəfər çalmağın, qələbə çalmağın mümkünlüyünü göstərir. Hər növ zülmlər edilir, nə qədər çox zülmlər edilirsə, bütün dövranlar üçün İmam Hüseynin (ə) qələbəsi bir o qədər aşkar və aydın olur.

Əxlaq ustadlarının vurğu etdiyi beşinci gözəllik - izzətli seçimdir. Aşura gecəsidir, seçim anıdır, hər şey aydındır. İndi ləyaqət ardınca olanlar izzətli seçimlərini edirlər.

Həzrət Zeynəb (s.ə) Kərbəlada gözəllikdən başqa bir şey görmədim deyərkən, məhz bunları görürdü...

**Allahım, bizlərə həqiqi nümunələrdən örnək götürüb, həyatımızı o nümunələrə uyğun yaşamağı nəsib et!**

**Allahım, Xanım Asyanın (s.ə) agahlıq məktəbindən və Xanım Zeynəbin (ə) təqdim etdiyi gözəllik məktəbindən dərslər götürməyi bizlərə nəsib et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 77 (7247) 12 aprel 2019

# Dünyanın ən uzun ilanı öldü



Dünyanın ən uzun pitonu 10 apreldə Malayziyada ölüb. İlan tikinti meydanlarından birinin ortasında, üstünə ağac yıxılmış vəziyyətdə tapılıb. Ehtimal edilir ki, bu, qəza deyil, qəsdən ilanı öldürmə əməliyyatı olub. İlan bu günə qədər yaxalanan hər hansı ilandan fərqli olaraq, öz uzunluğuna görə tarixə düşə bilər. Belə ki, onun uzunluğu 8 metrdir. Amma hazırda “Ginnesin Rekordlar Kitabı”nda ən uzun ilan kimi qeydiyyata düşən ilanın uzunluğu 7 metr 67 santimetrdir. Bundan başqa, o, çəkisinə görə də hazırda ən ağır ilanı geridə qoyub. Belə ki, onun çəkisi 250 kilodur. Amma amerikan ilanı cəmi 158 kilo olub. Hələlik Malayziya ilanının çəki və uzunluğunu könüllülər müəyyənləşdiriblər. Rekord qeydiyyatçıları tərəfindən hər hansı yoxlama baş verməyib.



## 18 yaşlı qızın oğurlanmasına mane oldu və qəhrəman elan edildi

Böyük Britaniyanın gənc sakini gənc qızın oğurlanmasının qarşısını alıb və qəhrəman olub. Bu barədə “The Mirror” nəşri xəbər verir. Tirnan Makkridi Cənubi İrlandiyanın Derri şəhər sakini olaraq bu cinayətin şahidi olub. “O görüb ki, 3 cinayətkar şəxs 18 yaşlı qızı furqona aparmağa cəhd göstərirdilər. Tirnan buna cəld reaksiya verib. O, kişiləri qışqırıqla qorxudub, qızı isə təhlükəsiz yerə aparıb”.

Daha sonra o, baş vermiş hadisə barədə anasına danşıb. Sonuncu da polis bölməsinə zəng edib. “Hər şey olduqca faciəvi şəkildə bitə bilərdi. O qızın yerində bizim ailə üzvlərimizdən biri ola bilərdi”, bunu da polis əməkdaşı bildirib. Onun sözlərinə görə, gənclik fərqli nüfuza malikdir. Onlardan bəziləri cəsarətli və gənişürəklidilər. Oğlanı şərəf ordeni ilə mükafatlandırıblar.

Mart ayının sonunda Polşada altı yaşlı oğlan pəncərədən özünü atan bir oğlanı xilas edib. Maçik adında oğlan həyətdə dostu ilə oynayırdı və bu zaman pəncərənin yanında 3 yaşlı oğlanın özünü atmaq istədiyini görüb və onu xilas edib.

## Klouna görə vaxtından əvvəl ana oldu

Böyük Britaniyanın Lesterşir qraflığında kloun kostyumunda olan bir adam hamilə qadını qorxudaraq onun vaxtından əvvəl körpəsini dünyaya gətirməsinə səbəb olub. Bu barədə xəbər “Spotted Whitwick” adlı təşkilatın facebook səhifəsində yer alıb. Xəbərə görə, yolda gedərkən kolların arasından 17 yaşında bir kloun hoppanıb. Hamiləliyinin 8-ci ayında olan qadın həmin vaxt gəzintiyə çıxıbmış. Kloun qiyafəli gəncin onu qorxutması ucbatından qadında vaxtından əvvəl doğuş sancıları başlayıb.

Amerikanın Corciya, Alabama və Virciniya ştatlarında isə bu günə qədər bu sayaq zarafatlara görə 12 nəfər həbs olunub. Onlar gizləndikləri küncdən qəfil çıxıb, insanları qorxudur və bundan səbəbi bilinməyən zövq alırdılar. Bundan başqa, Pensilvaniya ştatındakı 16 yaşlı Kristiana Torresin ölümünü də “kloun panikası” ilə əlaqələndirirlər.



## 12 dəfə ana olub, heç bir uşağı özünə saxlamayıb

Amerikada bir bağ evində yaşayan 45 yaşlı Horlock yeddi ay sonra dünyaya gətirəcəyi körpəsini qucağına almadan bir italyan cütlüyə verəcək. Amma bu, onun üçün çox adiləşmiş durumdur. İllərdir surroqat ana (daşıyıcı ana) kimi fəaliyyət göstərən qadın 12 körpəni də uşağı olmayan ailələrə verib. “Uşaqları ailələrə uzatdığım zaman onların üzündəki sevinci görmək hər şeyə dəyər” deyən Carole etdiyinin tək səbəbinin bu olduğunu açıqlayıb. Ayrı-ayrı sevgililərindən 22 və 19 yaşlarında iki qızı olan Carole 1995-ci ildə bir çamaşırxanada işlədiyi vaxt daşıyıcı analığın nə demək olduğunu qəzetdən oxuyub. Sonsuz ailələrə görə ürəyi pis olan qadın həmin vaxt düşünüb ki, əgər doğma qabiliyyəti varsa, bundan insanlıq naminə istifadə etməlidir. Bu xidmətinə görə müəyyən miqdarda pul alan qadın bu işi pul üçün etmədiyini də dəfələrlə vurğulayıb.




QOÇ - Məsləhətsiz addım atmayın. Yaxşı bilirsiniz ki, tərslik etmək sizə xeyir gətirmir. Elə hərəkət edin ki, ətrafdakıların rəğbətini qazanasınız. Bu gün ağır fiziki işlərdən uzaq durun.

BUĞA - Əsəbi situasiyalara mübtəla olsanız da, mətinliyiniz sayəsində nəticə öz xeyrinizə tamamlanacaq. Nahar ərəfəsində və axşama yaxın büdcənizi artırmaq imkanı qazanacaqsınız.

ƏKİZLƏR - Bu maraqlı gündə maliyyə problemlərinizin həllini sürətləndirməlisiniz. Bu, hər mənada sizə kömək ola bilər. Yeni işlərə başlamaq üçün təcrübəli insanlarla müzakirələr aparın.

XƏRÇƏNG - Nahardan sonra mənfi enerjili Ay bürcünüzdə qərar tutsa da, bu, xəstəlik və ya qanqaraçılığı ilə nəticələnməyəcək. Lakin qərar çıxararkən mütləq ehtiyatlı olun. Böyüklərə qulaq asın.

ŞİR - Yaxşı olar ki, bu gün işlə məşğul olmayasınız. Çünki bəxtinizin işdən kənarda gətirəcəyi bildirilir. Dostlarınızın əhatəsində olun. Uzaq olmayan ünvanlara səfər də edə bilərsiniz.

QIZ - Xoş xəbərlər yolunuzu gözləyir. Aldığınız hər bir təklif zövqünüzcə olacaq. Günün ikinci yarısında isə əzmkarlığınızı artırmaqla pul əldə edə bilərsiniz. Səfərə çıxmayın.

TƏRƏZİ - Maraqlı hadisələrlə rastlaşacaqsınız. Oturaq fəaliyyətə ara verin. Sevdiyiniz adamların arasında olmaqla sevincinizi artıra bilərsiniz. Taleyinizdə dönüş ərəfəsi başlamaqdadır.

ƏQRƏB - Təəssüf ki, bu gün ulduzlardan hansısa uğur gözləməyiniz əbəsdir. Yaxşısı budur, əsas qüvvənizi əmək fəaliyyətinə yönəldəsiniz. Başqalarının məsləhəti ilə hərəkət etməyin.

OXATAN - Narahatlığa heç bir əsas yoxdur. Bütün sutkanı xoş təəssüratla başa vuracağınız güman olunur. Sevgi məsələlərində əməli addımlar atmağınız tələb olunur. Prosesləri dondurmayın.

OĞLAQ - Müəyyən gərginliklər müşahidə olunsa da, bu, heç də insanlardan irəli gəlməyəcək. Qarşılaşdığınız çətinliklərə qarşı tədbirli olun. Göy qübbəsi tənbəlliyinizdən şikayətlənir.

SUTÖKƏN - Həmkarlarınızla münasibətlərinizdə soyuqluq yaranmaması üçün bir qədər güzəştə getməyiniz məsləhətdir. Yersiz iddialarınızı bir qədər məhdudlaşdırın. Axşamsa qonaq gedin.

BALIQLAR - Bu gün əsas enerjinizi fəaliyyətə yönəldin. Çünki digər sahələrdə hansısa uğur gözlənilmir. Təxminən saat 14-dən sonra şəxsi işlərinizdə ilkin irəliləyişlər nəzərə çarpacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 3 ayı pizza restoranına girib, kolbasa yedilər



Amerikanın Kolorado ştatındakı Estes Park şəhərində bir ayı iki balası ilə birgə pizza restoranına girib. Bu haqda Fox 31 Denver xəbər yayıb. Heyvanlar restorana bazar gecəsi, içəridə heç kim olmayanda daxil olublar. Onlar iyləyərək yeməklərin yerini tapıblar və nəticədə xəmiri, eləcə də kolbasanı yeyiblər. Restoranın içərisindəki kameranın görüntüləri artıq mediada yayılıb və sosial şəbəkələrə də yol tapıb. Pizza restoranının işçiləri polisdən heyvanları öldürməməyi xahiş edib. “Hazırda şəhərdəki hər bir zibil yeşiyi ayılardan qorunma altındadır. Buna görə də ayılar bizim evlərimizə, maşın və kampaniyalarımıza hücum edirlər”. Bunu da restoran işçiləri restoranın facebook səhifəsində yazıblar. Sentyabr ayında isə məlum olmuşdu ki, Cordan Kout həyətinə girən ayılardan mədəni şəkildə o məkanı tərk etməyi xahiş edib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 3.190